Azərbaycanın mükəmməlliyi onun bütövlüyündədir:
Güney Azərbaycan, İrəvan, Borçalı, Qarabağ!
R.Bahar SONAM

R.Bahar SONAM AZƏRBAYCAN - QARABAĞ...

R.Bahar SONAM

AZƏRBAYCAN - QARABAĞ...

822 853 874 884

(sənədli-publisistik)

R.Bahar SONAM

AZƏRBAYCAN
QARABAĞ
1988...

Az2

R.Bahar SONAM
AZƏRBAYCAN - QARABAĞ...

Hərbi tarixi araşdırmaçı yazıçı R.Bahar SONAMın dünya ictimaiyyətinə təqdim etdiyi "AZƏRBACAN - QARABAĞ..." adlı kitabı Azərbaycan xalqına qarşı er-məni vəhşiliklərindən bəhs edir.

AZƏRBAYCANIM...

Dərdimin içində dərd olmusan Sən,
Ruzgarın möhnəti necə ağırmış?!
Göz yaşım içində boğulmuşam Mən,
Ələmim başıma gecə yağırmış.
Dərdimlə bu dərdi nə edim, canım?
Dərdimin dərd yükü Azərbaycanım!

Könlümün içində ağlaram Sənə
Qoymaram ocağın lap tamam sönə!
Zinətim yoxumdur, bil, Səndən önə...
Gələrmi o şirin çağların yenə?
Həsrətin bu dərdin nə edim, canım?
Dərdimin dərd yükü Azərbaycanım!

Zahirim bir dünya aydın şəfəqsə,
Daxilim al qanlı acı kədərdi...
Bu saysız insanlar duyurmu nəsə?!
içimdən-içimi üzən bu dərdi?
Ömrümün bu dərdin nə edim canım?
Dərdimin dərd yükü Azərbaycanım!

ERMƏNİ DİASPORU İŞ GÖRÜR!!!

Bu gün Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan torpaqlarındakı uğurlu hərb əməliyyatları müəyyən dərəcədə Amerikada, Fransada, Rusiyada və başqa xarici dövlətlərdə fəaliyyət göstərən erməni cəmiyyətlərinin müxtəlif cür yardımları ilə bağlıdır.

Möçtəbər mənbələrə istinadən:

1. Hər ay o cəmiyyətlər Ermənistan Müdafiə Nazirliyi-nin fonduna xeyli məbləğdə pul keçirir.
2. Azərbaycana qarşı döyüşlərdə həlak olmuş əsgərlərin ailələrini himayəyə götürür.
3. Azərbaycan Silahlı Qüvvələrinin hərbi texnikasını vuran, əsgərini öldürən və ya əsir tutan erməni döyüşçüsünə külli miqdarda mükafat verirlər.

Bu kimi xeyriyyəçilikdən kənarda qalan cəmiyyətlər (təşkilatlar) isə ya ləğv olunur, ya da böyük məbləğdə cərimə ödəməklə günahlarını yuyurlar. Təsadüfi deyil ki, dünyanın hər hansı bucağında yaradılan erməni cəmiyyətləri qeyri-rəsmi qaydada olsa da, mütləq Yerevanda qeydə alınmalıdırlar. Bu, onların fəaliyyətini ardıcıl nəzarətdə saxlamağa və işlərini məqsədyönlü istiqamətləndirməyə imkan verir...

Dünyanın bütün bölgələrində yaşayıb işləyən bütün dünya türklərinə keçmiş SSRİ ərazisində - indiki MDB dövlətlərində və Baltikyanı respublikalarda, dünyanın hər yerində bu gün də fəaliyyətdə olan erməni cəmiyyətləri haqqında qısaca məlumat verir, əks-təbliğatın və əks-kəşfiyyatın diqqətini bu sahəyə yönəldirəm.

Azərbaycan ərazisinin 25%-dən çoxunu işğal eləyən, çirkin təcavüzkarlıq niyyətindən hələ də əl çəkmək fikrində olmayan məkrli düşmənin - Ermənistan iqtidar mafiyasının başqa dövlətlərin ərazisində hərtərəfli fəaliyyətlə məşğul olan cəmiyyətlərini tanımaq bu gün hər birimiz üçün əsas şərtlərdən biridir.

Ermənilərin işgüzarlığı sayəsində bu yaxın illərdə qısa vaxtda Moskva Erməni Assambleyası yaradılmışdır. Assambleyaya məşhur erməni sahibkarı və xeyriyyəçisi Serc Uilavyan prezident seçilmişdir. Bircə ay keçdikdən sonra onlar həmin təşkilatın statusunu qaldırmış və Beynəlxalq Erməni Assambleyasına çevirmişlər...

Beləliklə, hazırda keçmiş Sovetlər Birliyi ərazisində fəaliyyətdə olan erməni təşkilat və qurumlarının siyahısını verirəm.

MOSKVA:

Ermənistan apostol kilsəsinin yeperxial soveti;

Moskva Erməni Assambleyası;

Moskva şəhər "Mako" erməni mədəniyyəti cəmiyyəti; "Yusispayl" cəmiyyəti;

"Vernatun" mədəni-maarif mərkəzi;

Erməni tələbə assosiasiyası;

Rus-erməni qaçqınlar cəmiyyəti;

Rus-erməni dostluq cəmiyyəti;

Rus-erməni həmrəçyliyi;

Rusiya-Ellin birlik fondunun rus-erməni əməkdaşlığı müdiriyyəti;

"Ermənistanın dirçəlişi" fondu;

Harri Kasparovun xeyriyyə fondu;

"Maştos" cəmiyyəti;
Ermənistanın texnoloji və intellektual inkişafı fondunun Moskva filialı;
"A plyus" xeyriyyəçilər və mədəniyyət xadimləri klubu; "Qarabağ" Rusiya ziyalıları komitəsi;
Arno Babacanyan adına fond;
Beynəlxalq ermənişünaslıq mərkəzi;
İnnovasion mərkəzi;
"Diaspora" tədqiqat mərkəzi;
"Hayk" institutunun Moskva filialı;
Moskva daşnak partiyası;
Erməni teatr studiyası;
Erməni kamera xoru;
Erməni nəfəs alətləri orkestri;
"Armyanski vestnik" qəzeti;
"Pro Armenii" informasiya agentliyi və cumalı;
"Noy" cumalı;
"Lur" informasiya agentliyi;
Moskva humanitar litseyi;
Serc Uilavyanın Moskva erməni gimnaziyası;
Erməni icmasının orta məktəbi.

SANKT-PETERBURQ:

Sankt-Peterburq erməni mədəniyyəti dostları cəmiyyəti (rəhbəri Karo Yüzbaşyan);
Sankt-Peterburq kilsə icmasının "Avatamk" qəzeti; Sankt-Peterburq erməni mərhəmət ittifaqı (rəhbəri Qayane Barxudarova, tel.: 213-88-21);
Sankt-Peterburq erməni icması.

ROSTOV:

Naxçıvan erməni mədəniyyəti cəmiyyəti (rəhbəri Qriqor Xurdoyan);
"Ani" mədəni-maarif cəmiyyəti (rəhbəri Gevond Qarbaryan).

KRASNODAR:

"Mesrop Maştos" mədəniyyət cəmiyyəti (rəhbəri Eduard Melkumyan).

NOVOROSSİYSK:

"Luys" mədəni-maarif klubu (rəhbəri Eduard Poqosov); "Lyus" qəzeti.

GƏLİNUİK:

"Ani" mədəniyyət cəmiyyəti (rəhbəri Levon Xalatov).

SOÇİ:

"Sevan" mədəniyyət cəmiyyəti (rəhbəri Hovanes Çebanyan);
"Maştos" cəmiyyəti;
Qarabağa yardım fondu (rəhbəri A.S.Aslanyan); Erməni mədəniyyəti dostları (rəhbəri Amatunu).

ARMAVİR:

"Armavir" cəmiyyəti (rəhbəri A.Q.Hovanesov).

ANAPA:

"Tsank" cəmiyyəti (rəhbəri O.M.Durnoyan);
"Tsank" təşkilatı (rəhbəri N.A.İspiryan).

ABİNSK:
"Ararat" cəmiyyəti (rəhbəri A.O.Antonyan).

ABŞERONSK:
"Veratsnund" cəmiyyəti (rəhbəri A.A.Ohanesyan).

YEYSK:
"Hayk" cəmiyyəti (rəhbəri L.S.Hakopyan).

KURQANİNSK:
"Van" cəmiyyəti (rəhbəri L.N.Saturyan).

TUAPSİNSK RAYONU, QORSKAYA STANSİYASI:
"Hamşen" cəmiyyəti (rəhbəri Q.A.Hastyan).

TUAPSE:
Erməni mədəni-xeyriyyə cəmiyyəti (rəhbəri S.K.Yazıçyan).

SLAVYANSK-NAKUBANİ:
O.Şiraz adına cəmiyyət (rəhbəri L.Q.Tovmasyan).

TULSK, ADIGEY:
"Barekamyutun" cəmiyyəti (rəhbəri X.V.Kerselyan).

KİSLOVODSK:
"Krunk" cəmiyyəti (rəhbəri A.Y.Gedikyants).

NALÇİK:
"Axpyur" cəmiyyəti (rəhbərləri E.P.Voskanyan və T.A. Şahqalyan).

MİNERALNIYE VODI:
"Hayk" cəmiyyəti (rəhbəri V.Z.Hakopyan).

ROSTOV VİLAYƏTİ, ÇALTIR KƏNDİ:
"Ani" cəmiyyəti (rəhbəri X.Qəmbəryan);
"Nairi" (rəhbəri Hayk Hovannesyan).

STAVROPOL:
"Erebuni" mədəniyyət cəmiyyəti (rəhbəri Yuri Bağırov).

PYATİQORSK:
"Vahan Teryan" mədəniyyət cəmiyyəti (rəhbəri Robert Yavuryan);
Erməni xeyriyyə cəmiyyəti (Samvel Daşyan);
"Amaynk" qəzeti.

VLADİQAFQAZ:
"Naira" xeyriyyə cəmiyyəti (rəhbəri Stepan Ayvazov).

İRKUTSK:
Erməni mədəniyyəti cəmiyyəti (rəhbəri Karlos Balyan).

KRASNOYARSK:
S.Spandaryan adına mədəniyyət cəmiyyəti (rəhbəri Bəhram Emeksuzyan).

KEMEROVO:
"Naira" mədəniyyət cəmiyyəti (Hayk Hovannesyan).

ÇİTA:
"Spitak" cəmiyyəti (rəhbəri Valeri Hakopyan).

SARATOV:
"Nairi" cəmiyyəti (rəhbəri Pavlik Manukyan).

HƏŞTƏRXAN:
"Harev" mədəniyyət assosiasiyası (rəhbəri Sandro Zurkaçyan).

KİYEV:
Mədəniyyət cəmiyyəti (rəhbəri Violetta Xaçaturova).

LVOV:
"Abxyur" mədəni-maarif cəmiyyəti (rəhbəri Vera Vardanova).

ODESSA:
Mədəniyyət cəmiyyəti (rəhbəri Marqarita Qorosyan).

SİMFEROPOL:
"Luys" mədəniyyət cəmiyyəti (rəhbəri Anuşavan Danielyan);
"Qolub Masisa" qəzeti.

RİQA:
Latviya erməni assosiasiyası (rəhbəri Raffi Xaracanyan).

VİLNÜS:
"Harun" mədəniyyət cəmiyyəti (rəhbəri Oleq Osayev).

TALLİN:
Tallin erməni mədəniyyəti cəmiyyəti (rəhbəri Artyom Davidyan);
"Xaçatur Abovyan" mədəni-maarif cəmiyyəti (rəhbəri Rafik Qriqoryan).

MİNSK:
"Hayastan" erməni assosiasiyası (rəhbəri Levon Darbinyan).

QRİQORİAPOL:
"Veratsnund" xeyriyyə cəmiyyəti (rəhbəri Artyom Xaçerov).

DAŞKƏND:
Erməni mədəniyyəti mərkəzi (rəhbəri Arkadi Qriqoryan).

SƏMƏRQƏND:
"Luys" mədəniyyət mərkəzi (rəhbəri Vladimir Qalumyan).

TBİLİSİ:
"Vrastan" qəzeti (redaktoru Van Bayburtyan);
Şarl Aznavur adına xeyriyyə cəmiyyəti (rəhbəri Ruben Soqoyan).

İVANOVO:
"Narek" mədəniyyət mərkəzi (rəhbəri Boris Sarkisov).

QAQRA:
"Maştos" cəmiyyəti (rəhbəri Arsen Çakeryan).

QANTİADİ:
"Amşen" ədəbi birliyi (rəhbəri Zorik Keşişyan).

XARKOV:
Mədəniyyət cəmiyyəti (rəhbəri Anatoli Çeletyan).

BATUM:
Mədəniyyət cəmiyyəti (rəhbəri Georgi Avakov).

OMSK:
Erməni cəmiyyəti (rəhbəri Vladimir Yaqubov).

NOVQOROD:
Erməni icması (rəhbəri Harutyun Çobanyan).

ROSTOV-YAROSLAVSK:
Mədəniyyət cəmiyyəti (rəhbəri Roman Mirabyan).

Əlbəttə, tam olmayan bu siyahı erməni diasporunun müstəqillik yoluna yenicə qədəm qoymuş xarici dövlətlərdəki fəaliyyətini az-çox əks etdirir. Şübhəsiz ki, həmin qurumların "mədəni-maarif cəmiyyəti", "mədəniyyət mərkəzi" və s. adlandırılması heç də onların gördükləri əsas işlərin mahiyyətini açmır, əksinə, ermənilər tarix boyu özlərinə xas bir hiyləgərliklə müəyyən məqsədi həyata keçirmək naminə cürbəcür cildlərə girmək qabiliyyətinə də malik olduqlarından bu cəmiyyətləri də aldadıcı adlar altında pərdələməyə çalışıblar.

E. Məmmədov:

- DQMV hadisələri, "Böyük Ermənistan" yaratmağın bünövrəsi çox qədim bir məsələdir. Ermənilər tarixən bu məsələni öz bildikləri kimi həll etmək üçün silaha əl atıb külli miqdarda günahsız qanlar tökdülər.

1967-ci ildə Stepanakertdə Ərşadla, Ələmşahı ermənilər yandırdılar. Həmin dövrdə bu məsələni açıqlamaq istəsələr də nail ola bilmirdilər. Bu proses isə

M.S. Qarbaçov SSRİ-MK-nin baş katibi vəzifəsinə keçdikdən sonra yavaş-yavaş inkişaf etməyə başladı. Onlar hər yerdə gizli yığıncaqlar keçirir, təşkilatlanır, vəsait toplayıb hazırlıq aparırdılar. 1987-ci ilin ortalarından bu proses aktivləşdi.

Azərbaycana qarşı münasibət pisləşdi. Bu əməllər haqqında biz respublika rəhbərliyinə müntəzəm məçlumat çatdırırdıq. Ancaq heç bir tədbir görülmür, bizi səbrli, təmkinli olmağa səsləyirdilər. Bu məsələlər ilə əlaqədar olaraq məni Murad Şükürovla Ağdam rayon DTK-a çağırdılar. Bizimlə söhbət aparan əməkdaşın da fərsiz respublika rəhbərlərinin mövqeyini müdafiə etdiyini anladıq.

O dedi ki, siz gedin öz işinizlə məşğul olun. Azərbay-can çoxmillətli respublikadır. Bu halda isə danışmağa sizə heç kim səlahiyyət vermir. Torpaq uğrunda mübarizəmizin belə boğulması bizi ağrıdırdı. Biz ermənilərin bütün hərəkətlərini izləyir, bütün orqanlara məçlumatlar çatdırırdıq. Bu məsələdə Murad Şükürov, Eldəniz Allahverdiyev, Rafiq Mürsəlov, rəhmətlik Şövlət Həsənov, Ələmdar Quluzadə, Stepanakert sakini Bəhmən Əhmədov, Oleq Əliyev və bir çoxları əvəzsiz işlər görürdülər.

Bizim informasiyamız cavabsız qalır, ermənilər isə güclü şəkildə təşkilatlanırdılar. Lazım idi ki, biz də o səviyyədə işlər aparaq.

1988-ci il fevral ayının 12-də səhər saat 10-da bizi Əskərana fəallar yığıncağına dəvət etmişdilər. Yığıncaqda Azərbaycan MK-nın katibi Konovalovun, şöbə müdiri Məmməd Əsədovun ciddi səylərinə baxmayaraq, ermənilər Ermənistana birləşmək iddiaları ilə ciddi şəkildə çıxışlar edirdilər. Həyətdə isə izdihamlı mitinq gedirdi. Bu, Azərbaycan hökumətinin seyrçi mövqeyinin ilk işartıları idi.

Oradan çox çətinliklə çıxıb Xocalıya gəldik.

Ağsaqqalları və ziyalıları təcili idarəyə yığıb vəziyyəti olduğu kimi danışdım. Həmin gündən Xocalının və ətraf kəndlərin müdafiəsi üçün tədbirlər görməyə başladıq. Beş nəfərdən ibarət Müdafiə Komitəsi yaratdım. Sədri mən, üzvləri Yavər Əzimov, Ələsgər Novruzov, Murad Şükürov və Eldəniz Allahverdiyev idi. Komitə gizli şəkildə fəaliyyət göstərirdi. Bundan başqa Yamən Həsənov, Rövşən Həsənov, Felmar Rzayev, Firudin Əliyev, Əliyar Usubov, Xəqani Səlimov, Füzuli Rüstəmov və başqalarından ibarət xüsusi dəstə düzəldib müdafiə postları yaratdıq.

Bizim cəmi 26-ədəd ov tüfəngimiz var idi. Tüfəngləri yığdıqlarına görə əlimizdə olanlarını gizli saxlayırdıq. Həmin andan Bakıya, Moskvaya saysız-hesabsız teleqramlar vurur, müraciətlər edirdik. Nəticəsi isə olmurdu ki, olmurdu.

1988-ci il fevral ayının 12-də Ağdamdan Stepanakertə kütləvi yürüş başlandı. Əli və Bəxtiyar öldürüldü. Sonra Sumqayıt hadisələri baş verdi. Stepanakertdə onlara abidə ucaltdılar. Elə bil ki, bunların hamısı bir nəfərin diktəsi ilə həyata keçirilirdi. Artıq Azərbaycanın qanunları DQ-

da işləmirdi. Stepanakert və Xocalı artıq dünyanın diqqət mərkəzində idi. DQ-a nümayəndə heyətləri axışıb gəlməyə başladılar. Hamısı da ermənilərin mövqeyindən çıxış edirdilər. Onlar üzdə bizimlə razılaşsalar da, sonradan mətbuatda tam əksinə çıxışlar edirdilər.

Moskvanın hökumət dairələrini hörümçək toru kimi mühasirəyə alan erməni lobbisinin bu sahədə xidmətləri danılmazdır. Sahibsiz azərbaycanlıların vəziyyəti get-gedə ağırlaşırdı. Stepanakertdə yaşayan azərbaycanlılar çörəkdən və sudan məhrum edilmişdilər. Ağdam ağsaqqallarından Sadıq Murtuzayev, Zeynal Məmmədov, Nadir İsmayılov, Rəşad Məmmədov, Səyyad Verdiyev və Xuraman Abbasovanın köməkliyi ilə onlara ərzaq və su çatdırılırdı.

Artıq yollarda "daş müharibəsi" başlamışdı. Bu müharibə əsasən Stepanakert-Xocalı-Əsgəran arasında gedirdi. Xocalı ermənilərin heç bir hərəkətini cavabsız qoymurdu. Azərbaycanlı girovların çoxu Xocalıların tutduqları erməni girovlarının hesabına azad olunurdular. Artıq Ermənistandan azərbaycanlıların köçü başlamışdı. Xocalıda 130 ailəni məskunlaşdırmışdıq. Həmin ailələrin təminatını Ağdam öz üzərinə götürmüşdü. Buna görə əvəzsiz xidmətləri olan Zeynal Məmmədovu hüquq mühafizə işçiləri xeyli incitmişdilər.

1988-ci ilin yayında Ə.Vəzirov Stepanakertə gəldi. Onun güclü təzyiqi nəticəsində Ermənistandan gələnlər DQ-dan çıxarıldılar. DQ-partiya komitəsinin katibi N.Poqosyan onu aldatmışdı ki, mən də Sumqayıtdan gələn ermənilər çıxardacağam. O, sözünə əməl etmədi.

25.08.88-ci ildə Xocalı Deputatlar Sovetinin sessiyasını çağırdım və Xocalıya pənah gətirən 130 ailəyə torpaq

sahəsi ayırdım. Bunu nə Əskəran, nə də Stepanakert qəbul etmədi. Cavab belə oldu:

- Rayon və vilayət XDSİK-nin başı üstündən kənd XDS -nin qərarını təsdiq edə bilmərik.

Bu cavab o dövrdəki Azərbaycan rəhbərliyinin fərsizliyinin cavabı idi. Get-gedə qarşıdurma güclənir, Xocalı ermənilər üçün dəf edilməsi mümkün olmayan bir maneəyə çevrilirdi. Stepanakert-Əsgəran şossesinin, dəmir yolunun, aeraportun Xocalının nəzarəti altında olması ilə ermənilər heç bir vəchlə razılaşmırdılar. Ona görə də Xocalını neytrallaşdırmaq ideyasına gəlmişdilər. Xocalını kiçik bir həmlə ilə məhv edəcəklərinə inanırdılar. Elə bu fikirlə də 1988-ci il sentyabrın 18-də nümayiş meydanından 12 minə qədər erməni 10 km-lik bir məsafəni piyada qət edərək hücuma keçdilər. İrəli də dörd "KRAZ" və "KAMAZ" maşınları gəlirdi. Onlar yüzlərlə benzin doldurulmuş butulkalarla, ucu itilənmiş dəmirlərlə silahlanmışdılar. Ballıca kəndində onların arasında xüsusi təlim görmüş döyüşçülər də var idi. Kəndə 2 km qalmış onların gəldiklərini başa düşdük, 150 nəfərə yaxın adamla onları şil-küt edib Stepanakertə yola saldıq.

Biz "Ura!" - deyərək hücuma keçib bu axının qabağını aldıq. Bu bizim üçün sınaq anları idi. Bu sınaqdan xalqımız mərdanə çıxdı və ermənilər gücümüzə bələd oldular. Həmin hücumun qarşısının alınmasında Yavər Əzimov, Zöhrab Adilov, İmani Malik, İbrahim Məmmədov, Cabbar Cəfərov, Cavid Əliyev, Gülarə Usubova, Yaqub Quliyev, Murad Şükürov, Ələsgər Novruzov, Bəxtiyar Aslanov, İlyas Əliyev, İmran Həsənov, Baxış Şirinov, Kamil Məmmədov, Abil Xudayarov, İsa Aslanov, Etibar Allahyarov və bir çoxları əsl igidlik nümunəsi göstərdilər. Bu döyüşdə iştirak

edənlərin çoxunun adını çəkmədim. Onlar məni bağışlasınlar. Bu bizim ermənilər üzərində ilk qələbəmiz idi.

Ermənilərin gizli məlumatlarından bizə aydın oldu ki, o döyüşlərdə 27 erməni ölmüş, 100-ə qədəri isə yaralanmışdı. Həmin gündən sonra sovet qoşunları ermənilər bizdən qorumağa başladı.

Əsgəranla Xocalının arası 1 km-dir. Döyüş zamanı Rafiq Mürsəlov və sahə müvəkkili Zülfi Əhmədov rus ordusuna məlumat verib kömək istəmişdilər. Hərbi hissə 5 km yolu 3 saata gəlib çıxdı. Hadisənin səhəri Zori Balayan "YAK-140" təyyarəsi ilə 12 nəfər həkimlə birlikdə Stepanakertə gəldi. Biz gecə-gündüz yatmır, hər bir hadisəyə nəzarət edib, ümumi nəticə çıxarırdıq. Azərbaycan hökuməti isə "öz iş-gücündə" idi...

Bu hadisə haqqında Şuşaya və Ağdama təcili məlumat verməyimizə baxmayaraq, 27 sentyabrda axşam tərəfi Mərkəzi Komitənin katibi Həsən Həsənov, DİN-nin müavini Kamil Məmmədov və ağsaqqal Zeynal Məmmədov Xocalıya gəldilər. Həsən Həsənov və Kamil Məmmədov əvvəlcə haray-həşir qopartdılar ki, erməniləri niyə qırmısınız? Avtobus da gətirmişik, yığılın hərbçilərin köməyi ilə Xocalıdan çıxın. Bizim etiraz səsimizdən sonra susdular.

Onlardan tələblərimiz bu oldu ki, bizə silah, çörək verin, son nəfəsimizə qədər Xocalı, Qarabağ uğrunda vuruşacağıq. Həmin gündən sonra Ağdam bütövlükdə Qarabağa kömək üçün ayağa qalxdı. Bu təşəbbüsə Gəncə, Kürdəmir, Yevlax, Bərdə, Quba və başqa rayonlar da qoşuldular.

Hadisədən az sonra SSRİ-nin istintaq orqanları Xocalıya gəlib araşdırma apardılar. İsa Aslanov, Şahin Usubov, Kamil Məmmədov, Abil Xudayarov, İmran Həsənov, Baxış

Şirinov, İsmayıl Əliquliyev (polis əməkdaşı) həbs edilərək Şuşa həbsxanasına salındılar. Onlar üç aydan artıq haqsız cəzaya məruz qaldılar.

Millətlər Sovetinin sədri Boss, deputatlardan Sergey Oleynik, Zoya Puxova və bir çoxları Xocalıya gəlir və bizə yuxarıdan aşağıya baxırdılar. Hər vəchlə ermənilərə haqq qazandırırdılar. S.Oleyniklə ciddi söhbətim oldu. Dedim ki, siz ukraynalısınız, ukraynanın elə ərazisi var ki, ruslar sıx şəkildə yaşayırlar. Demək o ərazini Rusiyaya vermək lazımdır?

O, qəzəbli, kinli baxışlarla məni süzüb, qəti etirazını bildirdi. Beləliklə ruslar ermənipərəst mövqelərindən əl çəkmirdilər.

Xocalı işğal olunmaya bilərdi. Əgər Azərbaycanın fərsiz rəhbərləri Moskvanın diktəsi ilə hərəkət etməsəydilər! Xocalıya kənardan heç bir qüvvə lazım deyildi. Onu güclü silahla təmin edib, Xocalıya arxa, dayaq durmaq lazım idi. Biz hər an ölümlə çırpışırdıq və qalib gələcəyimizə əmin idik. Xocalı isə yalnız tam iflic vəziyyətinə salındıqdan sonra zəbt edildi.

Xocalının ağır günlərində, Respublika rəhbərlərindən əlimi təmamilə üzdükdən sonra Naxçıvana üz tutdum. Möhtərəm prezidentimiz onda Naxçıvan Ali Sovetinin sədri idi. Onu da Azərbaycandan tam uzaqlaşdırmışdılar. Ondan Xocalının qorunması üçün kömək istədim. Nəinki xocalılar, qarabağlıların hamısı nicat yolunu Heydər Əliyevdə görürdülər. O, dəyərli təklif və göstərişlərini verdi. Kömək edəcəyinə söz verdi. Xocalı soyqırımı ərəfəsində Ağdamda keçirilən mitinqdə də hamı yekdilliklə Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb edirdi.

Mən rəhbər vəzifədə çalışsam da, respublikanın keçmiş rəhbərlərinin mövqeyi ilə razılaşmamışam. Xüsusi İdarətmə Komitəsinin də əleyhdarı olmuşam. İlhaqı məhz A.Volski gücləndirdi. Bu komitə birbaşa Moskvaya tabe idi. DQMV-də Moskvaya tabe etdirilmişdi. Bu, birbaşa Ə.Vəzirovun və A.Mütəllibovun imzası ilə təsdiq olunmuşdu. Onlar xalqı aldatdılar və tam cəzasız qaldılar.

1988-ci ilin oktyabrında Xocalının sosial inkişafı üçün xüsusi qərar verildi. Bu alqışlanılası qərar deyildi. Biz tikinti aparmaq yox, silahlanmalıydıq. Ermənilər silahlandılar, ordu yaratdılar, biz isə tikinti işləri ilə başımızı qarışdırdıq. Daha doğrusu, qarışdırdılar. Bu, düşünülmüş bir oyun idi ki, başımıza açdılar.

A.Volski komitəsi Z.Balayanla, A.Manuçaryanla dostluq edirdi. Həmin dövrdə 53 idarə və müəssisə möhür və ştamplarını dəyişdirib azərbaycanın adını ordan silmişdilər. Ə.Vəzirov, A.Mütəllibov bunları görmürdümü? Çaldığımız həyacan təbilinin səsi heç bir yana gedib çatmırdı.

1990-cı ildə Respublika Təşkilat Komitəsi yaradıldı. Viktor Polyaniçko peyda oldu. “20 yanvar” faciəsi baş verdi. Xocalı 40 gün yas saxladı. 1990-cı ilin aprelində Xocalıya şəhər statusu verdilər. Xocalının güclü mövqeyini dərk edən TK-i çox zaman iclaslarını məhz Xocalıda keçirirdi.

SSRİ-nin o vaxtki rəhbərləri ilə saysız-hesabsız görüşlərim olub. 1990-cı ilin noyabr ayında Moskvada qurultay keçirilirdi. Biz - Azərbaycanın nümayəndə heyçəti Qarboçovu qurultaydan çıxanda saxlayıb mühasirəyə aldıq. Qəti sözümüzü deyib, tələblərimizi etdik. O da, qəti şəkildə söz verdi ki, DQ Azərbaycanın ərazisidir, heç kimə verilə bil-

məz, hər şey qaydasında olacaqdır. Ancaq o, sözünə əməl etmədi.

1991-ci ilin aprelində Xocalı Ərazi Partiya Komitəsi və Ərazi İcraiyyə Komitəsi yaradıldı. Həmin vəzifəyə mən seçildim. Ermənilər bizə güclü həmlələr edir və cavablarını da layiqincə alırdılar. Xocalı biganəliyin, satqınlığın, vəzifə davasının qurbanı oldu. Bu ağrını məncə Xocalı yox, Azərbaycan xalqı hələ çox çəkəcəkdir. Biz Xocalıya qayıdacağıq. Xocalının mərd oğlanlarının çoxu on ildən artıqdır ki, səngərlərdədir. Onlar Xocalıya qayıdacaqlar, döyüşə-döyüşə, sağlıq olsun. Heyf Qarabağdan, heyf Xocalıdan. Biz qayıtmalıyıq. Əks halda məhvə məhkumuq, məhvə...

XIX əsrdə Fransanın görkəmli sərkərdəsi Napoleon Bonapart bayrağını ozamankı Avropa dövlətlərinin paytaxtında ucaltmışdı: Berlin, Vyana, Varşava, Qahirə, Praqa - bu zəfər yürüşləri unudulmuş müqəddəs Yelena adasında faciəvi sonluğu ilə başa çatdı.

Hitlerçi qəsbkarların adı bütün Avropanı lərzəyə salmışdı. Paris və Vyana, Varşava və Praqa, Oslo və Kopen- hagen, Belqrad və Sofiya, Afina və Kiyev, Minsk və Riqa, Smolensk və Stalinqrad üzərində dalğalanan üstü xaç şəkilli qara bayraqlar dəhşət yayırdı. Bəs nəticəsi.

Alman reyxinin süqutu, faşist liderinin özünü öldürməsi və bəşəriyyətin görünməmiş fəlakətlərə düçar olması.

1 AVQUST 1914-CÜ İLDƏ dünyanı yenidən bölüşdürmək üçün böyük dövlətlər (İngiltərə, Almaniya, Rusiya...) dünya savaşına başladılar. İngiltərə öz müstəmləkələrini əldən verməmək, Almaniyanı zəiflətmək, Misirdə mövqeyini möhkəmləndirmək, Fələstinə və ikiçayarasına, Rusiya isə Qara dəniz boğazlarına, Qalitsiyaya, Osmanlının ermənilərin yığcam yaşadığı ərazilərinə sahib olmaq niyyətindəydi. Təbii ki, bu I Dünya savaşında, həm də Fransanın, Almaniyanın və başqa dövlətlərin, o cümlədən, müharibəyə 1917-ci ildə qoşulan ABŞ-ın da bəlli maraqları vardı.

I Dünya savaşından hələ 6 ay öncə - 26 yanvar 1914-cü ildə rus diplomatiyasının növbəti təzyiqi ilə Osmanlı hökuməti şərq vilayətlərində islahatlar, o sıradan, həmin bölgədə ermənilərə muxtariyyət verilməsi ilə bağlı saziş imzalamışdı. Bu nailiyyət I Dünya savaşının lap əvvəllərindən ermənilərin Rusiya tərəfində savaşmasına əhəmiyyətli dərəcədə təkan vermişdi.

Katolikos V Gevork "erməni məsələsi"nin həllinin vaxtı çatdığını Qafqaz canişini Voronsov - Daşkova çatdırdıqda, o məqamında hər şeyin ermənilərin xeyrinə çözüləcəyini vəd etmişdi. Çar II Nikolayın da Gevorku qəbul etdiyi 15 dəqiqəlik tarixi görüşdə ermənilərin ruslar tərəfində can-başla vuruşmağı istənilir, əvəzində savaşdan sonra "erməni məsələsi"nin həlli vəd olunurdu. Bütün bu münasibətlərin və ümidlərin nəticəsində çar Rusiyası ərazisindəki ermənilər rus ordusuna 250 min nəfər əsgər verdilər. İngiltərə və ABŞ ordularında da 50 mindən çox erməni əsgəri savaşırdı. Bundan əlavə, erməni liderləri Türkiyə ermənilərindən könüllü bölüklər təşkil edərək, Birləşmiş Qüvvələrin (Antanta və s.) tərəfində vuruşmağa çağırırdılar.

Hələ 1912-ci ildə böyük dövlətlərlə danışıqlar aparmaq üçün Tiflisdə yaradılmış Erməni Milli Bürosu 1914-cü ilin sentyabrında rus hökumətindən onun ərazisində erməni könüllü silahlı dəstələri yaratmağa rəsmi icazə aldı. Artıq 1914-cü ilin sonunda 4 belə könüllü silahlı dəstə mövcud idi: bu dəstələrə müxtəlif vaxtlarda Andranik Ozanyan, Ar-

şak Qavatyan (Kerri), Vardan Mehrabyan, Hamazasp Srvantsyan başçılıq etmişdilər.

Qərargah rəisi Yudeniç general Yanuşkeviçə teleqram göndərərək, Türkiyədəki ermənilərı silahlandırıb üsyana qaldırmaq üçün 25 min tüfəng, 12 milyon güllə göndərilməsini xahiş etmişdi. O dövr hadisələri barədə Stenford C.Şou belə yazırdı: "Erməni könüllülərinin köməyi ilə rus ordusu Van istiqamətində hücuma keçərək, mayın 14-də oranı tutan kimi, iki gün ərzində yerli müsəlman əhalisini kütləvi surətdə qırmağa başladılar". Rusların himayəsi altında Vanda erməni hökuməti qurulmuşdu. İyulun ortalarından hər tərəfdən 250 min erməni gəlib Vanda toplanmışdı. (bax: 'Armyanskiy genosid. Mif i realnos T. səh. 222).

Qafqazdakı ermənilərı silahlandırmaq üçün Voronsov Daşkov da hərbi nazir Suxomilova yazaraq 5 min tüfəng və 50 milyon güllə istəyirdi.

Bütün erməni döyüşçülərinin başçısı Andranik Ozanyan mənbələrə görə, Bolqarıstandan gəlmişdi.

Ozamankı "Maşak" erməni qəzetinin yazdığı kimi, ümumavropa savaşının (müharibəsinin) III mərhələsi ba-şa çatmasa da, "Daşnaksütyun"un fəaliyyətinin ölümcül nəticələri artıq göz qabağında idi. **(bax: Qoloyan Q.A. "Raboçee dvicenie i natsionalnıy vopros v Zakavkazye 1900-1922". Erevan, 1969, səh. 175).**

Qeyd:

XIX əsrin başlanğıcındakı erməni terroruna istinadən...

- "Erməni məsələsi"nin həllinə terror vasitəsilə nail olmaq istəyən daşnak liderlərinin əmri ilə Aleksandropolda kahin Vasilovu, İrəvan dəmiryol stansiyasında Stepan Dramkovu öldürdülər. Tiflisdə general adyutantı knyaz Qolitsınə qarşı sui-qəsd törətdilər, general Əlixanovu, Bakı qubernatoru Nakaşidzeni, Yelizavetpol qubernatorunun müavini Andreyevi, qəza rəisləri Boquslavskini, Smerlinqi, Neşşanskini, Pavlovu, polismeystr Saxarovu, pristav Cavaxovu və b. vəzifəli şəxsləri aradan götürdülər.

Cənubi Qafqazda erməni terroru öz ambisiyalarını diqtəedici səviyyədə həyata keçirmə havası ilə bölgəni sarsıtmışdı. Lakin bunu da yetərli hesab etməyən erməni başbilənləri nizami ordu yaratmağa başladılar. Çox çəkmədi ki, Türkiyə və Qafqazdakı erməni gənclərindən ibarət 100.000 nəfərlik ordu ərsəyə gəldi. Ardınca erməni inqilab şurasının hərbi nizamnaməsi də hazırlandı (1904). Erməni dəstələri Qafqazdakı türk məskənlərində meydan sulayaraq, silahsız əhalini qılıncdan keçirir, gələcəkdə yaranması planlanan "erməni dövləti" üçün ərazi hazırlayırdılar.

Erməni dövlət xadimi Arkanaz Mravyan "Daşnaksutyunun böhranı" əsərində daşnak siyasətinin mahiyyətini çox sadə və aydın bir dillə açaraq yazırdı: "Onlar qırğınlar törədir, ancaq bunu böyük bəla hesab etmirdilər. Bircə ki, qırğınlar Avropanın diqqətinə yetərli olsun". Başqa bir tanınmış erməni dövlət xadimi Aleksandr Myasnikyan isə daşnakların fəaliyyətini belə qiymətləndirirdi: "Ermənistanın müsəlman və rus kəndlərini onlar odla, qılıncla məhv etdilər... Daşnak ordusunun başında duran kimlər idi? Aram və Rubendən, Martiros və Poqosadək nadan, talançı, quldur xlebapstlər. Bu ordu silahsız müsəlmanlara divan tutmaqda, dinc əhalini çapıb-talamaqda məharətli və cəsarətli idi..."

1914-cü il noyabrın 4-də tərkibində çoxsaylı erməni könüllü bölükləri olan rus qoşunları Osmanlı torpaqlarını işğala başladı. Dörd gün sonra Ərzurumdakı Körpüköy tutuldu. 1915-ci il yanvarın 3-4-də Sarıqamış, 1916-cı il fevralın 16-da Ərzurum, martın 17-də İsfahan (İran), aprelin 18-də Trabzon işğal edildi. Mayın 2-3-də Xoy və Dilmanda yerli əhaliyə divan tutuldu. Van və Urmiya (Urmu) göllərı arasındakı əraziləri yandırdılar, iyunun 25-də Ərzincan, avqustun 23-də Muş zəbt olundu.

Həsənqala, Sarıqamış, Ərdahan, Qars, İzmir, İrəvan, Ərzincan, Trabzon bölgələrində ermənilər müsəlman (türk) kəndlərini yerlə yeksan edir, oda qalayır, əhalini qılıncdan keçirirdilər. Yerli əhalini məscidlərə doldurub diri-diri yandırır, qocaları və cocuqları torpağa basdırır, hamilə qadınların qarnını yarır, körpə balalarını çıxarıb boğur, tikə-tikə edib bişirir və onları öz cocuqlarının ətini yeməyə məcbur edirdilər.

Muş süqut edəndə çevrədəki 15 kəndin əhalisini erməni hərbçiləri ağır at nalları ilə nallayaraq Hazal gölünə tökmüşdülər. Gənc qızların döşlərini kəsib, manyakcasına əzab verərək, məhv etmişdilər. Beşikdəki yaralı cocuqların ağzına anasının döşünü kəsərək tıxamışdılar. Şeyx Əbdül Qafar Əfəndi başının dərisinin soyulmasına dözməyərək keçinmişdi. Xəstələri, cocuqları və qadınları Təkkə monastrına doldurub diri-diri yandırmışdılar. İ.Malevilin yazdığına görə, ermənilər Dikili-Daşda yüzə yaxın cocuq və qadının başını kəsmişdilər...

Sonralar erməni könüllü hərbi birləşmələrinin terrorçu və bölücü hərəkətlərinin nəzarətdən çıxacağından, bunun Rusiyanın özü üçün də başağrısına çevriləcəyindən ehtiyat

edən Qafqaz canişini 1916-cı ilin mayında erməni könüllü dəstələrinin tərxis edilməsi haqqında əmr verdi.

1916-cı il noyabrın 26-da isə Fransa Osmanlı dövlətinə qarşı savaşmaq üçün erməni könüllülərindən - erməni qaçqınlarından ibarət legion formalaşdırmışdı. "Şərq legionu" adlanan hərbləşdirilmiş qurum Kilikiyada gələcək erməni dövləti ordusunun özəyi kimi nəzərdə tutulmuşdu. Həmin legion 1920-ci ilin sentyabrın 27-də tərxis edildi...

Qafqazda baş verən erməni hərbi-siyasi azğınlığının zirvə - kuliminasiya nöqtəsi olan 1918-ci il Bakı hadisələrinə aydınlıq gətirməzdən öncə dünyada, Osmanlı və Qafqaz bölgələrində baş verən yuxarıdakı zəncirvarı, bir çox qarşılıqlı motivlərlə bir-birinə bağlı olan tarixi, siyasi-hərbi olayları sadalamamaq Bakı-Şirvan hadisələrinin mahiyyətinə, ümumiyyətlə, Qafqazda türk-müsəlman (azəri) soyqırımı ilə bağlı zəruri təfsilata kölgə sala bilərdi. O səbəbdən də, hətta bugünkü erməni-azərbaycanlı münaqişəsini də həmin tarixi-siyasi kontekstdən çıxarmaq metodoloci səhv olar, yanlış qavramalara və fəaliyyətlərə gətirib çıxarardı...

1918-ci il Bakı hadisələrinə ən yaxın tarixi (geriyə baxın) ekskurs isə 1917-ci il Rusiyadakı Oktyabr Devrimindən üzübəri ola bilərdi. Belə ki, hakimiyyəti ələ alan Lenin I Dünya savaşında yeni Rusiyanın - sovetlərin rolunu fərqli görürdü. O, hakimiyyəti əldə saxlamaq üçün çar Rusiyasının bəzi imperialist niyyətlərindən, o sıradan, tabeliyində olan xalqları əzmək strategiyasından vaz keçdiyini bildirirdi. Hətta xalqlara öz müqəddəratının təyinində azad olduğu barədə bəyannamələr də qəbul etdi. **Əslində isə Leninin niyyəti imperializmin yeni - pərdələnmiş formasını yaratmaq idi. Nümunə üçün demək olar ki,**

Bakı (Azərbaycan) haqqında Leninin almanlarla gizli sövdələşməsi vardı və bu sövdələşmədə almanlar öz müttəfiqləri olan osmanlıları sataraq Bakı neftinə görə, türklərə xəyanət etmişdilər. Söhbət 1918-ci il Brest-Litovsk sülh anlaşmasına edilən gizli əlavədən gedir...

Qafqazı yenidən Rusiyaya birləşdirmək üçün Lenin də "erməni kartından yararlanaraq, oktyabr inqilabının "qırxı" çıxmamış - 1917-ci il dekabrın 16-da RSFSR XKS-nin qərarı ilə Stepan Şaumyanı Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin etmişdi. Qafqazda erməni və müsəlmanların hərbi-siyasi güc balansının kəskin şəkildə öz xeyirlərinə olduğunu yaxşı başa düşən erməni liderləri öz siyasi beyinlərini və hərbi güclərini tədricən, Bakıya yönəltmişdilər. Təkcə bu faktı xatırlamaq yerinə düşər ki, çar Rusiyası müsəlmanları əsgəri xidmətə qəbul etmədiyi halda, Cənubi Qafqazda 250 min erməni Rusiya ordusunun tərkibində xidmət edirdi və ucqarlardakı hərbi hissələr Lenin "inqilabı" ilə tərxis olunduqdan sonra yüz minlərlə erməni hərbçisi öz xidməti silahları ilə Şərqi Anadoluya, əsasən isə, Qafqaz bölgəsinə qan uddururdu.

I Dünya savaşından yüksək mənfəət götürmək üçün ermənilər üç əks cəbhədə vuruşurdular: bir qismləri rus, digər qismləri Antanta və üçüncü qismləri Denikinin tərəfində. İkrah doğuran cəhət isə o idi ki, ermənilərin bu üçüzlülüyünə baxmayaraq, həm Antanta, həm Rusiya, həm də Denikin 1918-ci il Paris sülh konfransında ermənilərı dəstəkləyirdilər...

Lenin və qeyri-qanuni surətdə elan edilmiş ermənipərəst Bakı Soveti qurumu müsəlmanları sosializm, bərabərlik və xalqları öz müqəddəratını azad surətdə təyini prinsipləri ilə

arxayınlaşdıraraq, əslində aborigen qafqazlılar, xüsusən də azəri türkləri üçün qorxunc bir tələ hazırlayırdılar.

Beləliklə, Bakı Sovetinin öz hərbi birləşmələrindən başqa, erməni milli şurasının, Daşnaksütyunun başkəsən hərbi bölükləri də Bakıya cəmləşmişdi. Burada eserlərin silahlı qurumları və başqa xristian dəstələri də mövcud idi. Rusiyanın İran və Türkiyə sərhədindəki Qafqaz qarnizonları da öz silah-sursatlarını ya ermənilərə satmış, ya da muzdlu olaraq savaşmaq üçün Bakıya cəmləşdirmişdi. Onları saxlamaq məqsədi ilə Bakının nefti və Xəzərin sərvəti talan edilirdi.

Bakıda qırğınlar törədərək, bu bölgəni işğal altına almaq üçün ermənilər həm də ideoloci siyasi zəmin hazırlayırdılar. O zaman rus dilində nəşr olunan "İzvestiya" qəzetinin redaktoru Anastas Mikoyan, "Bakinski raboçiy" qəzetinin redaktoru isə Arsen Əmiryan idi. Bu qəzetlərdə guya müsəlmanların, xüsusən də osmanlılardan dəstək alan müsavatçıların xristianlara qarşı kütləvi qırğın hazırladıqları haqda ardıcıl materiallar çap edərək, sonra bunların Avropa qəzetlərində yayılmasına nail oldular.

Hacı Zeynalabdin Tağıyevin əsgəri hissədə ehtiyatsızlıq nəticəsində həlak olan oğlunu dəfn etmək üçün Lənkərandan Bakıya gələn müsəlman "Evelina" gəmisinin tərk-silah edilməsi və onların rəhbəri general Talışxanovun həbs edilməsi hadisələrin gedişini sürətləndirdi. Müsəlman camaat məscidlərə yığışaraq, general Talışxanovun buraxılmasını, müsəlman hərbçilərin silahlarının qaytarılmasını tələb etməyə başladılar.

Bu faktları xristianları təhqir kimi qələmə verən erməni bölükləri 1918-ci il də martın sonuna yaxın Təzəpir məscidi

istiqamətindən başlayaraq silahsız müsəlmanlara divan tutdu, şəhəri darmadağın etdilər. Müsəlmanların mədəniyyət mərkəzinin yerləşdiyi "İsmailiyyə" binasını, müsəlman qəzetlərinin çap olunduğu "Kaspi" mətbəəsini və başqa əhəmiyyətli binaları yandırdılar. Bəzi məlumatlara görə, şəhərdə 17 min müsəlman məhv edilmişdi. Qalanları isə canını qurtarıb, müxtəlif istiqamətlərdə qaçmağa başlamışdılar.

Bakı hadisələrinin ilk günündə, hətta Bakı Soveti hakimiyyətinə heç bir aidiyyəti olmayan, birbaşa Rusiya tabeçiliyində olan qırıcı təyyarələr eskadrili Bakını bombalamış, Xəzərdəki Rus hərbi gəmiləri şəhərdəki müsəlman məhəllələrini top atəşi ilə darmadağın etmişdi. Lakin elə həmin gün ruslar Bakıda xristianlara qarşı təhlükənin ermənilər tərəfindən məqsədli uydurma olduğu haqda səhih məlumat əldə etdikdən sonra, dərhal atəşi dayandırmışdılar.

Əcdərbəy məscidinin ətrafında və Məhəmmədi deyi-lən nahiyədə də kütləvi qırğınlar xüsusi vəhşiliklə özünü büruzə verirdi. Gənc qadınlara, qızlara təcavüz edilir, on-ların döşləri və tənasül üzvləri kəsilir, sonra sinələrindən, başlarından divara mıxlanırdılar. Hamilə qadınların bətni doğranır, oğlan cocuqlarının tənasül üzvləri, burnu və qulaqları kəsilir, qocalara sümük ataraq onların ləyaqəti alçaldılırdı...

1947-ci il dekabrın 23-də imzalanmış SSRİ Nazirlər Sovetinin 4083 nömrəli qərarına əsasən. 1948-1953-cü illərdə 100 min azərbaycanlı əhali Ermənistandan deportasiya edilərək, Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi planlaşdırılır. Azərbaycanlılar əsrlər boyu ömür sürdükləri doğma vətənlərindən, dədə-baba yurdlarından - Göyçə, Zəngəzur, Zəngibasar, Vedibasar mahallarından zorla Azərbaycanın Kür-Araz ovalığının ilanmələyən düz-

lərinə səpələnirlər. "Tam könüllülük" pərdəsi altında köçürülən bu əhali səfalı yaylaqları, büllür bulaqları, bağ-bağçaları, doğma ev-eşiklərini, dədə-baba yurdlarını gözü yaşlı tərk edirlər.

Son vaxtlara qədər azərbaycanlıların 1948-1953-cü illərdə köçürülməsinin öyrənilməsi də yasaq olunan mövzulardan idi. Bütün bu illər zülmə düçar olanlar için-için yanmış, qovrulmuş, qorxudan öz dərdlərini belə açıb-ağarda bilməmişdilər. Xalqın bu müsibəti haqda heç də heç nə deyilməmiş, yazılmamışdır. Bəzi bədii, publisistik yazılarda bu həqiqətlər üstüörtülü şəkildə yada salınsa da,

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan Kür-Araz ovalığına köçürülməsinin əsas səbəbləri tam açılmamış, hadisələr bağlı qalmışdır. Bu haqda ilk dəfə 1988-ci il hadisələrindən sonra açıq danışmağa başlanıldı. Lakin yenə də köçürmələrin sayı, səbəbləri və s. haqqında bir-birinə zidd məlumatlar verilir, rəylər söylənirdi.

Azərbaycan tarixinin qaranlıq səhifələrindən olan bu məsələlərə dair əsl həqiqəti üzə çıxarmaq üçün ilk dəfə olaraq, arxivlərdə geniş araşdırmalar aparıldı. Əldə edilmiş yeni faktlar, tarixi sənədlər əsasında qələmə alınmış bu yazıda 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən Kür-Araz ovalığına köçürməsinin başlıca səbəbləri, tarixi kökləri açılıb, onların başlarına gətirilən müsibətlər real şəkildə təsvir olunur.

Hələ XIX əsrin əvvəllərində Rusiya-İran və Rusiya-Türki yə savaşlarından sonra İrandan və Türkiyədən on minlərlə erməni çar Rusiyasının müstəmləkəsinə çevrilmiş Qafqaza köçürüldü. Köçürülən ermənilər, əsasən, keçmiş İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının azərbaycanlı-

lar yaşayan torpaqlarında yerləşdirildilər. **Bu köçürmənin gələcək nəticələrini hələ o vaxt Rusiyanın İrandakı səfiri, yazıçı A.S.Qriboyedov görə bilmişdi.** O, öz məlumatlarının birində çar hakimiyyət orqanlarına bildirirdi ki, İrandan köçürülmüş ermənilərin çox hissəsi azərbaycanlı mülkədarların torpaqlarında yerləşdirilmişdi. Qriboyedov yazırdı ki, **yay vaxlı yaylaqda qalan azərbaycanlılar öz torpaqlarına qayıdıb başqa dindən olan "gəlmələri" görəndə, çox narazı qalacaqlar. Bu isə arzuolunmaz nəticələr verə bilər.**

Azərbaycan ərazisinə köçürülmüş ermənilər özlərinə yer elədikcə azərbaycanlıları əsrlərlə yaşadıqları qədim oğuz torpaqlarından sıxışdırmağa başladılar. Bu barədə inqilabaqədərki çar Rusiyasının rəsmi mətbuatında keçmişdə, əsasən, azərbaycanlıların yaşadıqları ərazilərdə əhalinin milli tərkibinin surətlə dəyişdiyi, ermənilərin sayının durmadan artması barədə külli miqdarda statistik məlumatlar var.

1918-ci ilin mayında Zaqafqaziya seymi dağıdıldıqdan sonra burada Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları yaranır. Yarandığı ilk gündən təcavüzkar siyasət yeridən Ermənistan Respublikası qonşu xalqlara qarşı ərazi iddiasına başlayır, 1918-ci ilin dekabrında Borçalını ələ keçirmək üçün Gürcüstana savaş elan edir. Azərbaycan Cümhuriyyəti isə öz varlığının ilk günlərindən bu üç respublika arasında mehriban qonşuluq əlaqəsi yaratmaq istəyir.

1918-ci il martın 28-də elan edilən Azərbaycan Cümhuriyyəti hökumətinin baş naziri Fətəlixan Xoyski mayın 29-da öz hökumətinin xarici işlər naziri Məmmədhəsən Hacinskiyə yazırdı: **"Biz ermənilərlə bütün mübahisələri**

həll etdik, onlar ultimatumu qəbul edəcək və savaşı qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik".

Sonrakı tarixi hadisələr göstərdi ki, bu güzəştə getmək ermənilərlə bütün mübahisələri nəinki həll etdi, əksinə, qədim İrəvan xanlığı ərazisinin ermənilərə bağışlanması onların böyük iştahlarını daha da artırdı.

Əvət, 1918-ci ilədək demək olar ki, faktiki ərazisi olmayan Ermənistan 1920-ci ildən Zaqafqaziya sovetləşəndən bəri əsasən, Azərbaycan torpaqları hesabına öz ərazisini addım-addım genişləndirdi. 70 il ərzində V.İ.Leninin yaratdığı "proletar beynəlmiləlçiliyi" bayrağı altında Ermənistan Azərbaycan torpaqlarını dinc yolla işğalı siyasətini daxildən həyata keçirmişdir.

1920-ci ilin dekabrında Ermənistanda Sovet hakimiyyəti qurulduqdan iki gün sonra "proletar inqilabı bayrağını uca tutan" Azərbaycan oradakı bütün var-dövlətini Ermənistanın malı elan etdi. "Azərbaycanın qara qanının bundan sonra Ermənistanın damarlarına axacağını" bildirdi. Üstəlik, Zəngəzur qəzasını da ona bağışladı. Ermənistan isə bununla kifayətlənmək istəmirdi, vaxt var ikən Naxçıvan və Qarabağı da Azərbaycandan qoparmağa can atırdı. Azərbaycan topaqlarını tutmaqda Ermənistan üçün həqiqətən əlverişli şərait yaranmışdı. Leninin himayəsi ilə mərkəzi hökümət tərəfindən müdafiə olunan erməni-gürcü-bolşevik bloku Qafqazda bütün hakimiyyəti öz əllərinə keçirmişdi. Stalin, Orconikidze, Mikoyan, Myasnikyan, Mirzoyan və başqaları öz iradələrini demək olar ki, bütün Qafqazda, ilk növbədə isə Azərbaycanda diqfə edirdilər. Bu zaman Azərbaycan partiya təşkilatına rəhbərlik edən S.M.Kirov da onlarla həmrəy idi. Azərbaycanda bu güclü bloka qar-

şı mübarizədə aldadılmış N.Nərimanov demək olar ki, tək qalmışdı. Bu işdə "sapı özümüzdən olan baltalar", başabəla "beynəlmiləlçi" bolşeviklərimiz də düşmən dəyirmanına su tökməkdə az rol oynamırdılar. Məhz onların köməyi ilə N.Nərimanov Azərbaycandan uzaqlaşdırıldı və Azərbaycanda sarkislər, mirzoyanlar meydan suladılar.

Nəticədə 1920-ci ildə Zəngəzura sahib olan ermənilər bu torpaqların əsl sahiblərini öz doğma yurd-yuvalarından, el-obalarından sıxışdırıb çıxardılar. Bu işdə onlar hər cür üsullara, zora, aldatmağa, Moskvada hökumət dairələrindəki mövqelərindən istifadə etməyə can atır, bütün bunlar boşa çıxanda isə dünyaya hayqırırdılar ki, "zavallı ermənilər vəhşi müsəlmanlardan" qorumaq üçün bizə dayaq durun.

1921-ci ildə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqındakı planları baş tutmayan ermənilər 1923- cü ildə ona muxtariyyət verilməsinə nail oldular. Lakin onlar torpaq iddialarından əl çəkmir, yavaş-yavaş Azərbaycan kəndlərini öz torpaqlarına qatır, qanuniləşdirirdilər. 1929-cu ildə Nüvədi, Exnadzor və Tuqut kəndləri Mehri rayonuna verildi. Elə həmin ildə azərbaycanlılar yaşayan 9 kənd əlavə olaraq, Ermənistana birləşdirildi.

70 ildə Azərbaycan və azərbaycanlılar yaşayan ərazi ilə bağlı məsələlərdə Ermənistan rəhbərliyi öz qarşılarında başlıca olaraq, iki məqsəd qoymuşdu: Ermənistanın ərazisindəki azərbaycanlı əhalini nəyin bahasına olursa olsun aradan sıxışdırıb çıxarmaq, ikincisi isə, Azərbaycan Respublikasının torpaqlarının hesabına öz ərazisini genişləndirmək. Bu illər ərzində Ermənistanda rəhbərliyə kimin gəlməsindən asılı olmayaraq, bu və-

zifələr dönmədən və ardıcıl şəkildə yerinə yetirilmişdir.

1945-ci ilin noyabrında Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Q.Arutyunov İ.Stalinə məktubunda yenidən Qarabağın Ermənistan SSR-ə verilməsi məsələsini qaldırdı. İş o yerə çatır ki, əgər həmin məsələ müsbət həll olunarsa, onda Qarabağın keçmiş mərkəzi və 1920-ci ildə dağıdılmış Şuşanın bərpası haqqında hazırlanmış əlavə təkliflərin də Mərkəzi hökumətə təqdim olunacağını bildirirdi. Stalin həmin məktubu G.M.Malen- kovun üstünə, o isə öz növbəsində cavab üçün Azərbaycan rəhbərliyinə göndərdi. M.C.Bağırov məktuba cavabında bildirir ki, Azərbaycan həmin təklifə etiraz etmir, bu şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər də onun özünə qaytarılsın. Belə bir şəraitdə məsələnin arzuolunmaz istiqamət ala biləcəyini başa düşən "ulu rəhbər" bu təklifin gələcək inkişafına nöqtə qoyur.

Moskvada mikoyanların, ter-petrosyanların rəhbərlik etdiyi erməni lobbisi təbii ki, bununla barışa bilməzdi. Onlar manevr etməli olurlar. Əgər Azərbaycan Dağlıq Qarabağ müqabilində öz sərhədlərinə yaxın rayonlardakı azərbaycanlılar yaşayan torpaqları tələb edirsə, onda niyə tezliklə taktika dəyişdirilməsin? Belə də edirlər. Azərbaycanda heç kəsin gözləmədiyi bir halda **1947-ci il dekabr ayının 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarı çıxır.** İ.Stalinin imzaladığı heç bir girişsiz, izahsız, yal-

nız birdən-birə qərar hissəsindən başlayan bu sənəd, məzmunundan da göründüyü kimi, çox tələsik hazırlanmışdı. **1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Soveti həmin qərara əlavə olaraq ikinci bir qərar qəbul edir.** Özü də köçürmə ilə əlaqədar tədbirlər planı ikinci qərarda ətraflı şərh olunur.

Adətən, belə qərarlar qəbul olunarkən onların qəbulundan əvvəl yerinə yetirilməsi ilə əlaqədar hazırlıq tədbirləri də görülür. Azərbaycanda isə bu məsələ ilə əlaqədar bütün hazırlıq işləri yalnız 1948-ci ilin yanvarından, yəni respublikada SSRİ Nazirlər Sovetinin qərarı alındıqdan sonra başlayıb. R**espublika Nazirlər Soveti isə bu məsələ ilə əlaqədar ilk gizli qərarını 1948-ci il fevralın 2-də qəbul edib.**

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipləri əsasında" Ermənistan SSR-də yaşayan keçmiş kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. Onlardan 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin, 1950-ci ildə isə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu.

Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetlərinə tapşırılırdı ki, köçürüləcək əhali arasında köçürülmənin şərtləri və köçürülənlərə dövlət tərəfindən güzəştlər haqqında geniş izahat işləri aparılsın. Köçürülənlər ilə onların yola salınmasından ən geci 10 gün qabaq bütün hesablar aparılsın, qazandıqları əmək günlərinin haqqı ödənilsin, köçənlərin şəxsi istifadəsində olan bütün əmlakın, o cümlədən, heyvan və quşların aparılmasına da şərait yaradılsın.

Həmin qərarla Ermənistandan köçürülən azərbaycanlı əhaliyə aşağıdakı "güzəştlər" edilməsi nəzərdə tutulurdu:

köçürülən hər ailəyə pulsuz olaraq iki tona yaxın ev əşyası və kənd təsərrüfatı heyvanları aparılması; köçürülən ailələrin ailə başçısına 1000 manat, hər ailə üzvünə isə 300 manat pul yardımı göstərilməsi; köçürülənlər üçün Kür-Araz ovalığında nağd pulla hər ailə başçısının 1,5 sentner və hər ailə üzvünə 0,5 sentner taxıl satın almağa icazə verilməsi. **"Kənd təsərrüfatında köçürmə işlən üzrə güzəştlər haqqında" SSRİ Mərkəzi icraiyyə Komitəsi və SSRİ Xalq Komissarlan Sovetinin 1937-ci il 17 noyabr tarixli qərarı** Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə də şamil edilirdi. Maraqlıdır ki, bu qərar məhz 1937-ci ildə Sibir, Qazaxıstan və Uzaq Şərqə köçürülənlərə aid idi.

Həmin qərara əsasən Ermənistandan köçürülən kolxozçu və digər azərbaycanlı əhaliyə öz taxıl və kartoflarını Ermənistanda taxıl tədarükü orqanlarına, mal-qaranı isə ət birliklərinə təhvil verməyə icazə verilirdi. Azərbaycana gəldikdə isə burada onlar yerli taxıl tədarükü orqanlarından və ət birliklərindən müvafiq çəkidə taxıl, kartof və mal-qara ala bilərdilər.

Qərarda kənd təsərrüfatı banklarına tapşırılırdı ki, Kür-Araz ovalığına köçürülən hər ailəyə ev tikmək üçün 20 min manat, mal-qara almaq üçün isə 3 min manat kredit verilsin. Kreditlərin ödənilməsi onlar verildikdən 3 il sonra başlaması, ev tikmək üçün ayrılmış kredit 10 il müddətinə, mal-qara almaq üçün ayrılmış kredit isə 5 il müddətinə ödənilməli idi.

SSRİ Nazirlər Soveti SSRİ Dəmiryolları Nazirliyinə köçürülənlərin daşınmasını təmin etməyi, SSRİ Səhiyyə Nazirliyinə isə köçürülənləri gəldiyi yerdə tam tibbi müayinədən keçirməyi, yollarada tibbi kömək göstərməyi, SSRİ

Maliyyə Nazirliyinə isə Azərbaycan SSR-nin büdcəsində köçürmə ilə əlaqədar xərcləri nəzərdə tutmağı tapşırırdı.

Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetlərinə tapşırılırdı ki, köçürülmə ilə əlaqədar bir ay ərzində tədbirlər planı hazırlayıb SSRİ Nazirlər Sovetinə məlumat versinlər.

Bu qərarın belə təcili hazırlanmasının mahiyyətini onun axırıncı 11-ci maddəsi açır. Burada oxuyuruq: **"Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn ermənilər yerləşdirmək üçün istifadə etsinlər".**

Görünür, hiyləgər A.Mikoyan başda olmaqla Moskva-dakı erməni lobbisi Stalini inandıra bilmişdi ki, bu təcili köçürmələr xaricdən gələn ermənilər yerləşdirmək üçün lazımdır. Əksərən dağ kəndlərindən köçürülən azərbaycanlıların yerinə xaricdən gələn harın daşnaksütün tör-töküntüləri getmədi. Onlar Ermənistanın dağ kəndlərini abad etmək üçün deyil, "Böyük Ermənistan" yaratmaq xülyası ilə gəlirdilər. Ona görə də azərbaycanlıların köçürüldüyü dağ kəndlərinin çoxu sonralar xarabazara çevrildi.

1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Sovetinin İ.Stalinin imzası ilə "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qəbul etdiyi ikinci qərarda göstərilirdi ki, o, "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qə-

rarına əlavədir". 1948-ci il 10 mart tarixli qərarda artıq köçürmə ilə əlaqədar konkret tədbirlərdən bəhs olunurdu. Burada qeyd edilirdi ki, Ermənistan SSR-dən Kür-Araz ovalığına köçən kolxozçular özləri ilə əsas istehsal vasitələrini - kənd təsərrüfatı maşınlarını, avadanlığı, canlı və mexaniki qoşqu qüvvələrini, bütün növdən olan ev heyvanlarını və quşları, arı ailələrini, nəqliyyat vasitələri və başqa əşyaları da apara bilərlər. Dəyirmanlar, çoxillik ağaclar, elektrik stansiyaları və başqa mədəni-məişət tikililəri buraya daxil deyildir.

Qərarda Ermənistan SSR və Azərbaycan SSR Nazirlər Sovetlərinə tapşırılırdı ki, bir ay müddətinə Ermənistandan Kür-Araz ovalığına köçürüləcək kolxozçular və digər azərbaycanlı əhalinin Ermənistandan köçürülə bilməyən əmlakının ödənilməsi qaydası müəyyənləşdirilsin. Bu respublikaların nazirlər sovetlərinə tapşırılırdı ki, öz əmlakını satmaqda köçürülən əhaliyə kömək etsinlər.

Qərarda Azərbaycan SSR Nazirlər Sovetinin köçürülən kolxoz təsərrüfatları və əhalinin yerləşdirilməsi şöbəsinin Azərbaycan SSR Nazirlər Soveti yanında köçürülmə idarəsinə çevrilməsi məqsədəuyğun hesab edilirdi.

Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsinə tapşırılırdı ki, köçürülən kolxozlara texniki yardım göstərilməsi, yaşayış evləri tikilməsi və yardımçı təsərrüfatlar yaradılması üçün tikinti materialları ilə köməklik etsin. Azərbaycan SSR Nazirlər Sovetinə və SSRİ Kənd Təsərrüfatı Nazirliyinə icazə verilirdi ki, "Azərköçürmətikinti" kontoru əsasında Kür-Araz Düzənliyi Suvarılan torpaqların İstifadəsi İdarəsi tabeliyində "Azərköçürmətikinti" tresti yaradılsın və həmin trestin nəzdində Salyan, Əli

Bayramlı, Sabirabad və Puşkin (Biləsuvar) rayonlarında tikinti-quraşdırma kontorları təşkil edilsin. Azərbaycan SSR Nazirlər Sovetinə icazə verilirdi ki, Ermənistan SSR-dən kolxozçular və başqa əhalinin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar olaraq, hazırlıq işləri üçün layihələşdirmə, köməkçi müəssisələrin tikintisi, tikinti avadanlıqlarının alınması, tikinti təşkilatlarının yaradılması və s. 1948-ci ildə respublika üçün ayrılmış limitdənkənar vəsaitdən 11 milyon manat istifadə edilsin.

Həmin qərarla SSRİ-nin müvafiq nazirlik və komitələrinə tapşırılırdı ki, 1948-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin sərəncamına əlavə avadanlıq və materiallar buraxsınlar. SSRİ Yollar Nazirliyinə tapşırılırdı ki, Kür-Araz ovalığının Lənkəran, Səlyan, Sarıcalar, Saatlı, Daşburun, Ucar və başqa stansiyalarında hərəsində 600 metr uzunluğunda yükləmə-boşaltma meydanları yaratmaq üçün 1948-ci ildə Kür- Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsinə lazımi qədər material-rels, şpal və s. ayrılsın.

SSRİ Nazirlər Sovetinin qərarlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün **Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il fevralın 2-də və aprelin 14-də xüsusi qərarlar** qəbul etdi. Birinci qərarda həmin il Ermənistan SSR- dən köçürüləcək 10 min nəfər əhalini qəbul etmək və yerləşdirmək məsələlərindən bəhs olunurdu.

Burada Saatlı, Salyan, Sabirabad, Əli Bayramlı, Puşkin (Biləsuvar), Aücabədi və Xıllı (Salyan rayonu) rayon icraiyyə komitələrinə bir vəzifə olaraq tapşırılırdı: 1948-ci il fevralın 15-nə qədər köçürülənlərin yerləşdiriləcəyi kolxozlarda olan boş yaşayış evlərinin təmiri və bərpası üçün tikinti briqadaları yaratmaq; onları lazımi nəqliyyat

vasitələri və əmək alətləri ilə təmin etmək; öz yaşayış evlərinin bir hissəsini köçürülənlərə vermək istəyən kolxozçuları müəyyən etmək və uçota götürmək; Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Kür-Araz ovalıüına köçürülməsinin qaydaları, şərtləri, təsərrüfat-siyasi əhəmiyyəti haqqında geniş izahat işi aparmaq.

Azərbaycan SSR sovxozlar, kənd təsərrüfatı, su təsərrüfatı nazirliklərinə, Kür-Araz Ovalıüı Suvarılan Torpaqların İstifadəsi və Kür-Araz Su Tikintisi idarələrinə tapşırılırdı ki, 1948-ci ilin birinci yarısında köçürülənləri qəbul etmək üçün hazırlıq işləri görsünlər.

Dövlət Plan Komitəsinə tapşırılırdı ki, kolxoz və sovxozlarda köçürülənlər üçün nəzərdə tutulmuş yaşayış evlərinin təmiri üçün lazımi tikinti materialları ayırsın.

Azərbaycan Kəndtikintilayihə və Arxitektura işləri üzrə idarələrə tapşırılırdı ki, Kür-Araz Ovalıüı Suvarılan Torpaqların İstifadəsi İdarəsi ilə müqavilə əsasında 1948-ci il fevral-iyul aylarında Ermənistandan köçürüləcək təsərrüfatların yerləşdirilməsi üçün kolxoz qəsəbələrinin baş planlarının layihələrini hazırlasınlar.

Həmin qərarda köçkünlərdən ötrü yaradılacaq tikinti təşkilatları üçün mühəndis-texnik kadrların seçilməsi işi Dövlət Plan Komitəsinə, Azərbaycan dilində köçürmə ilə əlaqədar şərtlər və Kür-Araz ovalığı torpaqlarının istifadəsinin xalq təsərrüfatı əhəmiyyətini izah edən rəngarəng plakatların hazırlanması və nəşri Azərbaycan Dövlət Nəşriyyatına həvalə olunurdu. Azərbaycan SSR Səhiyyə Nazirliyinə tapşırılırdı ki, köçkünləri qəbul edən rayonlar, sovxoz və kolxozlarda malyariya və bağırsaq xəstəliklərinə qarşı tədbirlər planı işləyib hazırlasın, bu rayonlarda xəstəxana, am-

bulatoriya və feldşer məntəqələri şəbəkəsi yaratsın. Qərara əsasən Maarif Nazirliyi 1948-1949-cu tədris ili üçün köçürülənlərin yerləşdiriləcəyi rayonlarda məktəblər və uşaq tərbiyə müəssisələri yaratmalı və genişləndirməli, Ticarət Nazirliyi və Azərittifaq isə köçürülənlərə ticarət xidməti göstərmək üçün tədbirlər planı hazırlayıb baxılmaqdan ötrü Nazirlər Kabinetinə təqdim etməli idi.

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 14 aprel tarixli qərarında isə SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli və 1948-ci il 10 mart tarixli qərarları və qərarlardan irəli gələn vəzifələr geniş izah edilir, bunların yerinə yetirilməsi üçün respublikanın ayrı-ayrı təşkilatları qarşısında duran vəzifələr dəqiqləşdirilirdi.

Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il mayın 13-də bu məsələ ilə əlaqədar əlavə qərar, Azərbaycan KBP Mərkəzi Komitəsi isə **1948-ci il aprel ayının 13-də "Ermənistan SSR-dən kolxozçu və digər əhalinin Azərbaycan SSR-ə köçürülməsi ilə əlaqədar kütləvi izahat işləri haqqında" qərar** qəbul etdi.

Qeyd etdiyimiz kimi, köçürmə ilə əlaqədar bütün tədbirlərin həyata keçirilməsinə 1948-ci ilin yanvarından başlandı. Gözlənilmədiyi halda meydana çıxdığına görə, əvvəllər bu işdə bir nizamsızlıq, özünüitirmə halları hiss olunurdu. Demək olar ki, heç kəs nədən başlayacağını bilmirdi. Lakin totalitar recimin "üstünlükləri" tezliklə özünü büruzə verdi. Köçürmə işinin təşkilinə 1948-ci ildə Ermənistan SSR-dən azərbaycanlıların köçürüləcəyi rayonların siyahılarının tərtibindən başlandı. Hər rayondan neçə təsərrüfat və nə qədər adam köçürüləcəyi və onların Azərbaycanın hansı rayonlarında yerləşdiriləcəyi müəyyənləşdirilirdi. Bunun üçün 1948-ci ilin yanvarında Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan KBP Mərkəzi Komitəsinin nümayəndələri Ermənistan SSR-ə ezam olunurdular. Onların qarşısında Ermənistan SSR Nazirlər Soveti ilə birgə köçürmə ilə əlaqədar vahid tədbirlər planı işləyib hazırlamaq, eyni vaxtda Ermənistandan köçürüləcək azərbaycanlılar arasında köçürmənin şərtləri, güzəştləri haqqında izahat işləri aparmaq vəzifələri dururdu.

1948-ci ilin martında isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev və Azərbaycan KBP Mərkəzi Komitəsinin katibi H.Seyidov Ermənistanda oldular. Onlar Ermənistan SSR rəhbərləri ilə azərbaycanlılar yaşayan rayonlara yollanaraq kolxozçular arasında köçürmənin qaydaları və şərtləri haqqında izahat işləri aparırdılar. Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 13 may tarixli qərarına əsasən həmin il Ermənistan SSR-in Yerevan şəhərinin Stalin və Spandaryan rayonlarından, habelə, Basarkeçər, Vedi, Artaşad, Noyenberyan, Oktenberyan, Zəngibasar və başqa rayonlarından Azərbaycana 2757 təsərrüfatın (12177 nəfərin) köçürülməsi planlaşdırılırdı. Onlardan 6215 nəfərini Kür-Araz ovalığında, 5962 nəfərini isə Azərbaycanın digər rayonlarında yerləşdirmək nəzərdə tutulurdu. Köçürülənlər Bakının Əzizbəyov və Voroşilov rayonlarında, habelə, Gədəbəy, Xanlar, Şamxor (Şəmkir), Martuni, Səfərəliyev, Qasım İsmayılov, Göyçay, Quba, Bərdə, Ağstafa, Ucar, Ağcabədi, Salyan kənd rayonlarında yerləşdirilməli idi.

1948-ci il iyulun 9-da respublika Nazirlər Sovetinin sədri T.Quliyev SSRİ Nazirlər Soveti sədrinin müavini V.M.Molotova məktubunda Kür-Araz ovalığında 1948-ci ildə köçürülməsi nəzərdə tutulmuş azərbaycanlı əha-

lini yerləşdirmək üçün yaşayış binalarının olmamasını nəzərə alaraq, onların bir hissəsini respublikanın başqa rayonlarında yerləşdirməyə razılıq verməyi xahiş edir. Həm də göstərir ki, köçürülən əhalinin bir hissəsi Ermənistanın dağ rayonlarında yaşadığı üçün Kür-Araz ovalığındakı iqlim şəraitinə çətin alışa bilir. Təəssüflər olsun ki, SSRİ Nazirlər Soveti bu xahişə müsbət cavab vermir. NəticƏdə isə Kür-Araz ovalığına köçürülmüş on minlərlə azərbaycanlı arasında kütləvi ölüm halları baş verir.

1948-ci il mayın 18-də Respublika Nazirlər Sovetinin sədri T.Quliyev Nazirlər Sovetinin Ermənistan SSR-dəki nümayəndəsinə təcili teleqramında bildirirdi ki, **"mayın 13-də köçürmə planı Azərbaycan SSR Nazirlər Soveti tərəfindən yalnız Qubaya köçürüləcək 52 təsərrüfat və 232 adamın köçürmə vaxtını yazdan payıza keçirmək şərtilə qəbul edildi. Onu razılaşdırmaq üçün Ermənistan SSR Nazirlər Sovetinə təqdim edin. Bu məlumatı təxirəsalmadan köçürülənlərə çatdırın. Köçürmənin həyata keçirilməsi işinə başlayın".**

Azərbaycan SSR ərazisində azərbaycanlı köçkünləri qəbul etmək üçün Nazirlər Sovetinin göstərişi ilə respublikanın rayonlarına 27 nəfər məsul şəxsdən ibarət nümayəndə göndərildi. Onların vəzifəsi rayonlarda köçürülənləri yerləşdirmək üçün tikililərin vəziyyətini müəyyənləşdirmək idi. Bu məsələ ilə əlaqədar rayon partiya və icraiyyə komitələrinə göndərilmiş məktubda deyilirdi ki, rayonlara göndərilən şəxslərə hərtərəfli şərait yaradılsın ki, onlar həmin rayonlarda olan boş yaşayış binalarına baxsınlar və onlardan yaşayış evləri kimi istifadə edib-etməməyin mümkünlüyünü təyin etsinlər.

Bu işə əvvəlcə Azərbaycan SSR Nazirlər Sovetinin şöbə müdiri N.A.Brutens (indi Azərbaycanı bu bəlalara düçar edənlərdən biri məşhur K.N.Brutensin atasıdır), sonra isə R.İ.Sevumyan rəhbərlik edirdi. Necə deyərlər, qoyun qurda tapşırılmışdı.

Ermənistandan köçürülən əhali arasında təbliğat aparmaq məqsədilə xüsusi briqadalar yaradılaraq Ermənistan SSR-in azərbaycanlılar yaşayan rayonlarına göndərilirdi.

Maraqlıdır ki, 1948-ci il mayın axırlarında SSRİ Nazirlər Sovetindən respublika Nazirlər Sovetinə zəng edərək köçürməyə hazırlığın gedişi haqqında məlumat tələb edirlər. **İyunun 4-də Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin imzası ilə SSRİ Nazirlər Sovetinə göndərilən məlumatda** bildirilirdi ki, köçürmə ilə əlaqədar 1948-ci il may ayının 30-na qədər aşağıdakı işlər görülmüşdür: kö-çürmə planını təmin etmək üçün Azərbaycan SSR-in 28 rayonuna inşaatçı-mühəndislər göndərilmiş və onların qarşısında yaşayış üçün yararlı binaları müəyyən edib, təmir işini təşkil etmək vəzifələri qoyulmuşdur. **"Kənd təsərrüfatında köçürmə işlən üzrə güzəştlər haqqında" SSRİ MİK və SSRİ XKS-in 1937-ci il 17 noyabr tarixli qərarı** Azərbaycan dilinə tərcümə edilərək 4000 nüsxə nəşr olunmuşdur. 25 nəfərdən ibarət qrup bu günlərdə izahat işləri aparmaq üçün Ermənistan SSR-ə yola salınacaq. Mətbəə üsulu ilə Azərbaycan və rus dillərində 7000 nüsxə ərizə-anket, 5000 nüsxə isə köçürmə bileti hazırlanaraq Ermənistan SSR-ə göndərilib və onların doldurulması işinə başlanılıb. Köçürmə xərcləri üçün 1948-ci ilin res-publika büdcəsindən 13 milyon manat vəsait ayrılması nəzərdə tu-

tulub. 1948-ci ildə 12177 nəfərin köçürülməsi Ermənistan SSR Nazirlər Soveti ilə razılaşdırılıb.

Azərbaycan SSR Nazirlər Sovetinin kolxoz təsərrüfatlarının köçürülməsi şöbəsi Azərbaycan SSR Nazirlər Soveti yanında köçürmə idarəsinə çevrilmiş, Ermənistan SSR- dən kolxozçular və digər azərbaycanlı əhalisinin köçürüləcəyi dövr üçün Yerevan şəhərində Azərbaycan SSR Nazirlər Sovetinin nümayəndəliyi yaradılıb. Habelə, arayışda köçürülənlər üçün tikiləcək evlərin 6 nümunəvi layihəsinin hazırlandığı, tikinti materialları və tikinti işlərini təşkil etmək üçün "Azərköçürmətikinti" trestinin və onun Salyan, Sabirabad, Əli Bayramlı, Puşkin (Biləsuvar) rayonlarında tikinti kontorlarının yaradıldığı və s. haqqında məlumat verilirdi.

Ermənistan SSR-dən Kür-Araz ovalığına ilk köçkünlər 1948-ci il iyunun əvvələrində gəlir. Azərbaycan SSR Sovxozlar Nazirliyinin həmin il iyunun 19-da verdiyi məlumatda bildirilirdi ki, qəbul olunan ilk eşalonlarla 44 azərbaycanlı ailəsi gəlmiş, onlar Udanov (Beyləqan) rayonundakı sovxozlarda yerləşdirilmişdir. Məlumatda göstərilirdi ki, gələnlər təmir olunmuş mənzillərlə təmin edilir. Onlar özləri ilə lazımi ev əşyaları gətirmiş, sovxozlar onları miçət- gən ilə təmin etmiş, istəyənlər üçün bostan sahəsi ayrılmış və imkan daxilində onlara toxum da verilmişdir.

MTN-in Dövlət Komissiyasının arxiv materialları əsasında Əmək qabiliyyətli əhali işlə təmin edilmişdir. Onlar əsasən bağlarda və bostanlarda işə düzəldilmişlər.

İyunun 29-da respublika Nazirlər Sovetinin müvəkkili Goranboy stansiyasından xəbər verirdi ki, **"iyunun 28-də səhər saat 9-da 59 vaqondan ibarət eşalon daxil oldu. 101 təsərrüfat, 382 nəfər öz ev əşyaları və heyvanları ilə**

varid oldu. Qəbul və boşaldılma işləri lazımi qaydada həyata keçirildi. Artıq axşam saat 9-a qədər 98 ailə maşınlara yüklənərək, kolxozlara yola salındı".

1948-ci il noyabrın 1-nə qədər Ermənistan SSR-dən Azərbaycan SSR-ə 1799 təsərrüfatda birləşən 7747 nəfər adam köçürüldü. Həmin müddətdə Ermənistan SSR-dən Azərbaycana özbaşına 2834 nəfərdən ibarət 429 ailə köçmüşdü. Beləliklə, 1948-ci il noyabrın 1-nə qədər Azərbaycana 2228 təsərrüfatda birləşən 10584 nəfər adam gəlmişdi.

Həmin ilin dekabrında isə Ermənistandan əlavə olaraq 120 təsərrüfatda birləşən 462 nəfər köçür. Onlardan 65 təsərrüfatda birləşən 209 nəfəri Noyanberyan rayonunun Körpülü kəndinin, 64 təsərrüfatda birləşən 253 nəfəri isə İrəvan şəhərinin sakinləri idi.

Azərbaycan SSR Nazirlər Sovetinə, Azərbaycan KBP MK-ya verilmiş məlumatlardan görünür ki, bir sıra rayonlara, o cümlədən, Tovuz rayonuna köçürülənlər çox soyuq qarşılanmış, onların bir hissəsi tövlələrdə yerləşdirilmişlər. Ona görə də Aşağı Körpülüdən köçürülənlərdən 16 təsərrüfat qonşu Gürcüstan SSR-in Borçalı rayonuna getmiş, 5 təsərrüfat Yuxarı Körpülü kəndinə qayıtmış, 2 təsərrüfat isə Alaverdi mədənlərində işə düzəlmişdir.

Köçürmənin birinci ili Kür-Araz ovalığında hazır yaşayış evləri, həyətyanı sahələr və suvarılan torpaqlar olma-dığı üçün əhalinin bir hissəsi Azərbaycanın boş yaşayış evləri olan rayonlarına köçürülür. Habelə, Ermənistan SSR-in bir sıra dağ rayonları sakinlərinin tələbi ilə onlar düzən rayonlarının təbii şəraitinə davam gətirə bilməyəcəkləri üçün onları Azərbaycanın dağ rayonlarına köçürməyi xahiş edir və

birinci il buna nail olurlar.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarı ilə 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycana 40 min nəfər azərbaycanlının köçürülməsi planlaşdırılırdı. 1948-ci il köçürməsinin nəticələri göstərdi ki, 40 min nəfər adamı yerləşdirmək o qədər də asan məsələ deyil. Belə ki, 1948-ci ildə köçürülən 10 min nəfərin nisbətən daha çox mənzil ehtiyatı olduğu bir vaxtda köçürülməsinə, respublikanın müxtəlif rayonlarına paylanmasına baxmayaraq, onların çoxu qaramal tövlələrində yerləşdirilmişdi. Belə bir şəraitdə 40 min nəfəri Kür-Araz ovalığına köçürmək və yaşayış evləri, həyətyanı sahələrlə təmin etmək praktiki cəhətdən qeyri-mümkün idi. Ona görə də respublika Nazirlər Sovetinin sədri yenidən SSRİ Nazirlər Sovetinə müraciət etməyə məcbur olur. O öz məktubunda bu çətinlikləri nəzərə alaraq, 1949-cu ildə Ermənistan SSR-dən 12-15 min əhalinin köçürülməsinə razılıq verməyi xahiş edir. Həm də xahiş edir ki, Ermənistan SSR-in dağ rayonlarından köçürülən əhalinin Azərbaycanın iqlim şəraiti əlverişli olan dağ rayonlarına köçürülməsinə, Kür-Araz ovalığına köçürülənlər üçün müəyyən olunmuş güzəştlərin onlara da aid edilməsinə icazə verilsin.

1949-cu ildə Respublika Köçürmə idarəsi Azərbaycan SSR Nazirlər Sovetinə göndərdiyi məktub və arayışlarda dəfələrlə bildirirdi ki, yaşayış evlərinin çatışmaması nəticəsində Səfərəliyev, Ağcabədi rayonlarına köçürülənlər dözülməz şəraitdə yaşayırlar. Bəzən bir neçə ailə kiçicik bir daxmada daldalanmalı olur, çox vaxt onlar mal-qara ilə bir tövlədə yaşayırlar. Məsələn,

Ağcabədi rayonunun T.Quliyev adına kolxozunda üç ailə qapı-pəncərəsi olmayan, təmir edilməmiş, tavanı daman kiçicik bir daxmada yerləşmişdi.

Köçkün Orucəli Əkbərovun ailəsi Səfərəliyev rayonunun Çaparidze adına kolxozunda Həyat Əmrahovanın evində yaşayır. Dekabrın əvvəllərində O.Əkbərovun əşyaları küçəyə atılmış, 5 nəfərdən ibarət ailə qış günündə açıq səma altında gecələməli olmuşdur. Köçkün Həcər Əkbərovanın ailəsi də dəfələrlə küçəyə atılmışdır. 8 nəfər ailə üzvü olan Hüseyn Əliyevi ilyasovun evində kiçik bir otaqda yerləşdirmişlər. Ev sahibi, onun arvadı və uşaqları H.Əliyev gündüz evdə olmayan vaxt uşaqlarını həmin otağa qatıb qapını bağlayır, söyüb təhqir edirdilər. Bu da köçürülənlər arasında haqlı narazılığa səbəb olurdu. **Köçürmə idarəsi xəbər verirdi ki, köçkünlərin ərzaq və çox işlənən mallarla təchizi işi də olduqca acınacaqlı vəziyyətdədir. Köçkünlər çay, qənd, duz, paltar sabunu, neft, lampa və s. çoxişlənən mallar ala bilmir, rayon partiya komitələrinin katibləri və icraiyyət komitələrinin rəhbərləri isə onların ehtiyaclarına heç cür diqqət yetirmirlər. Nəticədə, köçürülənlər üçün dözülməz şərait yaranır, onların arasında narazılıqlar artır, dava-qalmaqal olur, bu isə köçürmənin ümumi gedişinə mənfi təsir göstərirdi. Bütün bunları nəzərə alaraq, Ermənistan SSR ilə razılaşdırılaraq, 1949-cu ildə 15713 nəfərin, yaxud 3818 təsərrüfatın köçürülməsi planlaşdırılır. Onlardan 5420 nəfəri yazda, 10293 nəfəri isə payızda köçürülməli idi. Lakin həmin ilin sentyabrına qədər SSRİ Nazirlər Soveti bu planla razılaşmır. SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinin rəisi S.Çeremuşin Respublika**

Nazirlər Sovetinin sədri T.Quliyevə məktubunda bir daha xatırladır ki, 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycan SSR-ə 40 min azərbaycanlı əhali köçürülməlidir. Həmin ilin 9 ayı ərzində köçürmənin vəziyyəti haqqında SSRİ Nazirlər Sovetinə məlumat vermək üçün hesabat tələb edir.

Bu məsələ ilə əlaqədar Respublika Nazirlər Sovetinin sədri T.Quliyev 1949-cu il oktyabrın 21-də yenidən SSRİ Nazirlər Soveti sədrinin müavini G.M.Malenkova müraciət etməli olur. O bildirirdi ki, 90 min adamı və 21 min təsərrüfatı yerləşdirmək üçün ən azı 20 min yaşayış evi tələb olunur. Bununla yanaşı istehsal binaları, məktəblər, xəstəxanalar, su təchizatı müəssisələri, hamamlar və s. tikintisi də zəruridir. Bunun üçün ən azı 400 milyon manatlıq tikinti-quraşdırma işi görülməlidir. Belə böyük bir işin öhdəsindən isə Azərbaycan respublikası öz gücü ilə iki il müddətinə gələ bilməz. Bunları nəzərə alaraq, Respublika Nazirlər Soveti 1949-cu ildə köçürmə planını 10 min nəfərə endirməyi xahiş edir.

1949-cu ilin oktyabrında Azərbaycan SSR Köçürmə İdarəsi Respublika Nazirlər Sovetinə məlumatında bildirirdi ki, həmin ildə 10 min azərbaycanlının köçürülməsi planlaşdırılıb, oktyabrın 22-nə qədər isə 983 təsərrüfat (4000 nəfər) köçürülmüş, 1500 təsərrüfatı (6000 nəfəri) əhatə edən azərbaycanlılara isə köçürmə bileti verilmişdir. Müvafiq qrafiklər üzrə dəmiryol eşalonlarında yola salınmaq üçün hazırlıq işləri görülmüşdür. İdarə bildirirdi ki, köçürmə planı müvəffəqiyyətlə yerinə yetiriləcək. Lakin Ermənistan SSR-də azərbaycanlı əhalini dəmiryol stansiyalarına gətirmək üçün benzin çatışmır. Köçürmə planı-nın yerinə

yetirilməsi, azərbaycanlı əhalinin Ermənistanın dəmiryol stansiyalarına gətirilməsi məqsədilə Azərbaycan SSR öz yanacaq fondundan 60 ton benzin ayırır.

Ermənistan SSR Nazirlər Soveti sədrinin müavini A.Pi- ruzyan həmin il dekabrın 2-də Azərbaycan SSR Nazirlər Soveti sədrinə məktubunda bildirirdi ki, 1949-cu il planına görə Ermənistan SSR-dən Azərbaycana 3278 təsərrüfat, yaxud 15276 nəfər köçürülməlidir. Faktiki olaraq, 2368 təsərrüfat, yaxud 10595 adam köçürülmüşdür. Plan üzrə köçürmək üçün tam hazır olan 628 təsərrüfat, yaxud 3201 nəfər çətin vəziyyətdə qalır. Onlar oktyabr-noyabr aylarında Azərbaycana köçürülməli idilər. Ona görə də köçkünlər öz evlərini, mal-qara üçün tədarük etdikləri yeni, qış yanacağını, ərzaq məhsullarını, bəzisi isə ev əşyalarını da satmış, demək olar ki, açıq səma altında qalmışlar. Azərbaycan Köçürmə İdarəsi onları bu il köçürmək imkanı olmadığını bildirir. A.Piruzyan isə məktubunda T.Quliyevdən xahiş edir ki, bu işə qarışaraq həmin əhalinin köçürülməsinə köməklik göstərsin.

Ümumiyyətlə, 1949-cu ildə Ermənistan SSR-dən azərbaycanlı əhali kütləvi şəkildə Kür-Araz ovalığındakı Zərdab, Əli Bayramlı, Kürdəmir, Göyçay, Mirbəşiri, Salyan, Sabirabad, Yevlax rayonlarına köçürülür. Yaşayış evləri-nin, ictimai binaların, içməli suyun və s. olmaması həmin rayonların rəhbərlərini məcbur edirdi ki, bütün vasitələrdən istifadə edərək, köçürülənləri qəbul etməkdən imtina etsinlər. Sənədlərdən aydın olur ki, Ermənistan SSR- dən gəlmiş eşalonlar günlərlə dəmiryol stansiyalarında dayanır, yalnız yuxarıdan olunan təzyiq onları məcbur edirdi ki, köçürülənləri qəbul etsinlər.

Yevlaxda, Sabirabadda, Uçarda və s. rayonlarda bu cür hallara təsadüf olunurdu. Əgər qəbul edilirdilərsə də, köçkünləri yerləşdirməyə yer tapılmır, onlar yerli kolxozçuların evlərinə paylanır, bu da həm gəlmələr, həm də yerli əhali üçün əlavə narahatlıqlar törədir, narazılıqlar yaradırdı.

Buna görə də 1949-cu ilin dekabrında Respublika Nazirlər Sovetinin sədri T.Quliyev bu məsələ ilə əlaqədar yenidən SSRİ Nazirlər Soveti sədrinin müavini G.M.Malenko va müraciət etməli olur. T.Quliyev öz məktubunda göstərirdi ki, iki il müddətində köçürmə planının qeyri-kafi şəkildə yerinə yetirilməsinin başlıca səbəbi Kür-Araz ovalığına köçürülənlər üçün lazımi yaşayış evlərinin və mədəni-məişət ocaqlarının yaradıla bilməməsidir. 1948-1949-cu illərdə Ermənistan SSR-dən köçürülənlər əsasən yerli kolxozçuları sıxışdıraraq, onların evlərinə yerləşdirilmişlər. Artıq respublika orqanlarının və rayon təşkilatlarının bu sahədə imkanları tamamilə tükənmişdir. Yeganə yol yeni evlər tikməklə köçürülənlər' qəbul etməkdir. Məktubda göstərilirdi ki, Azərbaycan SSR-in 1950-ci ilin xalq təsərrüfatı planında 3500 təsərrüfatın (15 min nəfərin) köçürülməsi planlaşdırılır. Bunun üçün isə 3500 ev tikilməlidir. Azərbaycan köçürmə tikinti trestinin və kolxozların illik tikinti imkanlarını nəzərə alaraq, Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürüləcək əhali üçün köçürmə planında dəyişikliklər etmək, 1951-ci ildə 10 min, 1952-ci ildə 20 min, 1953-cö ildə 20 min, 1954-cü ildə isə 15 min adamın köçürülməsini nəzərdə lutmaq xahiş olunurdu.

Ermənistan SSR-dən azərbaycanlı əhalinin köçürülməsi ilə bağlı mübahisə doğuran məsələlərdən biri də oradan köçən əhaliyə verilməli olan ictimai və fərdi təsərrüfatlara məxsus mal-qaranın sayı ilə bağlı idi. Bununla əlaqədar 1949 və 1950-ci illərə aid çoxlu sənədlər qorunub saxlanır. 1949-cu ilin dekabrında Ermənistan SSR-in köçürmə idarəsinin teleqramında deyilirdi ki, dekabrın 26- na qədər köçənlər özləri ilə 8138 baş qaramal, 19237 baş davar, 312 baş at, 81 baş donuz aparmışlar. Onlardan da guya 5114 baş qaramal, 14824 baş davar, 257 baş at və 81 baş donuz kolxoz təsərrüfatlarının payına düşür.

Azərbaycan köçürmə idarəsinin məlumatına görə isə, 1949-cü il dekabrın 1-nə qədər köçənlər özləri ilə cəmi 5019 baş qaramal, 9374 baş davar, 177 baş at gətirmişdilər ki, onlardan da 1677 baş qaramal, 4231 baş davar və 109 baş at ictimai təsərrüfatın payına düşürdü.

Bundan sonra bu məsələ ilə əlaqədar Moskva, Bakı və İrəvan arasında çox intensiv yazışma və teleqramlar mübadiləsi başlanır. Nəhayət, 1950-ci il yanvarın 11-də Ermənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyan bu məsələni həll etmək üçün şəxsi məktubla öz müavini Astvasaturyanı Bakıya göndərir. Nəticədə, Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetləri sədrlərinin adından SSRİ Nazirlər Sovetinə belə bir teleqraf göndərilir ki, 1950-ci ilin 1 yanvarına qədər Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülən əhali özləri ilə ictimai təsərrüfatılardan 4502 baş qaramal, 12720 baş davar, 206 baş at və 66 baş donuz, şəxsi təsərrüfatlardan isə 2607 baş qaramal, 4178 baş qoyun və 64 baş at gətirmişlər. Teleqramda xahiş olunurdu ki, həmin sayda heyvan Er-

mənistan SSR-in hesabından çıxarılaraq, Azərbaycan SSR-in planına əlavə olunsun.

Köçürülən mal-qaranın sayı belə dəqiqliklə qeydiyyatdan keçirildiyi halda, 1948-1953-cü illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülmüş azərbaycanlı əhalinin dəqiq uçotu olmamış, köçürülənlərin sayı haqqında Respublika Nazirlər Soveti yanında Köçürmə idarəsinin eyni ildə və hətta eyni ayda verdiyi məlumatlarda onların sayı müxtəlif cür göstərilmişdir. Məsələn, həmin idarə rəisinin SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinə 1952-ci il 25 sentyabr tarixli məktubunda 1948-

1952-ci illərdə Ermənistan SSR-dən Azərbaycanın Kür- Araz ovalığına 8082 təsərrüfatın (34513 nəfərin), həmin il sentyabrın 17-də isə respublika Nazirlər Sovetinə yazdığı məlumatda isə 9123 təsərrüfatın (38767 nəfərin) köçürüldüyü göstərilir. özü də Köçürmə idarəsi Azərbaycan SSR-ə köçürülən və köçənlərin ümumi sayını deyil, yalnız Kür- Araz ovalığına köçənlərin uçotunu aparmışdır.

1950-ci il yanvarın 10-da Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan KBP Mərkəzi Komitəsi "Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığı rayonlarına köçürülmüş kolxozçuların və digər azərbaycanlı əhalinin təsərrüfat cəhətcə yerləşdirilməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1949-cu illərdə Ermənistan SSR- dən Azərbaycan SSR-in Kür-Araz ovalığına 4674 təsərrüfat (20000 nəfər) köçürülmüşdür. Köçürülənlərdən 1410 ailə yerli sovetlər və kolxozçula-

ra məxsus evlərdə, 3264 ailə isə yerli kolxozçuları sıxışdırmaq hesabına yerləşdirilmişdir. Qərarda köçürülənlər üçün tikinti işlərinin yarıtmaz vəziyyəti də qeyd olunur. Bu məqsədlə iki ildə cəmi 80 təzə ev tkiilmişdi. Həmin qərarda köçürülənlər üçün evlərin və ictimai məişət müəssisələrinin genişləndirilməsi tədbirlərindən də ətraflı bəhs olunur.

1950-ci il martın 14-də Azərbaycan SSR Nazirlər Soveti Ermənistan SSR-dən yaz köçürmə planını və həmin il avqustun 25-də isə payız köçürmə planını təsdiq edən iki qərar qəbul edir. Birinci qərarla yazda 1672 təsərrüfatın (6510 nəfərin), payızda isə 1747 təsərrüfatın (7851 nəfərin) köçürülməsi planlaşdırılırdı.

1950-ci ildə köçürmə ilə əlaqədar respublika təşkilatları qarşısında duran başlıca vəzifə köçürülənlər üçün yeni evlər tikmək işinin təşkili idi.

Sənədlərdən göründüyü kimi, 1950-ci il köçürmənin ən ağır ili olmuşdur. Köçürülənləri yerləşdirmək üçün yaşayış evləri yox idi. Azərbaycan Köçürmə Tikinti Tresti və onun rayonlardakı kontorları bu işin öhdəsindən gələ bilmirdi.

Məsələn, həmin ilin yanvarında Qaradonludan alınmış teleqramda göstərilirdi ki, 3-cü sutkadır ki, 11 köçkün vaqonu boşalmır. Həmin ilin noyabrında Ucardan alınmış digər teleqramda deyilirdi ki, Zərdab rayonuna köçürülmək üçün Ucar stansiyasına gəlmiş 52 ailə bir aydan artıqdır ki, açıq səma altında gecələyir, vəziyyət çox ağırdır. Köçürülənlərin bir qismi Udanov (Beyləqan) rayonunda yerləşdirilmələrini xahiş edirdilər. Çünki onların qohum-əqrəbaları, həmyerliləri əvvəllər bu rayona köçürülmüşdü. Göründüyü kimi, Ermənistanın bir kəndindən gələnlər müxtəlif rayonlara, kəndlərə, kolxoz və sovxozlara paylanırdılar. Bu da onların

haqlı narazılığına səbəb olurdu. Onlar müxtəlif kolxozlara səpələnir, gətirdikləri ictimai əmlak və mal-qara isə bu və ya digər kolxozda qalırdı.

1950-ci ildə köçürülənlər üçün 3500 ev tikmək planlaşdırılmış, faktiki isə 470 ev tikilmiş, plan 13,4 faiz yerinə yetirilmişdi. 1488 köçkün ailəsi həyətyanı təsərrüfat sahəsi ilə təmin olunmamışdı. 1950-ci ildə köçürülənlər üçün ev tikmək və mal-qara almaq məqsədilə ayrılmış 19 milyon manat kreditin yalnız 13,9 milyon manatı (73 faizi) xərclənmişdi.

...1950-ci ilin noyabrında Ermənistan SSR-in Zəngiba- sar rayonu Rəhimabad kəndindəki "Azad" kolxozundan Azərbaycan SSR-in Ağcabədi rayonunun Molotov adına kolxozuna köçürülmüş Əmir İsmayılov 1951-ci il avqustun əvvələrində yenidən öz doğma kəndinə qayıdır. Avqustun 13-də isə Yerevandan Moskvaya İ.Stalinin adına aşağıdakı məzmunda teleqram göndərir: "Əziz atamız Stalin! Sizə məlum edirəm ki, bizi 1950-ci ildə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürdülər. Yenə də geriyə - Ermənistana qayıtmalı olduq. O səbəbə ki, Azərbaycanda bizim yaşayışımız üçün şərait yoxdur. Azərbaycanın iqlim şəraiti bizə uyğun deyil. Uşaqlarımız orada tələf oldu, özümüz isə bu günə qədər də xəstəyik. Əziz ata! Sizdən xahiş edirik ki, bizə imkan verəsiniz, yenə də Ermənistan SSR-də yaşayaq".

Xalqın müsibətlərinin əsl səbəbkarının adına göndərilmiş bu teleqramın surəti Moskvadan Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin adına göndərilərək, xəbər verilirdi ki, SSRİ Nazirlər Sovetinin tapşırığı ilə Baş Köçürmə İdarəsinin inspektoru V.Nesteroviç həmin ərazini

yerində yoxlamaq məqsədilə Azərbaycana gəlib Ağcabədi rayonunda olacaq, oradan isə Ermənistan SSR-in Zəngibasar rayonuna gedəcək. Ona hərtərəfli köməklik göstərilməsi tapşırılırdı.

Sənədlərdən görünür ki, V.Nesteroviç Azərbaycan və Ermənistan köçürmə idarələrinin nümayəndələri ilə birlikdə yuxarıda göstərilən rayonlarda olmuşdur. Lakin həmin yoxlamanın nəticələri barədəki sənədlərə arxivdə rast gəlmədik.

1951-ci ildə SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsi özünün kollegiya iclaslarında üç dəfə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi vəziyyətini müzakirə etmişdir. Hər dəfə də köçürmə işinin qeyri-qənaətbəxş getdiyi qeyd olunmuşdur. Köçürmə idarəsi kollegiyasının 31 yanvar 1951-ci il tarixli qərarında qeyd olunurdu ki, 1948-1950-ci illərdə Ermənistan SSR-dən köçürülmüş 8110 ailədən 4878-i yaşayış evləri ilə təmin olunmamışdır.

Həmin il aprelin 28-də və avqustun 28-də bu məsələ yenə də SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsində müzakirə olunur və köçürmə işinin yarıtmaz vəziyyəti ilə bağlı SSRİ Nazirlər Sovetinə məlumat vermək haqqında qərar qəbul edilir.

Görünür ki, Baş Köçürmə İdarəsinin 1951-ci ildə Azərbaycana köçürmə ilə əlaqədar məsələlərə belə maraq göstərməsi səbəbsiz deyildi. Həmin il Ermənistan SSR-dən Kür-Araz ovalığına köçürülmüş azərbaycanlı əhali arasında geri qayıtma hallarına təsadüf edilirdi. Ermənistan SSR-dən azərbaycanlılar ictimai təsərrüfatları qoyaraq, özbaşına Azərbaycana köçərkən Ermənistan SSR rəhbərləri susur,

bir dəfə də olsun buna etirazlarını bildirmirdilər. Lakin Kür-Araz ovalığına köçürülmüş azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtması halları müşahidə edilən kimi, Ermənistan SSR rəhbərləri, necə deyərlər, əsl həyəcan təbili çalırdılar.1951-ci ilin may-iyun aylarında Ermənistan SSR Nazirlər Soveti, onun köçürmə idarəsi, rayon icraiyyə komitələri Açərbaycan SSR Naçirlər Sovetinə, SSRİ Naçirlər Soveti yanında Baş Köçürmə İdarəsinə məktub və teleqramlar göndərərək, geri qayıtma halları ilə əlaqədar böyük hay-küy kampaniyasına başlayırlar. Ermənistan SSR köçürmə idarəsinin rəisi mayın 27-də 360 ailənin, Ermənistan SSR Naçirlər Sovetinin sədri S.Karapetyan mayın 29-da 376 ailənin, Axta rayon İcraiyyə Komitəsinin sədri isə təkcə Axta rayonuna 117 ailənin qayıtdığını bildirirlər. Onları qorxudan başlıca məsələ - qayıdan ailələrin hələ köçürülməmiş ailələr arasında apardıqları təbliğat idi. S.Karapetyan öç teleqramında bildirirdi ki, **hökumət tərəfindən müəyyən olunmuş köçürmə qaydalarını pozduqları üçün gen qayıdanları Ermənistan qəbul edə bilməz.**

Ermənistan SSR tərəfindən qayıtma ilə əlaqədar qaldırılmış bu qalmaqal nəticəsində Azərbaycan rəhbərliyi Açərbaycan SSR Köçürmə İdarəsindən geri qayıdanlar haqqında arayış tələb edir. Arayışda göstərilirdi ki, Ermənistana qayıdan ailələrin sayı S.Karapetyanın teleqramında göstərildiyi kimi, 376 deyil, cəmi 215-dir. Qeyd edilirdi ki, 1948-1950-ci illərdə Ermənistan SSR-dən cəmi 8018 təsərrüfat (34382 nəfər) köçürülmüşdür. Ermənistan SSR-in aran rayonlarından Kür-Araz ovalığına köçürülmüş açərbaycanlılar buranın kolxoç və sovxoçlarında vicdanla işləyirlər. Ermənistanın Axta, Basarkeçər, Qarabağlar kimi, dağ rayonlarından

köçürülmüş əhali isə dəfələrlə Kür-Araç düçənliyinin iqliminin onlara düşmədiyindən şikayətlənir, Azərbaycanın dağ rayonlarına köçməyə icazə verilməsini xahiş edirlər. Lakin SSR Nazirlər Sovetinin qərarında yalnız Kür-Araz ovalığına köçürmək nəzərdə tutulduğu üçün onların tələbləri yerinə yetirilmir. Arayışda göstərilirdi ki, əgər Azərbaycanın dağ rayonlarına köçməyə icazə verilərsə, onda onları bir neçə günün içərisində Azərbaycana qaytarmaq olar. Lakin onların qeyri-qanuni tələbi ***(görəsən, niyə zorla köçürmə qanuni olurdu, lakin onların dağ rayonlarına köçürmələrini tələb etmələri qeyri-qanuni - A.P.)*** yerinə yetirilərsə, bu, gələcəkdə köçürmə işinə mənfi təsir göstərə bilər. Çünki Azərbaycana köçürülmək üçün əsasən dağ rayonlarının əhalisi qalıb. Əgər indikilərə güzəştə gedilsə, onlar da dağ rayonlarına köçürülmələrini tələb edə bilərlər.

S.Karape1yanın 29 may tarixli teleqramı ilə əlaqədar olaraq, Azərbaycan SSR Nazirlər Soveti həmin il iyunun 7-də xüsusi qərar qəbul edir. Bu məsələnin Nazirlər Sovetində müzakirəsi zamanı azərbaycanlıların geri qaytarılması əsl faciə kimi qarşılanır. Bütün günahlar Azərbaycan Köçürmə İdarəsi rəhbərlərinin üzərinə qoyulur, bu hadisəyə siyasi qiymət verilərək, onlar siyasi kütlükdə ittiham olunurlar.

Respublika Nazirlər Sovetinin qərarı ilə N.Allahverdiyevin rəhbərliyi altında Azərbaycan SSR Köçürmə İdarəsinin işçiləri həmin ilin iyun-iyul aylarında Ermənistana gedib, orada yerli rayon icraiyyə komitələri ilə birlikdə geri qayıdanların siyahısını dəqiqləşdirirlər. Müəyyən olunur ki, 1951-ci il iyunun 1-nə qədər 376 təsərrüfat deyil, cəmi 217 təsərrüfat (872 nəfər) geri qayıtmışdır. Köçürmə

İdarəsi işçilərinin respublika Nazirlər Sovetinə təqdim etdiyi arayışda göstərilirdi ki, S.Karapetyanın teleqramındakı rəqəmlərə köçürmə zamanı, həbsdə, ordu sıralarında olmuş, düzgün olmayaraq, köçürmə siyahısına salınmış adamlar da daxildir. Arayışda göstərilirdi ki, təkcə onların yoxladıqları rayonlarda 1948-1950-ci illərdə 1000 təsərrüfatdan yuxarı azərbaycanlı ailəsi ictimai əmlakına toxunmadan Ermənistan SSR-ni tərk etmiş, Azərbaycanın müxtəlif rayonlarına köçmüşlər.

Əvvəlki illərdə olduğu kimi, 1951-ci ildə də köçürmə məsələsi Azərbaycan SSR Nazirlər Sovetinin diqqət mərkəzində olmuşdur. **Həmin il oktyabrın 11-də Nazirlər Soveti "Ermənistan SSR-dən köçürülənlənn təsərrüfat cəhətdən yerləşdirilməsi və 1951-ci il payız köçürmə planının yerinə yetirilməsinin gedişi haqqında" qərar qəbul etmişdir.** Qərarda göstərilirdi ki, 1951-ci ilin 9 ayı ərzində 3400 yeni ev tikilərək köçürülənlərə təhvil verilməli idi. Lakin cəmi 2231 ev tikilmiş, tikinti planı 65,7 faiz yerinə yetirilmişdi.

1951-ci ildə cəmi 1500 təsərrüfatın Ermənistan SSR-dən Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi planlaşdırılmışdı. Köçürülməsi nəzərdə tutulan 400 ailə - Yerevandan olan müəllimlər, müxtəlif idarə işçiləri, redaksiya əməkdaşları, həkimlər, evdar qadınlar və başqaları idi. Onların ixtisaslarına uyğun Kür-Araz ovalığının pambıqçılıq rayonlarında iş olmadığı üçün Ermənistan SSR Köçürmə İdarəsi 1951-ci il köçürmə planından 400 təsərrüfatı çıxaraq 1100 təsərrüfatı köçürməyi təklif edir. 1951-ci ilin yazında 300 ailənin köçürülməsi planlaşdırılmış, əslində isə, 311 ailə köçürülərək, plan 103,6 faiz yerinə yetirilmişdi.

1952-ci il yanvarın 17-də Azərbaycan SSR Nazirlər Soveti "1952-ci ildə Azərbaycan SSR-ə köçürmə planı və kö- çürülənlər üçün yaşayış evlərinin hazırlanması haqqında" qərar qəbul edir. Qərarda göstərilirdi ki, 1951-ci il köçürülməsi üçün yaşayış evlərinin tikilməsi işi qeyri-qənaətbəxş şəkildə aparılmışdır. Planda 1100 təsərrüfatın köçürülməsi nəzərdə tutulmuş, əslində isə, 909 təsərrüfat köçürülmüş, köçürmə planı 82,6 faiz yerinə yetirilmişdir. 1951-ci il planında 5000 yaşayış evinin tikintisi planlaşdırılmış, əslində isə, 3704 ev tikilib istifadəyə verilmiş, plan 74, % yerinə yetirilmişdi.

Qərarda 1952-ci ildə Kür-Araz ovalığına 1200 təsərrüfatın köçürülməsi planlaşdırılırdı. Həmin ildə köçürülənlər üçün 2500 yaşayış evi tikmək nəzərdə tutulurdu.

Əlbəttə, illər keçdikcə köçürmə idarəsinin köçürmənin təşkili ilə əlaqədar təcrübəsi də artırdı. Köçürülənlər üçün tikilən evlərin sayı çoxalır, yeni qəsəbələr salınır, kəndlərin görkəmi dəyişirdi. Bununla yanaşı, köçürülənlər üçün hələ də lazımi şərait yaradılmamışdı. İçməli su, mənzil-məişət, səhiyyə və mədəni xidmətin səviyyəsi olduqca aşağı idi.

Ermənistan SSR-in Vedi rayonu Qoşaqovaq kəndinə köçürülmüş 24 ailə adından İzzət Əliyev, İbrahim Allahverdiyev, Cavad Cavadov, Yolçu Əliyev və başqalarının 1953-cü il aprelin 3-də Azərbaycan SSR Nazirlər Sovetinə yazdıqları ərizədə açıqlanır: **"Biz 1952-ci ilin oktyabrında Ermənistan SSR-nin Vedi rayonundan köçüb Ağdaş rayonuna gəlmişik. Yeni köçüb gəlmiş 24 ailəni yararsız, təmirə ehtiyacı olan darısqal binalarda yerləşdirmişlər. Gələrkən bizə yazda 1953-cü ilin yazında yeni yaşayış binalarının tikiləcəyini vəd etdikləri halda, hələ də biz**

ev sahibləri ilə gündə qalmaqal salmaqla həmin evlərdə yaşayırıq. Ev sahibləri bizə verilən evlərdən tezliklə çıxmağı tələb edirlər. 15-16 kvadrat metr sahəsi olan evdə 10-12 nəfər qalırıq... Rayon rəhbərləri yeni köçüb gələn kolxozçuların kənddən çıxıb getməsinə çalışırlar".

1952-ci ildə Ermənistan SSR-dən köçürmə planı 124,6% yerinə yetirilir. Köçürülənlər üçün evlər tikilməsi planı isə 80,6% ödənilir.

1953-cü ildə Stalinin ölümündən sonra Ermənistan SSR-dən Kür-Araz ovalığına köçürmənin sürəti azalır. Bundan sonra isə əks proses gedir. Azərbaycana köçürülmüş əhali geri qayıtmağa başlayır. Bu proses 1954-cü ildə daha da sürətlənir. Ermənistan SSR rəhbərləri buna qəti etirazlarını bildirirlər. 1954-cü ilin aprelində Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirinin nümayəndə heyəti - başda nazir müavini Möhsün Poladov olmaqla Ermənistan SSR-in azərbaycanlılar yaşayan rayonlarını gəzir, onların geri qayıtmaması səbəblərini araşdırırlar. Onlar öz məlumatlarında göstərirdilər ki, geri qayıtmağın başlıca səbəbi Kür-Araz ovalığında köçürülənlər üçün lazımi şəraitin olmaması, Ermənistanın dağ rayonlarından köçürülən azərbaycanlıların bu yerlərin iqliminə uyğunlaşa bilməməsidir. Onların məlumatına görə, 1954-cü ilin aprelinə qədər 1155 təsərrüfat geriyə, özlərinin əvvəlki yerlərinə qayıtmışlar.

Arayışda geriyə qayıtmanın qarşısını almaq üçün konkret təkliflər də irəli sürülürdü. Bu təkliflər sırasında Azərbaycan SSR-nin Kür-Araz ovalığında onlar üçün əlverişli şərait yaradılması, Ermənistan SSR-ə dönənləri orada yenidən məskunlaşmağa qoymamaq, özləri üçün yeni evlər

tikməyə, həyətyanı təsərrüfat yaratmağa icazə verməmək və sairə təklif olunurdu.

1954-cü ilin mayında və sentyabrında azərbaycanlı əhalinin köçürüldüyü rayonların icraiyyə komitələrinin sədrlərinə və rayon partiya komitələri katiblərinə respublika partiya və hökumət rəhbərlərinin imzası ilə göndərilmiş məktubda həmin rayonlara köçürülənlərin Azərbaycan SSR-in başqa rayonlarına getməsinin və Ermənistan SSR-ə qayıtmasının tezliklə qarşısını almaq tapşırılırdı. Məktubda göstərilirdi ki, bu günə qədər Kür-Araz ovalığına köçürülmüş ailələrdən 1000-dən çoxu özləri üçün yaşayış evi ala bilməmiş, hələ də yerli kolxozçuların evlərində yaşayırlar. Bərdə rayonunun Malenkov adına kolxozunda isə onlar yeraltı dəyələrdə daldalanırlar. Məktubda deyilirdi ki, onlar üçün mənzil-məişət şəraiti yaradılmalı, içməli su ilə təmin olunmalı, köçürülənlərə səhiyyə xidməti kökündən yaxşılaşdırılmalı, Kür-Araz ovalığına kösürülənlərin dəqiq siyahısı tərtib edilməlidir.

Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirinin 1954-cü il oktyabrın 14-də Azərbaycan KP MK-ya və respublika Nazirlər Sovetinə yazdığı məktubunda götərilirdi ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən respublikanın Kür-Araz ovalığına 11,914 təsərrüfat /53.000 nəfər/ köçürülmüşdür.

Azərbaycana köçürülənlərin sayı ilə əlaqədar bir məsələyə də xüsusi diqqət yetirmək lazımdır. Sənədlərdən aydın olur ki, həmin illərdə rəsmi köçürmə ilə yanaşı, köçürülən yerlərə getmək istəyənlər, yaxud Ermənistanda yaradılmış dözülməz şəraitdən, təhqirlərdən canını qurtarıb Azərbaycana pənah gətirənlər də az olmamışdır. Onlar kütləvi surətdə Azərbaycanın müxtəlif rayonlarına, əsasən isə Ermənistanla sərhəd olan Gədəbəy, Tovuz, Şəmkir,

Zəngilan və b. rayonlarına köçmüşlər. Ermənistanda məharətlə pərdələnmiş təhqirlərdən baş götürüb qaçanları Azərbaycanda da gülərüzlə qarşılamırdılar. Sənədlər bu faktı açıq-aşkar sübut edir. "Kommunist beynəlmiləlçiliyi" mövqeyində sədaqətlə dayanan respublika rəhbərliyi onları incitmiş, qayıtmaq istəyənlərə mane olmuş və onları yalnız SSR Nazirlər Sovetinin qərarında nəzərdə tutulan Kür-Araz ovalığı rayonlarına getməyə məcbur etmişlər.

Sənədlərdən göründüyü kimi, planlı surətdə Kür-Araz ovalığının ilan mələyən düzlərinə köçürülməkdən vahiməyə düşən bir çox azərbaycanlı ailələri tezliklə Ermənistan SSR ərazisini tərk edib, Azərbaycanın digər rayonlarına pənah gətirirdilər. Ermənistan SSR Basarkeçər rayonu Zod kəndinin sakini Balahacıyev 1948-ci ilin fevralında Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin qəbulunda olmuş və öz kəndliləri adından xahiş etmişdir ki, 100 ailənin Azərbaycanın Xanlar rayonuna köçməsinə icazə versin. Onların xahişi yerinə yetirilmiş və həmin 100 ailə Xanlar rayonuna köçürülmüşdür.

Sonrakı illərdə də azərbaycanlıların Ermənistan SSR ərazisindən Azərbaycanın ayrı-ayrı rayonlarına özbaşına köçməsi davam etmişdir. 1949-cu ilin aprelində Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan SSR Ali Sovetinin deputatı, hərbi qulluqçu, əslən Ermənistan SSR-in Kirovakan rayonunun Gözəldərə kəndindən olan Xıdır Mustafayev respublika Nazirlər Sovetinə göndərdiyi məktubunda yazırdı ki, köçürmə idarəsinin razılığı ilə anasını və qardaşlarını Xanlar rayonuna köçürmək istəmişdir. Rəsmi razılıq olmasına baxmayaraq, Xanlar Rayon İcraiyyə Komitəsinin sədri Atanesov (milliyyətcə erməni) Xanlar şəhərində xeyli boş

mənzil ola-ola onlara zirzəmiləri və yararsız daxmaları təklif etmişdir. X.Mustafayev isə öz məktubunda xahiş etmişdir ki, onun ailəsinə yararlı mənzil verilsin.

Həmin il aprelin 27-də Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin katibi Y.Yusifov Azərbaycan K(b)P Mərkəzi Komitəsinə məktubla birgə Ermənistan SSR Zəngibasar rayonu Elyas kəndindən kolxozçuların ümumi iclasının protokolunu da göndərir. Məktubda qeyd olunur ki, 220 nəfər kolxoz üzvünün iştirakı ilə keçən iclas Naxçıvan MSSR rəhbər orqanlarına üz tutub bu kolxoza daxil olan 150 təsərrüfatı Naxçıvan Muxtar Respublikasında yerləşdirməyi xahiş edir. Kolxozçuların qəbul etdikləri qərarda deyilirdi: **"Kolxozumuz varlı kolxozdur. Belə bir kolxozu kəndlərə daşımaq yaxşı deyil. Bütün kolxozun bir yerə köçməsi təsərrüfatımızın iqtidarını pozmaz... Noraşen rayonunun iqlim və suyu da bizə düşür. Orada tezliklə əkin əkə bilərik. Qoşqu qüvvəmiz və toxumumuz var. Naxçıvan MSSR Ali Sovetindən və Nazirlər Kabinetindən xahiş edilsin ki, bizim kolxozun üzvlərinin Noraşen rayonunun Şəngiley və Dərəkənd kəndlərinə köçməsinə icazə versinlər".**

Y.Yusifov AK BP MK-dan xahiş edirdi ki, həmin təsərrüfatların və əlavə 150 təsərrüfatın da (cəmi 300 təsərrüfat) Noraşen rayonunda qəbuluna icazə verilsin.

1949-cu ilin sentyabrında Sisyan rayonunun Şəki kəndinin kolxozçuları da Azərbaycan SSR Nazirlər Sovetinə göndərdikləri ərizədə onlara Naxçıvan MSSR-in Şahbuz rayonuna köçməyə icazə verilməsini xahiş edirlər. Elə həmin vaxt Ermənistan SSR Axta rayonu S.Ağamalıoğlu adına kolxozun üzvləri də respublika Nazirlər Sovetindən Azər-

baycan SSR-ə köçməyə icazə verməsini xahiş edirlər. Bu ərizələrə cavab olaraq Respublika Köçürmə İdarəsi bildirir ki, Şahbuz rayonu Kür-Araz ovalığına daxil olmadığı üçün Şəki kəndinin sakinləri oraya dövlət tərəfindən mütəşəkkil şəkildə köçürülə bilməzlər. Axta rayonu Ağamalıoğlu kolxozunun sakinlərinin isə Kür-Araz ovalığında istədikləri yerə köçürmək imkanı var.

1948-ci ildə Kür-Araz ovalığına daxil olmayan Gədəbəy, Qazax, Şamxor, Səfərəliyev, Gəncə, Xanlar, Quba, Dəstəfur, Bakının Maştağa və Əzizbəyov rayonlarına köçürülmüş əhali üçün SSR Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarında nəzərdə tutulan güzəştli şərtlərdən istifadə haqqında Azərbaycan SSR Nazirlər Sovetinin xahişinə baxmayaraq, İttifaq hökuməti razılıq verməmişdir. Bu da həmin rayonlara köçürülmüş əhalinin həyat şəraitini daha dözülməz etmişdir. Lakin buna baxmayaraq, onlar Kür-Araz Ovalığının ilanmələyən düzlərinə getməmişlər.

Ermənistan SSR-dən köçürülən azərbaycanlı əhalinin Kür-Araz ovalığına deyil, Azərbaycanın digər rayonlarına kütləvi surətdə özbaşına köçməsinin qarşısını almaq məqsədilə 1950-ci ilin martında Azərbaycan SSR Nazirlər Sovetinin sədri və Azərbaycan KP MK katibinin imzası ilə rayon icraiyyə komitələri sədrlərinə və rayon partiya komitələri katiblərinə xüsusi məktub göndərilir. Məktubda göstərilirdi ki, Qazax, Tovuz, Ağstafa, Şamxor, Gədəbəy, Xanlar, Dəstəfur, Mirbəşir, Bərdə, Ağdam və başqa rayonların rəhbərləri Ermənistan SSR-dən özbaşına gələn azərbaycanlı əhalini qəbul edirlər. Bu isə Ermənistan SSR-dən köçürülən əhalinin işçi qüvvəsini lazımi rayonlarda yerləşdirməyə imkan vermir. Məktubda Ermənistan SSR-dən

özbaşına gələn azərbaycanlıların Kür-Araz ovalığına daxil olmayan rayonlarda qəbulunu dayandırmaq tələb olunurdu.

Köçürmə İdarəsinin məlumatında göstərilirdi ki, tam olmayan məlumata görə, 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycana özbaşına 4396 nəfəri birləşdirən 856 ailə köçmüşdür. 1949-cu ildə Şamxor rayonuna 215 təsərrüfat (1173 nəfər), Gədəbəyə 77 təsərrüfat (427 nəfər), Qazaxa 86 təsərrüfat (425 nəfər) və s. köçmüşdür. Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycana kütləvi şəkildə köçməsi halları sonrakı illərdə də davam etmişdir. Köçürmə İdarəsinin məlumatlarının birində göstərilir ki, nümayəndələrin gəzdiyi bir neçə rayondan təkcə 1948-1950-ci illərdə mindən yuxarı ailə özbaşına Azərbaycana köçmüşdür. Bütün bunlar nəzərə alınarsa, şübhəsizdir ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən 100 min nəfərdən yuxarı azərbaycanlı köçürülmüş və köməyə məcbur olmuşdur.

Köçürmə ilə əlaqədar bir məsələnin üzərində xüsusi dayanmaq vacibdir. Dağlıq Qarabağ hadisələri ilə əlaqədar daşnak liderləri dəridən-qabıqdan çıxaraq sübut etməyə çalışırlar ki, guya Dağlıq Qarabağda ermənilər sıxışdırılmış, incidilmişlər. Tarixi sənədlər isə bunun tam əksini sübut edir. Əgər o zaman Ermənistan SSR-in dağlıq rayonlarından köçürülən azərbaycanlı əhali təbii şəraiti gəldikləri rayonların təbii şəraitinə uyğun olan Dağlıq Qarabağda yerləşdirilsəydilər, bu, nisbətən insaflı və ədalətli olardı. Lakin belə olmadı. Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə idarəsinin nümayəndəsi Əbdürrəhmanov, DQMV icraiyyə Komitəsi sədrinin müavini Kərimov, Vilayət Daxili işlər idarəsi rəisinin müavini Venediktov və Vilayət Partiya Komitə-

si kənd təsərrüfatı şöbəsi müdirinin müavini Süleymanyanın iştirakı ilə Ermənistan SSR-dən DQMV Martuni rayonuna köçürülmüş azərbaycanlı əhalinin yerləşdirilməsi haqqında 1949-cu il yanvarın 15-də aparılmış yoxlamadan sonra Stepanakertdə tərtib olunmuş arayışda göstərilirdi ki, 1948-ci ilin avqustunda Ermənistan SSR-dən DQMV-nin Martuni rayonuna 131 təsərrüfat (570 nəfər) gəlmişdir. Onlardan 86 təsərrüfat (355 nəfər) Qişi, 17 təsərrüfat (82 nəfər) Güney-Çartaz və 25 təsərrüfat (120 nəfər) Xunuşnak kəndlərində yerləşdirilmişlər. Göstərilirdi ki, köçürülənlər üçün son dərəcə dözülməz şərait yaradılıb. Martuni rayon Xalq Maarif şöbəsinin müdiri Ulubabyan "gəlmə" azərbaycanlılara həqarətlə baxır, onların uşaqlarının təhsilə cəlb olunması üçün heç bir tədbir görmür, hətta buna mane olurdu. Güney-Çartaz kəndində heç bir səbəb olmadan azərbaycanlı müəlliməni Azərbaycan dili dərsi deməkdən kənar edərək, bu işi müvafiq ixtisası olmayan məktəb müdirinə tapşırır. Xunuşnak kəndinə köçürülmüş uşaqlar həmin kənddə Azərbaycan qrupu olmadığı üçün qarlı-şaxtalı günlərdə Qişi kəndinə gedib-gəlməyə məcbur olurlar. Köçürülənlərin əksəriyyəti işlə və həyətyanı torpaq sahələri ilə təmin edilmirlər. Çoxuşaqlı ailələrin vəziyyəti xüsusilə dözülməz idi. Arayışda göstərilirdi ki, Ermənistandan gələnlər, əsasən uçuq daxmalarda yerləşdirilmişlər. Onlara ev tikmək üçün ayrılan tikinti materialları Horadiz stansiyasında yatıb qalır. Rayon rəhbərliyi, rayon İcraiyyə Komitəsinin sədri Əmirxanyan, rayon Partiya Komitəsinin katibi Baxşıyan köçürülənlərin şikayətlərinə etinasız yanaşır, onlann həyat

şəraitini yaxşılaşdırmaq üçün heç bir tədbir görmürlər.

Lakin bu yoxlamaların da heç bir xeyri olmur. Köçkünlər respublika hökumətinə müraciət etməyə məcbur olurlar.

1949-cu il may ayının 27-də Azərbaycan SSR Köçürmə İdarəsinin rəisi N.Allahverdiyev Respublika Nazirlər Sovetinin sədr müavini İ.K.Abdullayevə yazdığı məlumatında bildirirdi ki, sizin göstərişinizlə 1948-ci ilin avqustunda DQMV Martuni rayonunun Qişi və Xunuşnak kəndlərinə Ermənistan SSR-dən köçürülmüş azərbaycanlı əhalinin vəziyyətini vilayət təşkilatları ilə birlikdə həll etmək üçün Stepanakertə getdim. Martuni rayonuna köçürülmüş əhali çox acınacaqlı vəziyyətdə yaşayır. Onlar Martuni rayonunun Qişi və Xunuşnak kəndlərində qalmağa qəti etiraz edirlər. Çünki bu kəndlərdə daimi məskən salmaq və həyətyanı təsərrüfat yaratmaq üçün heç bir imkan yoxdur. N.Allahverdiyev göstərirdi ki, köçürülənlərin yaşayışı ilə tanış olduqdan sonra onların tələblərinin tamamilə haqlı olduğunu aşkar etdim. Köçkünlər üçün həyətyanı sahələr ayırmağa belə həmin kəndlərdəki kolxozların heç bir imkanı və torpaq fondu yoxdur. Məlumatda deyilirdi ki, Martuni rayonu Kür-Araz ovalığına daxil deyil. Mardakert rayonu isə Kür-Araz ovalığına daxildir və orada gələnlərin həyətyanı təsərrüfat sahəsi yaratması üçün kifayət qədər torpaq fondu var. Məktubda təklif olunurdu ki, həmin ailələr Mardakert rayonu ərazisinə köçürülsünlər.

Təəssüf ki, bu təkliflər ancaq kağız üzərində qalmış, nəticədə, Martuni rayonuna köçürülmüş azərbaycanlı əhali oradan qaçıb dağılmağa məcbur olmuşdu. Təbii ki, vahid mərkəzdən idarə olunan vilayət rəhbərləri Ermənistandan köçürülən azərbaycanlıların Dağlıq Qarabağda məskunlaş-

masına heç cür yol verə bilməzdilər. **Nə yazıq ki, Azərbaycanda da köçürmə işinin əsas icraçıları məhz ermənilər idi. imza edənin vəzifəsindən asılı olmayaraq, bütün sənədləşməni ermənilər aparırdılar. Şübhə yoxdur ki, Azərbaycan SSR Nazirlər Sovetində köçürmə məsələlərinin əsas icraçıları olan brutenslər, sevumyanlar Dağlıq Qarabağ rəhbərləri ilə birgə əvvəlcədən azərbaycanlıların elə yerlərə köçürülməsini planlaşdırmışdılar ki, orada yaşayış üçün heç bir şərait yox idi və azərbaycanlı əhali özü gec-tez qaçmağa məcbur olacaqdı... Təəssüf ki, azərbaycanlı rəhbərlər bu qədər uzaqgörən ola bilməmiş, yaxud olmaq istəməmişdilər...**

Nəticədə, 1949-1953-cü illərdə Ermənistan SSR-dən köçürülən bir nəfər də azərbaycanlı Dağlıq Qarabağ ərazisinə buraxılmamış, əksinə, "daxili köçürmə" adı ilə 1949-cu ildə Dağlıq Qarabağdan 132 (549 nəfər) azərbaycanlı ailəsi Azərbaycan SSR-in Xanlar rayonuna köçürülmüşdür... Beləliklə də, "Böyük Ermənistan" üçün ərazilər boşaldılması işi planlı surətlə davam etdirilmişdir.

Arxivdə saxlanılan bir tarixi sənəd qatı millətçilərin - Ermənistan rəhbərlərinin iç üzünü açıb ifşa edir. Bu,

1954-cü ilin aprelində Azərbaycan SSR kənd təsərrüfatı nazirinin müavini Möhsün Poladovun Ermənistan SSR-ə ezamiyyətdən sonra respublika Nazirlər Sovetinə yazdığı məlumatdır. 1949-cu ildə Ermənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyanın qanunsuz göstərişi ilə Ləmbəli kəndindəki azərbaycanlılar yaşayan kolxoz ləğv olunur. Çox əlverişli təbii şəraiti olan bu kənddə subtropik bitkilər sovxozu yaratmaq bəhanəsi

ilə oradakı 225 azərbaycanlı ailəsi zorla qovulur. S.Karapetyandan soruşan olmur ki, məgər azərbaycanlılar sovxozda işləyə bilməzlər? Nə üçün oraya hökmən ermənilər gəlməlidir? 1949-cu il dekabrın qarlı-şaxtalı qışında Ləmbəlidən qovulmuş azərbaycanlılar Gürcüstan SSR-in azərbaycanlılar yaşayan kəndlərinə pənah gətirirlər. Lakin burada da gürcülər onları dinc buraxmır. Bir neçə gün sonra Gürcüstan SSR yerli hakimiyyət orqanlarının göstərişi ilə ləmbəlilər Gürcüstan ərazisindən çıxarılırlar. Onlar geriyə, öz yerlərinə qayıtmağa məcbur olurlar. Lakin bu dəfə S.Karapetyanın göstərişi ilə onlar öz yurdları Ləmbəliyə buraxılmayaraq, Basarkeçər rayonuna göndərilirlər.

Ləmbəlilərin evlən isə bura köçürülən erməni ailələri arasında paylanır. XX əsrdə azərbaycanlı əhaliyə qarşı görünməmiş vəhşiliklər törədən erməni millətçiləri Ləmbəlidəki azərbaycanlı qəbiristanlıqlarını da dağıdaraq, oranın daşlarından yeni binaların tikintisində istifadə edirlər.

Azərbaycan SSR rəhbərliyindən heç bir kömək görməyən ləmbəlilər ölüm-dirim mübarizəsinə girişərək, öz torpaqlarına dönmək istəyirlər. Onlar Basarkeçərdən geri qayıdaraq Ermənistanla Gürcüstan sərhədində, Ləmbəliyə yaxın bir yerdə özlərinə yeraltı dəyələr tikərək yaşayırlar. 1954-cü ilin əvvəllərinə qədər onlar beləcə məşəqqətli ömür sürür, amma zorakılığa tabe olmurlar. Stalinin ölümündən sonra ləmbəlilər Moskvaya, SSRİ Nazirlər Sovetinin yeni sədri G.M.Malekova dalbadal məktub, ərizə və teleqramlarla müraciət edərək, zorla əllərindən alınmış evlərinin geri qaytarılmasını tələb

edirlər. Ləmbəlilənn belə mərd mübarizəsi qarşısında Ermənistan rəhbərləri və yerli hakimiyyət orqanlarının nümayəndələri güzəştə getməyə məcbur olurlar. Lakin yenə də bicliyə əl atırlar. Ləmbəlilərə sovxozun tikdirdiyi binalarda yaşamağı və sovxozda fəhlə işləməyi təklif edirlər. Ləmbəlilərsə bu təklifi qəti rədd edir və öz evlərini qaytarmağı tələb edirlər. SSRİ Nazirlər Sovetinin göstərişi ilə SSRİ Kənd Təsərrüfatı Nazirliyi Baş Köçürmə İdarəsi rəisinin müavini başda olmaqla xüsusi komissiya yerdə vəziyyətlə tanış olmaq üçün Ləmbəliyə gəlir. Ətraflı yoxlamadan sonra onların qaldırdıqları bütün məsələlər faktlarla təsdiqlənir. Komissiya ləmbəlilərin tələblərini haqlı sayır. Komissiya Ermənistan SSR rəhbərliyinin qanunsuzluqlara yol verməsi barədə Ermənistan KPMK-nın birinci katibi Totosyana məlumat verir. Fakt qarşısında qalan Tovmasyan və Ermənistan KPMK "Ləmbəlidə evlərin keçmiş sahiblərinə qaytarılması və onların sovxozda işə qəbul edilməsi barədə" qərar qəbul etməyə məcbur olur. Beləliklə, dörd ildən yuxarı gərgin mübarizə nəticəsində ləmbəlilər qalib gəlirlər.

"Kür-Araz ovalığı rayonlarını işçi qüvvəsi ilə təmin etmək" bəhanəsi altında Yerevanda yaşayan azərbaycanlılarla bərabər Azərbaycan dilində olan pedaqoji məktəb və onun 200 tələbəsi Xanlar rayonuna, Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölməsi isə Bakıya köçürüldü. Azərbaycan Dövlət Pedaqoji İnstitutuna birləşdirildi. Onlarda dərs deyən müəllimlər ya Xanlara, ya da Bakıya köçürüldü. Ermənistan SSR-dəki Azərbaycan dilli tədris müəssisələri ya bağlanır, ya da Azərbaycana köçürülürdülər.

Ermənistandan azərbaycanlılar yüz bəhanələrlə sıxışdırılıb, təhqir edilib və alçaldılıb qovulduqları bir vaxtda Azərbaycanda erməni millətindən olan şəxslərin respublika həyatının bütün sahələrində geniş əl-qol açmaları üçün hər cür şərait yaradılmışdı. İllər boyu Azərbaycanda ermənilər bütün səviyyələrdən olan rəsmi hökumət və ictimai vəzifələrdə gen-bol təmsil olunmuşlar.

Çoxsaylı arxiv sənədlərindən görünür ki, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1918-1920-ci llərdə ermənilərin Bakı, Şamaxı, Quba, Zəngəzur, Qarabağ və başqa yerlərdə azərbaycanlıların başına açdıqları müsibətlər unudulmuş, ermənilər respublikada çox yüksək rəhbər mövqelər tutmuşlar. Uzun müddət onlar Azərbaycan KP Mərkəzi Komitəsi və Bakı Komitəsinin katibləri (hətta birinci katibləri), Azərbaycan SSR Mərkəzi icraiyyə Komitəsi, Ali Soveti, Xalq Komissarları Soveti, Nazirlər Sovetində müavin, şöbə müdirləri, nazir, komitə sədrləri, idarə rəhbərləri və başqa mühüm vəzifələrdə işləmişlər. Dövlət Təhlükəsizliyi Komitəsi və Daxili işlər Nazirliyində özlərinə isti yuva tapan ermənilər otuzuncu illərdəki repressiya zamanı və sonrakı illərdə azərbaycanlıların başına eşidilməmiş müsibətlər açmışlar. Azərbaycan xalq təsərrüfatının ən çox gəlirli sahələri - ticarət, tikinti, xalq istehlakı malları istehsalı və məişət xidməti sahələri demək olar ki, ermənilər tərəfindən zəbt olunmuşdu. Azərbaycanın gəlirlərinin çox hissəsi əyri yollarla ermənilərin cibinə axırdı. Azərbaycanda ən firavan yaşayanlar da ermənilər idi. Maraqlıdır ki, 1920-ci illərdən başlayaraq Yerevanda azərbay-

canlıların sayı get-gedə azaldıqca, Bakıda ermənilərin sayı durmadan artaraq 80-ci illərdə 220 minə çatmışdı. Dağlıq Qarabağ Vilayətindən Bakıya axan ermənilər (Dağlıq Qarabağda qeydiyyatda qalmaqla) burada qeyri-qanuni yolla torpaqlar zəbt edərək, bir sıra erməni məhəlləsi yaratmağa müvəffəq olmuşdular. iqtisadi və sosial təminat cəhətdən DQMV-nin erməni əhalisi həm Azərbaycanın, həm də Ermənistanın digər kənd rayonlarının əhalisinə nisbətən daha firavan yaşayırdılar. Lakin avantürist M.S.Qorbaçovun bədnam yenidənqurma siyasətindən öz məqsədləri üçün məharətlə istifadə edən Qarabağ ermənilər uzun illər Azərbaycan hökuməti tərəfindən onların iqtisadi və sosial təminat cəhətcə sıxışdırıldıqlarını bütün dünyaya bəyan etdilər. Əslində isə bundan Dağlıq Qarabağı Ermənistana qatmaq üçün bir vasitə kimi istifadə edildi. Nəticədə, 1988-ci ilin sonuna kimi Ermənistanda olan 200 mindən çox azərbaycanlı axırıncı nəfərinə qədər Ermənistandan qovuldu. 15 ildən artıq uzun bir zamandır ki, Azərbaycana qarşı işğalçılıq müharibəsi aparan Ermənistan onun 20 faizindən çoxunu işğal edib, bir milyondan çox əhalisini özündə məcburi qaçqına çevirib. Bütün bunlar onun nəticəsidir ki, sovet hakimiyyətinin ilk illərindən Azərbaycan rəhbərliyi tərəfindən ermənilərin bütün hərəkətlərinə göz yumulub, onların qarşısını almaq üçün heç bir ciddi tədbir görülməyib. Ermənistan SSR-də azərbaycanlılar sıxışdırılıb, təhqir olunub qovulduğu bir zamanda M.Şaginyanın sərrast ifadəsi ilə desək, Azərbaycanda yaşayan ermənilər "yağ içərisində böyrək kimi" bəslənilmişlər. Bu da Azərbaycan xalqının unutqanlığının, biganəliyinin və

proletar beynəlmiləlçiliyinə sonsuz sədaqətinin məntiqi nəticəsi idi.

Bu vaxta qədər gizli saxlanılmış arxiv sənədlərinin dili ilə 1948-1953-cü illərdə Azərbaycan türklərinin öz ulu, dədə-baba yurdlarından, ən qədim əsrlərdən Azərbaycan torpaqları olan, sovet imperiyası dövründə Ermənistan adlandırılan bir respublikadan Azərbaycanın Kür-Araz ovalığına məcburi köçürülməsi ilə bağlı həqiqətlərdən söz açılır. Stalinizmin bəhrəsi olan sosializm dövründə Azərbaycan xalqının başına gətirilən müsibətlərdən məlumat verilir.

Hitler demokratiyanı heç bir zaman qəbul etməyib və onu təkcə başqa millətlərdə deyil, elə Almaniyanın özündə də boğmağa çalışırdı. Buna baxmayaraq, Almaniya elə bu gün də demokratik qanunlarla yaşayır və onun vətəndaşları, deyəsən, heç Hitlerə qədərki hər hansı alman nəsilləri qədər də idarəçiliyin totalitarlaşması barədə düşünmürlər.

Hitlerin fəaliyyəti müasir dünyaya çox böyük təsir göstərmişdir, ancaq o, ölümlərindən əsirlər keçsə də təsirləri azalmayan Şixuandi, Sezar və Çingizxanla müqayisəyə gələ bilməz. Dünyanı Napoleon və Makedoniyalı İskəndər daha güclü lərzəyə gətirmiş, Hitler olsa-olsa, onlarla müqayisə oluna bilər. Deyildiyi kimi, Hitlerin ölümü barəsində müxtəlif şayiələr mövcuddur. Hətta bir neçə il əvvəl, onun, İkinci Äünya müharibəsi qurtarandan neçə onillik keçdikdən sonra o vaxtlardan sığınacaq tapdığı xarici ölkədə dünyasını dəyişdiyi barədə məlumatlar yayılmışdı, Hətta ölümü zamanı onun əslində qadın olduğunun aşkarlanması barəsində də şayiələr gəzdi. Ancaq məlumatların hələlik

həqiqətə ən yaxın olanı Hitlerin 30 aprel 1945-ci ildə Reyxin zirzəmisində intihar nəticəsində ölməsidir. Hələ ölümündən əvvəl o demişdi: **"Mən istəmirəm ki, meyitimi Moskvaya aparıb ümumxalq seyri üçün qoysunlar."** Lap, elə bil, məhz belə olacağı onun ürəyinə damıbmış.

Adolf Hitlerin meyiti təxminən 25 il müddətində 3-cü sovet qoşunları qruplaşmasının Almaniyanın Maqdebuq şəhəri yaxınlığında yerləşən Klauzekerştçassedə saxlanılırdı. Almaniyada nəşr olunan "Noye revyu" jurnalının 1970-ci ildə verdiyi məlumata görə, meyit xüsusi peçdə yandırılmış (kremasiya) və külü Elbanın qolu olan El çayında axıdılmışdır.

Aşkarlıq dövründə SSRİ ÄTK-sının arxivləri açılarkən Hitlerin meyiti barəsində sənədlərin toplandığı "Mif" kodlu 41-Ş/2-v/l N-li qovluq işıq üzü görmüşdür. Həmin qovluqdakı bəzi sənədləri diqqətə çatdırmaq istəyirəm.

1945-ci il mayın 7-də Berlindən Stalinin adına 9/1253 saylı bu məzmunda bir teleqram daxil olmuşdur:

"30.04. Berlin vaxtilə saat 15:50-də Hitler intihar etməklə həyatını sona çatdırmışdır."

Sovet ordusunun podpolkovniki Klimenko, mayor Bıstrov və Xazin Hitlerin meyitini "Fürerin bunkeri"nin ehtiyat çıxışından tapmışdılar. Ancaq meyit tapılarkən Hitlerin kəllə qapağı meyitin üstündə yox imiş. Qvardiya polkovniki Panasovun əmri ilə tanınma üçün meyit sovet ordusuna aid Berlin - Buns hərbi hospitalına göndərilmiş və onun həqiqətən də Hitlerin meyiti olduğu təsdiqlənmişdir. Potoloqanat Omlarun tərtib etdikləri protokolda belə qeydlər var: **"Meyit möhkəm yanmışdır və yanmış ət qoxusu verir. Ağız boşluğunda şüşə qırıqları vardır. Möhkəm**

yanmasına baxmayaraq, xayalıqda sol yumurtalıq aşkar olunmuşdur. Sol ayağının pəncəsi yoxdur."

Arxiv sənədlərindən məlum olur ki, Fürrerin meyiti üstündə NKVD *(Xalq Daxili İşlər Komissarlığı)* ilə "SMERŞ" arasında mübahisə yaranmışdır. Hər iki təşkilat bu qiymətli "hədiyyə"ni Stalinə birinci olaraq çatdırmaq istəyirdi.

Hələ döyüş əməliyyatları gedən vaxt "SMERŞ"in əməkdaşları Hitlerin meyitini hərbi-sursat yeşiyinin alt hissəsinə qoymuşdular. Zabit Qorbuş 1945-ci il iyunun 4-də Moskvaya məlumat vermişdi: "Meyitin qalıqları qeyd olunub fin şəhərciyinə gətirilmiş və 1945-ci il iyunun 3-də Ratenhau şəhərinə aparılaraq basdırılmışdır."

"SMERŞ"in qərargahı Maqdeburqa köçürüldükdən sonra Hitlerin meyiti çıxarılmış və 1946-cı il fevralın 21-də Klauzenerştrassa gətirilərək iki metr dərinlikdə yerə basdırılmışdır. Yeva Braunun, Maqda və Yozef Qebbelslərin, onların altı övladının, bir də Hitlerin iki sevimli itinin qalıqları da eynilə bu cür "gəzinti"də ölmüşdür. Baxmayaraq ki, Stalin bunların hamısından xəbərdar idi, o, Hitlerin axtarışı üzrə əmr vermişdi, çünki yanmış meyitin Hitlerin oxşarının ola biləcəyi versiyası mövcud idi. *(Adolf Hitler 1889-1945).*

Hər hansı bir tarixi şəxsiyyət milyonlarla insan taleylə- rini, öz nəfsi eşqinə məkrli şahmat taxtası üzərində qurursa, sonda təbii ki, o, bütün cinayətkar əməllərinə öz çirkin ölümü ilə cavab verir.

Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasına qarşı hərbi təcavüz zamanı itkin düşmüş Azərbaycan vətəndaşlarının axtarılması, əsir və girovların azad edilməsi, bu istiqamətdə dövlət orqanlarının fəaliyyətinin

uzlaşdırılması məqsədilə 1993-cü ilin yanvarın 13-də Azərbaycan Respublikasının əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və onun işçi qrupu yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2001-ci il fərmanına əsasən, əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yeni tərkibi müəyyən edilmiş, Əsasnaməsi qəbul olunmuşdur.

Dövlət Komissiyası və onun işçi qrupunun fəaliyyəti beynəlxalq hüquq normalarına, xüsusilə müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına əsaslanır.

Dövlət Komissiyasının əsas təşəbbüsləri:

1993-cü ilin fevral ayında İsveçrənin Montre şəhərində Qafqaz müsəlmanlarının dini lideri Hacı Allahşükür Paşazadənin bütün ermənilərin katalikosu ikinci Vazgenlə görüşü keçirilmişdir. Həmin görüşdə imzalanmış birgə kommunikedə Azərbaycan tərəfinin təşəbbüsü ilə digər məsələlərlə yanaşı, girov götürülmüş şəxslərin təxirə salınmadan azad edilməsi məsələsi də əksini tapmışdır. Lakin sonradan erməni tərəfi üzərinə götürdüyü öhdəliklərdən imtina etmişdir.

Buna baxmayaraq, Azərbaycan tərəfi 1994-cü ilin avqust ayında BQXK-nın vasitəçiliyi ilə birtərəfli qaydada 27 erməni hərbi əsri, o cümlədən girovları azad etmişdir. Göstərilən tarixdən etibarən Azərbaycanda bir nəfər də girov qalmamışdır.

9 mart 1993-cü il tarixində Beynəlxalq Qırmızı Xaç Komitəsinin Moskva nümayəndəliyində Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissi-

yasının sədri Namiq Abbasovun Ermənistan Respublikası Əsir və girovların işi üzrə Dövlət Komissiyasının sədri kimi təqdim edilmiş, Ermənistan Respublikası Müdafiə Nazirliyinin idarə rəisi Andranik Arşakyanla görüşü keçirilmişdir. Hər iki dövlətin Rusiyadakı səfirlərinin nümayəndələrinin də iştirak etdiyi bu görüşdə həmin ilin mart ayında Cenevrədə imzalanmaq üçün 4 sənəd layihəsinin hazırlanması haqqında razılıq əldə edilmişdir. Azərbaycan tərəfi 10 gün ərzində aşağıdakı sənədlərin layihələrini hazırlamışdır.

- Girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsi və girov götürməkdən imtina edilməsi;

- Yaralıların və ağır xəstə olan əsirlərin dəyişdirilməsi;

- Meyitlərin 48 saat ərzində verilməsi;

- Hərbi əsirlərin Cenevrə Konvensiyalarının tələblərinə uyğun saxlanılmasına riayət olunması.

Həmin sənədlər Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı nümayəndəliyinin vasitəsilə Ermənistana və Cenevrəyə göndərilmişdir. Sonradan erməni tərəfi siyasi tələblər irəli sürərək, Cenevrəyə gəlməkdən və sənədləri imzalamaqdan imtina etmişdir.

1999-cu ilin dekabr ayında Azərbaycan tərəfi Avropa Şurası Parlament Assambleyasının Siyasi Məsələlər üzrə Komitəsində yeni təşəbbüslə çıxış etmiş və bir daha təsdiqləmişdir ki, əsir, girov və itkin düşmüş şəxslərə aid olan məsələlər Cenevrə Konvensiyasının müddəaları və aşağıdakı prinsiplərə əsaslanaraq həll olunmalıdır:

- Girov, əsir və itkin düşmüş şəxslərə aid olan problemlərin bir qayda olaraq humanitar problem kimi qəbul edilməsi və siyasi məqsədlər üçün istifadə olunmaması;

- Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən qeydiyyata alınmış bütün hərbi əsirlərin təxirə salınmadan azad edilməsi;

- İtkin düşmüş şəxslərin birgə axtarılmasının təmin edilməsi və axtarışda olanlarla bağlı daxil olmuş məlumatların təxirə salınmadan qarşılıqlı mübadiləsi;

- Əsirlərin mümkün saxlanma yerlərinə humanitar təşkilatların və hər hansı tərəfin nümayəndələrinin baxış keçirməsi üçün lazımi şəraitin yaradılması;

- Əsir və itkin düşmüş, girov götürülmüş şəxslərlə əlaqədar məsələlərin həllində BQXK, digər hüquq müdafiə təşkilatları və humanitar təşkilatlarla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi;

- Əsirlikdən azad edilmiş şəxslərin müalicəsinə və reablitasiyasına kömək məqsədilə Avropa Şurasının üzvü olan dövlətlərə müraciət edilməsi.

Qeyd olunan prinsipləri Avropa Şurası Parlament Assambleyasının siyasi məsələlər üzrə Komitəsi dəstəkləmiş və bu prinsiplər Azərbaycan Respublikası Milli Məclisinin 30 dekabr 1999-cu il tarixli bəyanatında öz əksini tapmışdır. Ermənistan parlamenti isə bu günədək sözügedən sənədə qoşulmamışdı.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Dövlət Komissiyasının təşəbbüsü ilə irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamə BMT Baş Assambleyasının 2002-ci ilin dekabr ayının 18-də keçirilmiş 57-ci sessiyasında qəbul edilmişdir.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında 4852 Azərbaycan vətəndaşı münaqişə zonasında itkin düşmüş şəxs kimi qeydiyata alınmışdır. Onlardan 54 nəfəri uşaq, 323 nəfəri qadın, 410 nəfəri qocalardır. 01.10.2004-cü il tarixə olan statistikaya görə.

1988-2004-cü illərdə 1358 Azərbaycan vətəndaşı erməni əsirliyindən azad edilmişdir. Bunlardan 165 nəfəri uşaq, 335 nəfəri qadın, 286 nəfəri qocalardır.

Təkzibolunmaz faktlar göstərir ki, itkin düşmüş 4852 vətəndaşdan ən azı 783 nəfər (18 nəfər uşaq, 46 nəfər qadın, 69 nəfər qocalar) ermənilər tərəfindən əsir, yaxud girov götürülmüş, lakin bu faktlar beynəlxalq təşkilatlar, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilmişdir. Həmin şəxslərin siyahısı, erməni əsirliyindən qayıtmış vətəndaşlarımızın və digər mənbələrin şahid ifadələri əsasında tərtib edilmişdir.

Əsir və girov götürülmüş şəxslərin azad edilməsi, itkin düşmüş şəxslərin axtarışı üzrə Almaniya, Rusiya və Gürcüstanın hüquq müdafiəçilərindən ibarət beynəlxalq işçi qrupu və BQXK bu şəxslərdən bir qisminin həqiqətən də əsir götürülməsi və sonrakı taleləri barədə məlumatların gizlədilməsinə dair faktları təsdiq edirlər. Azərbaycan tərəfinə daxil olan məlumatlar göstərir ki, qeyd olunan siyahıdakı şəxslərin böyük əksəriyyəti erməni əsirliyində öldürülmüş, yaxud işgəncə və xəstəliklərdən vəfat etmiş, az bir hissəsi isə indi də gizlədilərək Ermənistanda və işğal olunmuş ərazilərdə ağır fiziki işlərdə qul kimi istifadə olunurlar.

ƏSİRLİKDƏ QƏTLƏ YETİRİLƏNLƏR

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında toplanmış faktlar Ermənistan Respublikasının əsirlikdə olan Azərbaycan vətəndaşlarına qarşı münasibətdə beynəlxalq hüquq normalarını tapdaladığını, o cümlədən, **"Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyalarının** həyata və ya şəxsiyyətə qəsd etmək, hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və ya işgəncə vermək, insan ləyaqətinə toxunmaq kimi tələblərini kobud surətdə pozduğunu sübut edir.

Ermənistanın Azərbaycana hərbi təcavüzü zamanı dinc əhalinin kütləvi şəkildə öldürülməsi, Ermənistan Respublikasında və Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində əsirlikdə saxlanılmış Azərbaycan vətəndaşlarının dəhşətli işgəncələrə və mənəvi əzablara məruz qalması: amansız rəftar və ləyaqəti mütəmadi alçaltmaqla özünüöldürmə dərəcəsinə çatdırılması, soyuqqanlılıqla qətlə yetirilməsi, yaxud verilmiş işgəncələr nəticəsində vəfat etməsi söylədiklərimizə əyani sübutdur.

Aşağıda bu faktların bir qismi göstərilir:

Erməni silahlı birləşmələri Xocavənd rayonunun işğalı zamanı (17.02.1992) Qaradağlı kəndində girov götürdükləri 117 nəfər kənd sakinindən 80-ə yaxını yerindəcə güllələmiş- lər. Bu barədə kənd sakinləri Seymur Xanlar oğlu Nağıyev, Şahruz Əmirxan oğlu Əliyev və digərləri şahidlik edirlər.

Xocavənd rayonu Qaradağlı kənd sakini Həqiqət Yusif qızı Hüseynova ermənilərin 1992-ci ilin fevralında 10 nəfər həmkəndlisinin diri-diri yandırmalarının şahidi olmuşdur.

1993-cü ilin aprel ayının 1-də Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Kəlbəcər rayonuna genişmiqyaslı hücumu zamanı Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyasından ("QSM-7") Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya ("Uraqan") bölgədəki bütün səyyar radiostansiyalara çatdırmaq üçün təcili əmr verilmişdir. Əmrdə əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarını, o cümlədən qocaları, qadınları və uşaqları təcili məhv edib basdırmaq tələb olunurdu. Tələsikliyə səbəb azərbaycanlılar barəsində törətdikləri vəhşiliklərin izlərinin həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən, o cümlədən, jurnalistlərdən gizlətmək olmuşdur. Erməni hərbi birləşmələri komandirlərinin efirdəki bu radiodanışığının mətni Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin radioəkskəşfiyyat xidməti tərəfindən 1993-cü ilin aprel ayının 6-7-də lentə alınmışdır.

Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndinin 15 dinc sakini ermənilər tərəfindən yerindəcə qətlə yetirilmişdir. Bunların arasında Məhəmməd Əmralıyev, Surxay Əmralıyev, Çingiz Əmralıyev, Aygün Əmralıyeva, Büsat Əhmədova və Çiçək Həsənova da olmuşdur. Bu barədə Xasay Məhəmməd oğlu Əmralıyev və Binnət Abduləli oğlu Əhmədov şahidlik edirlər.

İmarət Məmişovanın ifadəsinə görə, o, Kəlbəcər rayonunun işğalı zamanı iki azyaşlı uşağı ilə girov götürülmüşdür. İmarət Məmişovanın gözləri qarşısında ermənilər səkkiz mülki şəxsi, o cümlədən onun səkkiz yaşlı oğlu Talehi güllələmiş və meyitləri yandırmışlar. Bundan sonra ermənilər onun özünü, 10 yaşlı oğlu Yadigarı, digər qadın, uşaq və qocaları Xankəndinə apararaq dəhşətli işgəncələrə məruz qoymuşlar.

Erməni girovluğundan 1994-cü ildə azad edilmiş Əhmədovlar ailəsinin şəhadətinə görə, 17 avqust 1993-cü il tarixdə ermənilər Füzuli rayonu Qacar kəndinin 25-dək dinc sakinini onların gözləri qarşısında güllələmişlər.

Erməni girovluğunda olmuş Həsən Məcid oğlu Hüseynov 1993-cü ildə Horadiz-Füzuli yolunda 40-dək dinc əhalinin ermənilər tərəfindən öldürüldüyünü bildirir.

16 fevral 1994-cü ildə Ermənistan Respublikası Xarici İşlər Nazirliyi guya qaçmağa cəhd edərkən atışma zamanı 8 azərbaycanlı hərbi əsirin öldürüldüyünü bəyan etmişdir. Bakıda meyitlər üzərində keçirilən məhkəmə tibbi ekspertizası zamanı Beynəlxalq Hüquq və Sosial Təbabət Akademiyası Rəyasət Heyətinin və Böyük Britaniyanın "Həkimlər insan hüquqları uğrunda" təşkilatının üzvü, professor Derek Paunder azərbaycanlı hərbi əsirlərin eyni silahdan (tapança) gicgah nahiyəsinə yaxın məsafədən açılan atəş nəticəsində qətlə yetirildiyini bildirmiş və əsirlərin guya "qaçmağa cəhd edərkən" öldürülməsi fikrini rədd etmişdir.

Girovluqdan qayıtmış Niyaz Balay oğlu Zeynalov bildirir ki, ermənilər girov götürdükləri, Şuşa rayonu Quşçular kənd sakinləri 1910-cu il təvəllüdlü Səriyyə Racı qızı Zeynalovam, 1920-ci il təvəllüdlü Yeganə Dadaş qızı Mədətovanı və Mövsüm Əbdülhəlim oğlu Əhmədovu 11 fevral 1992-ci il tarixdə diri-diri yandıraraq qətlə yetirmişlər.

61 yaşlı keçmiş girov Budaq Əli oğlu Alışanov erməni əsirliyində 5 azərbaycanlının Drmbon kəndində (Dağlıq

Qarabağ) ağır fiziki işlərdə qul kimi istifadə edilərək öldürüldüyünün şahidi olmuşdur.

Əsirlikdən azad edilmiş İsrayıl Sarif oğlu İsmayılov təsdiq edir ki, ermənilər girov götürdükləri üç azərbaycanlının başını erməni qəbri üstündə kəsmişlər.

Laçın rayonunun sakini Səmayə Kərimova iki yaşlı qızı Nurlanəyə və özünə verilən işgəncələrə dözməyərək, erməni əsirliyində intihar etmişdir.

18 may 1992-ci il tarixdə Laçın rayounun işğalı zamanı ailələri ilə birlikdə girov götürülmüş 1977-ci il təvəllüdlü Taleh Mədət oğlu İbişovun bildirdiyinə görə, ermənilər onun atası Mədət Əvəz oğlu İbişovu və bacısı, 1967-ci il təvəllüdlü Yeganə Mədət qızı İbişovanı vəhşicəsinə öldürmüşlər.

1973-cü il təvəllüdlü İlham Nəsirov əsirlikdə uzun müddət ac-susuz saxlanıldığından 23 noyabr 1993-cü il tarixdə İrəvan hərbi hospitalında kəskin kanexsiya diaqnozundan vəfat etmişdir.

Erməni əsirliyində olmuş 20 yaşlı Fərhad Rəhman oğlu Atakişiyevin meyitinin qalıqlarının məhkəmə-tibbi ekspertizası sübut etmişdir ki, o müntəzəm döyülmələr və ağır işgəncələr nəticəsində qətlə yetirilmişdir.

Yardımlı rayonu sakini Heydər Heydərov Şuşa həbsxanasında ermənilər tərəfindən verilmiş müntəzəm işgəncələr nəticəsində ölmüşdür. *(24.12.1994)* Bu barədə keçmiş əsirlər Həbib Əliyev, Əvəz Muxtarov, Əbülfət Qasımov və digərləri şahidlik edir.

Erməni əsirliyində olan Xocalı şəhər sakini Faiq Şahmalı oğlu Əliməmmədov Gəncə şəhərinin adını "Kirovabad" demədiyinə görə, erməni hərbçisi tərəfindən

güllələnmişdir. Bu barədə Zülfi İbrahim oğlu Məmmədov, Məmməd Cümşüd oğlu Məmmədov və digərləri şahidlik edir.

Əsirlikdən azad edilmiş Abuzər Manafovun, Həsən Hüseynov və Aydın Məhərrəmovun ifadəsinə görə, 14 fevral 1994-cü il tarixdə Şuşa həbsxanasında saxlanarkən Kolya, Slavik və Toq adlı nəzarətçilər əslən Beyləqan rayonundan olan İlqar Ənvər oğlu Qurbanovu müntəzəm işgəncələr verərək öldürmüşlər.

1962-ci il təvəllüdlü Şəmkir rayon sakini Fikrət Həsən oğlu Hüseynov müntəzəm döyülmələr və işgəncələr nəticəsində 28 iyun 1993-cü il tarixdə erməni əsirliyində vəfat etmişdir. Əsirlikdən azad edilmiş Bəxtiyar İbrahim oğlu Tağıyev və Mətləb Şiraslan oğlu Allahverdiyev bu faktın şahidləridir. Bakıda keçirilmiş məhkəmə-tibbi ekspertizası zamanı Fikrət Həsən oğlu Hüseynovda qabırğa sınıqları aşkar edilmişdir.

Əsirlikdən azad edilmiş Zöhrab Nadir oğlu Heydərov 21 may 1993-cü il tarixdə Şuşa həbsxanasında, 1973-cü il təvəllüdlü Zahid Nəsibulla oğlu Əmrullayevin erməni nəzarətçiləri tərəfindən boğularaq qətlə yetirildiyini bildirmişdir.

Girovluqdan azad edilmiş Maşallah Bəndəliyev bildirmişdi ki, 1992-ci ilin mayında Xankəndində qaracda saxlanılarkən qaracın sahibi Mero və Sarkisyan Vazgen adlı digər erməni bir nəfər adını bilmədiyi lal girova əvvəl müxtəlif dərəcəli işgəncələr vermiş sonra isə onun başını kəsmişdir.

İŞGƏNCƏLƏR

Əsir və ilkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında olan materiallar sübut edir ki, Ermənistan tərəfi əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı məqsədli soyqırımı siyasəti yeridir. Yüzlərlə Azərbaycan vətəndaşı, o cümlədən uşaq, qadın və qocalar erməni əsir və girovluğunda dözülməz işgəncələrin qurbanı olmuşdur. Çoxsaylı faktlar göstərir ki, əsir və girovlara müxtəlif dəhşətli işgəncələr verilmiş - onlar vəhşicəsinə döyülmüş, qəsdən şikəst vəziyyətinə salınmış, sinələrinə qızdırılmış xaç nişanları ilə damğa basılmış, dırnaqları və dişləri çıxarılmış, yaralarına düz basılmış, ölənə qədər rezin və dəmir dəyənəklərlə döyülmüş, damarlarına benzin yeridilmişdir.

Aşağıda bu faktların bir qismi göstərilir.

Girov götürülərkən 3 yaşı olan Şövqi Xaqani oğlu Əliyevin (24.07.1993) bazu sümüyü Xankəndində erməni "həkimləri" tərəfindən çıxarılmış, nəticədə Şövqi ömürlük şikəst olmuşdur.

Kəlbəcər rayonunun işğalı zamanı girov götürülən (31.03.93) Gülcamal Quliyevanın yenicə dünyaya gəlmiş oğlu Arzu Hacıyevə erməni "həkim" Aida Serobyan naməlum tərkibli iynələr vurmuşdur. Nəticədə Arzu Hacıyev ömürlük şikəst olmuşdur.

Ermənilər 15 yaşlı girov Nəzakət Məmmədovanın gözləri qarşısında atasına dəhşətli işgəncələr vermiş, onun qulaqlarını kəsmiş, anası hədə və şantaclara dözməyərək, dəli olmuş, qızın özünü isə 4 min rus rubluna ailəsinə satmışlar.

Zəminə Göyüş qızı Dadaşova ermənilər tərəfindən girov götürülərkən qolundan aldığı güllə yarası baxımsızlıq

üzündən çirk eləmiş və onun bədənində çürümə prosesi getmişdir. Hazırda Zəminənin sol qolu işləmir. Girov götürülən zaman isə ermənilər onun atası Göyüş Dadaşovu və yaşlı nənəsi Qönçə İbadovam yerindəcə güllələmişlər.

Erməni nəzarətçiləri Ağdam rayonundan girov götürülmüş Kəklik həsənovaya dəhşətli işgəncələr vermiş, mismar kəlbətini ilə onun 16 dişini çıxarmışlar.

Ağdam rayonunun işğalı zamanı ermənilər tərəfindən girov götürülən yaşlı qadın Şərqiyyə Rza qızı Şirinovanın 8 qızıl dişi mismar kəlbətini ilə çəkilmişdir. O, altı ay davamlı işgəncələrə məruz qalmışdır.

Qubadlı rayonunun işğalı zamanı 65 yaşlı Biniş Rəsul qızı Məmmədova və 69 yaşlı Sara Miriş qızı İsmayılova girov götürülüb Xankəndi hərbi hissəsində saxlanmışdır. Burada onları gündüz ağır fiziki əmək tələb edən işlərdə işlədir, gecələr isə xüsusi amansızcasına döyürmüşlər. Onlarla birlikdə saxlanan Şahsənəm və Əsli adında qadınlar bu cür ağır işgəncələrə dözməyərək, girovluqda ölmüşlər.

Ağdam rayonunun keçmiş sakini, milliyyətcə rus olan, erməni əsirliyində hədsiz işgəncələrə məruz qalmış Vladimir İvanoviç Şevelyov 1994-cü ildə Ağdam rayonunun işğalı zamanı 89 yaşlı anası Vera Davidovnanın və ahıl yaşlı bacısı Svetlana İvanovnanın, eləcə də 58 yaşlı xəstə qardaşı Anatoli İvanoviçin ermənilər tərəfindən vəhşicəsinə öldürülüb yandırıldığını, Ağdam kanalının yanında saysız-hesabsız qadın və uşaq meyiti gördüyünü bildirir. Bundan əlavə Vladimir Şevelyov şahidlik edir ki, ermənilər Ağdam rayonunun işğalı zamanı oradakı ruhi xəstəxanada saxlanan 7 ruhi xəstəni, o cümlədən iki xəstə qadını girov

götürmüşlər. Onların biri azad edilmiş, biri döyülə-döyülə öldürülmüş, digərlərinin sonrakı taleyindən isə bu günədək məlumat yoxdur.

1930-cu il təvəllüdlü Ağdam rayon sakini Əli Rəsul oğlu Abbasov erməni girovluğunda mütəmadi olaraq döyülmüş, onun bədəninə siqaret basılaraq yandırılmışdır. Aldığı mənəvi və fiziki işgəncələrdən özünə gələ bilməyən Əli Abbasov erməni əsirliyindən azad edildikdən bir müddət sonra vəfat etmişdir.

Erməni hərbçiləri Füzuli rayonundan girov götürdükləri Mürvət Fətiş oğlu Ağayevi döyərək, qulağını kəsmiş, əllərini məftillə arxadan bağlayaraq ağacdan asmış və ayaqlarının altında ocaq qalayaraq yandırmışlar.

Hərbi əsirlər - Novruz Məhəmməd oğlu Daşdəmirov, Namiq Cavanşir oğlu Qarayev mütəmadi döyülmə, bədənlərinə qızdırılmış cismlərlə dağ basılma və başlarına mismar salınması nəticəsində ruhi xəstə həddinə çatdırılmışlar.

Hərbi əsir Mürşüdov Sədrəddin Aslan oğlu döyüldükdən sonra şüşə qırıntılarını udmağa məcbur edilmişdir.

Yaralı vəziyyətdə əsir götürülmüş Əbdüləzim Məcnun oğlu Məmmədov rezin dəyənəklə döyülmüş, damarlarına benzin yeridilmiş, yaralarının qaysağı qopardılaraq ona əzab verilmiş, üstünə təlim keçmiş it buraxılmışdır.

Mayıl Məhəmmədəli oğlu Məmmədovun damarına dizel yanacağı yeridilmiş, sinəsi qızdırılmış xaçla damğalanmışdır.

Vəhşicəsinə döyülmə nəticəsində hərbi əsir Cavid Ağa oğlu Hüseynovun çənəsi və qabırğaları sındırılmışdır. Ermənilər dəmir parçası ilə Cavidin qoluna damğa basmış və yarasının üzərinə kislota tökmüşlər.

ERMƏNİ TERRORİZMİ AZƏRBAYCAN ƏRAZİSİNDƏ TÖRƏDİLƏN TERROR-TƏXRİBAT FAKTLARI

Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilat! yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ərazisindəki 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədilə Emənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların keçirdiyi ərazilərdən xeyli uzaqda, dinc Azərbaycan əhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur.

16 sentyabr 1989-cu il. "Tbilisi-Bakı" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

18 fevral 1990-cı il. Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, çoxlu insan tələfatı olmuşdur.

11 iyul 1990-cı il. "Tərtər-Kəlbəcər" sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə 14 nəfər qətlə yetirilmiş, 35 nəfər yaralanmışdır.

10 avqust 1990-cı il. "Tbilisi-Ağdam" marşrutu ilə hərəkət edən sərnişin avtobusu parladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayətin təşkilatçıları A.Avanesyan və M. Tatevosyan cinayət məsuliyyətinə cəlb olunmuşlar.

Həmin gün "Şəmkir-Gəncə" avtomobil yolunda Xanlar rayonunun Nadel kəndi yaxınlığında "LAZ" markalı 43-80 AQF dövlət nömrə nişanlı avtobus partladılmış, nəticədə 17 nəfər həlak olmuş, 26 nəfər yaralanmışdır.

30 noyabr 1990-cı il. Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu partladılmış, 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

09 yanvar 1991 -ci il. "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri Salatın Əskərova və 3 hərbi qulluqçunun olduğu avtomobilə qarşı terror aktı nəticəsində 4 nəfər qətlə yetirilmişdir. Terrorçu qurupun üzvləri A.Mkrtçyan, Q.Petrosyan, A.Manqasaryan və Q.Arustanyan cinayət məsuliyyətinə cəlb olunmuşlar.

30 may 1991-ci il. Rusiya Federasiyası Dağıstan Respublikasının Xasavyurd stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, nəticədə 11 nəfər həlak olmuş, 22 nəfər yaralanmışdır.

19 iyun 1991-ci il. "Yevlax-Laçın" avtomobil yolunun 106-cı kilometrində 54-59 saylı hərbi hissəyə məxsus "UAZ-469" markalı avtomaşın partladılmış, 3 nəfər həlak olmuş, 3 nəfər ağır yaralanmışdır.

31 iyul 1991-ci il. Dağıstan Respublikasının Temirtau stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, nəticədə 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

02 avqust 1991-ci il. Hadrut rayonunun Dolanlar kəndində "QAZ-53" markalı avtomaşın partladılmış, nəticədə 4 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

21 avqust 1991-ci il. Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında "KAVZ" markalı 70-30 AQO dövlət nömrə nişanlı avtobus partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 10 nəfər ağır bədən xəsarəti almışdır.

08 sentyabr 1991-ci il. "Ağdam-Xocavənd" avtobusunun atəşə tutulması nəticəsində 5 nəfər qətlə yetirilmiş, 34 nəfər müxtəlif dərəcəli xəsarət almışdır. Terrorun Xaçaturyan Volodi, Yeremyan Saro, Çolyan Saşa, Arustamyan Arno tərəfindən törətdiyi sübuta yetirilmişdir.

Həmin gün "Ağdam-Qaradağlı" marşrutu ilə işləyən avtobus erməni quldurları tərəfindən atəşə tutulmuş, nəticədə 8 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

26 sentyabr 1991 -ci il. "Yevlax-Laçın" yolunda "VAZ - 2106" markalı D 72-07 AQ nömrə nişanlı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

19 oktyabr 1991-ci il. Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında "UAZ-469" markalı avtomaşın partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

20 noyabr 1991-ci il. Xocəvənd rayonunun Qarakənd kəndi yaxınlığında "Mİ-8" vertolyotunun atəşə tutulması nəticəsində vertalyot heyəti və sərnişinlər - Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər - 19 nəfər həlak olmuşdur.

26 dekabr 1991-ci il. Şuşa-Laçın yolunun 4-cü kilometrliyində "ZİL-130" və "Moskviç" maşınları partladılmış, 5 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

08 yanvar 1992-ci il. Türkmənistandan "Krasnovodsk-Bakı" marşrutu ilə hərəkət edən dəniz bərəsində törədilən terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

28 yanvar 1992-ci il. "Ağdam-Şuşa" marşrutu ilə uçan "Mİ-8" mülki vertolyotu Şuşa şəhəri yaxınlığında erməni terrorçuları tərəfindən vurulmuşdur. Nəticədə çoxlu qadın və uşaq olan 44 nəfər həlak olmuşdur.

1992-ci ilin yanvar ayında erməni terrorçu dəstələri Kərkicahan qəsəbəsində 80 nəfər, 1992-ci ilin fevral ayında Xocavənd rayonunun Qaradağlı kəndində 77 nəfər və 26

fevral 1992-ci il farixdə Xocalı şəhərində 613 nəfər dinc sakini qəflə yefirmiş, 650 nəfəri isə yaralamışlar.

22 mart 1992-ci il. "UAZ-469" markalı 60-25 AUZ dövlət nişanlı avtomaşın Qazax rayonu ərazisində partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

28 mart 1992-ci il. "Kamaz-5410" markalı 40-53 AQŞ dövlət nişanlı avtomaşın partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

18 aprel 1992-ci il. "Qazax-Cəfərli" yolunun 10-cu kilometrliyindən "VAZ" markalı maşın silahlı basqına məruz qalmış, nəticədə 2 nəfər ölümcül yaralanmışdır.

20 may 1992-ci il. Zəngilan rayonunun Qarançı kəndi yaxınlığında "UAZ-469" markalı 80-33 AQD dövlət nömrə nişanlı avtomaşın silahlı basqına məruz qalmış, nəticədə 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

28 fevral 1993-cü il. Rusiyanın Şimali Qafqaz ərazisində Qudermes stansiyası yaxınlığında "Kislovodsk-Bakı" sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

02 iyun 1993-cü il. Bakı dəmir yolu vağzalında sərnişin qatarının vaqonunun partladılması nəticəsində dövlətə külli miqdarda maddi ziyan dəymişdir. Partlayışın icraçısı Rusiya vətəndaşı İqor Xatnovski Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsi kəşfiyyat şöbəsinin rəisi, polkovnik Caan Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək, casusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı aldığını etiraf etmişdir. İstintaq zamanı sübuta yetirilmişdir ki, həmin qrup 1992-1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törətmişdir.

22 iyul 1993-cü il. Tərtər rayonunda törədilmiş partlayış nəticəsində 5 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

Həmin gün Qazax rayonunun mərkəzində törədilmiş partlayış nəticəsində 6 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

30 avqust 1993-cü il. Hadrut rayonu ərazisində "ZİL" markalı maşın partladılmış, nəticədə 2 nəfər həlak olmuşdur. Həmin hadisədən bir neçə gün sonra içərisində 12 nəfər kənd sakini olan "QAZ-66" markalı sərnişin avtobusu rayondan çıxarkən partladılmış, nəticədə 4 nəfər həlak olmuş, 8 nəfər ağır dərəcədə yaralanmışdır.

01 fevral 1994-cü il. Bakı dəmir yolu vağzalında "Kislovodsk-Bakı" sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

18 mart 1994-cü il. Xankəndi şəhəri yaxınlığında İran Hərbi Hava Qüvvələrinə məxsus "Herkules" tipli təyyarə vurulmuş, 34 diplomat və ailə üzvləri həlak olmuşlar.

19 mart 1994-cü il. Bakı metropoliteninin "20 Yanvar" stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. Məhkəmə sübut etmişdir ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı "Sadval" ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir.

Müəyyən olunmuşdur ki, "Sadval" separatçı təşkilatının həmin fəalları 1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olmuş, bu ölkənin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak etmişdir. 1992-ci ilin aprel-may aylarında 30 nəfər milliyyətcə ləzgi olan Azərbaycan vətəndaşı Ermənistanın Nairi

rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçmişdir. İstintaq zamanı müəyyənləşdirilmişdir ki, təxribatçılar təlimata uyğun olaraq, "20 Yanvar" stansiyası ilə yanaşı Bakının "Nizami" kinoteatrında, Respublika sarayında və Bakı lampa zavodunda da partlayışlar törətməyi planlaşdırmışlar.

"20 Yanvar" metrostansiyasında partlayışın törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilmişdir.

13 aprel 1994-cü il. Dağıstan Respublikasının "Daqıstanskiye Oqni" stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

03 iyul 1994-cü il. Bakı metropolitenin "28 May" və "Gənclik" stansiyalarında elektrik qatarındakı partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Terror aksiyası Azərbaycan Respublikasının vətəndaşı, Dağlıq Qarabağ uğrunda gedən döyüşlər zamanı - 13 yanvar 1994-cü ildə əsir düşmüş və Ermənistan xüsusi xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb edilmiş Aslanov Azər Salman oğlu tərəfindən törədilmişdir. Məhkəmə araşdırmaları zamanı müəyyən olunmuşdur ki, 14 yanvar 1994-cü ildə erməni separatçılarının ideoloqlarından biri, yazıçı Zori Balayan hərbi əsir, milliyyətcə ləzgi Azər Aslanovla görüşmüş, azərbaycanlılara qarşı mübarizədə bütün azsaylı xalqların birgə fəaliyyət göstərmələrinin vacibliyini bildirmişdir. 9 iyun 1994-cü ildə Ermənistan xüsusi xidmət orqanlarının Artur adlı əməkdaşı Azər Aslanovun Bakıdakı

mənzilinə zəng vuraraq onun sağ olduğunu bildirmiş və azad olunması üçün yaxın qohumlarından birinin Yerevan şəhərinə gəlməsinin zəruriliyini qeyd etmişdir. 16 iyun 1994-cü il tarixində Azər Aslanovun anası Tacibat Aslanova Yerevana gəlmişdir. Azər Aslanova anasının həyatının təhlükə altında olduğu bildirilmiş, bu təhdidlər altında o, Ermənistan xüsusi xidmət orqanları ilə "Ömər-75" təxəllüsü ilə daima əməkdaşlığa cəlb edilmişdir. Azərbaycana maneəsiz gəlməsi üçün Azər Aslanovun adına saxta sənədlər hazırlanmış, partlayıcı maddə isə müvafiq qaydada peçenye, şokolad və dezodorant qutularında gizlədilmişdir.

Azər Aslanov "Yerevan-Mineralnıye Vodı-Bakı" marşrutu ilə Azərbaycana gələrək, 3 iyul 1994-cü ildə Bakı metrosunun "28 May" və "Gənclik" stansiyası arasında qatarda terror aktını həyata keçirmiş və yenidən Ermənistana qayıtmışdır. Bu müddət ərzində Yerevanda girov saxlanılan anası yalnız bundan sonra azad olunmuşdur.

İstintaq zamanı müəyyən edilmişdir ki, terror aktının təlimatçıları Ermənistan xüsusi xidmət orqanlarının polkovniki Karen Baqdasaryan və kapitan Seyran Sarkisyan olmuşlar.

Azərbaycan Respublikasının Ali Məhkəmə instansiyaları tərəfindən aparılmış araşdırmalar prosesində göstərilən terror aktlarının həyata keçirilməsində Dağlıq Qarabağın qeyri-qanuni reciminin funksionerləri və Ermənistan Respublikasının xüsusi xidmət və digər dövlət orqanlarının təşkilatçılığı, maliyyə və texniki dəstəyi, əksər hallarda isə bilavasitə iştirakı prosessual qaydada sübuta yetirilmişdir.

ERMƏNİSTAN RESPUBLİKASI TERRORU DƏSTƏKLƏYƏN DÖVLƏTDİR

SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış Ermənistan Respublikası dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevrilmişdir. Çoxsaylı faktlar, məhkəmə materialları sübut edir ki, Azərbaycanın dinc əhalisinə qarşı, o cümlədən, MTN-in Dövlət Komissiyasının arxiv materialları əsasında nəqliyyat vasitələrində törədilən terror aktları Ermənistan hökuməti tərəfindən maliyyələşdirilərək, bu ölkənin xüsusi xidmət orqanları tərəfindən həyata keçirilmişdir.

90-cı illərin əvvəllərində Ermənistanın rəsmi dairələri "Daşnaksütyun" ASALA, MAQ, "Erməni birliyi", "Erməni Azadlıq Cəbhəsi" və digər məşhur erməni terror təşkilatları fəallarının reabilitasiyası məqsədi ilə genişmiqyaslı kampaniyaya başlamış, onlara sığınacaq verməklə yaşayış və fəaliyyətləri üçün şərait yaratmış, müvafiq maliyyə dəstəyi göstərmişlər.

1983-cü ilin iyul ayında Parisdə Orli aeroportunda 8 nəfərin ölümü və 60 nəfərin yaralanması ilə nəticələnmiş terror aktına görə ömürlük həbs cəzasına məhkum edilmiş terrorçu Varucan Karapetyanın azad olunması üçün Ermənistanda dövlət səviyyəsində imzatoplama kampaniyası keçirilmişdir. 2001-ci ilin aprelində Fransa məhkəməsi tərəfindən azad olunan terrorçu Ermənistanda rəsmi sığınacaq tapmışdır.

Məşhur terrorçu, Qərbi Avropada "ASALA-nın inqilabi hərəkatı" adlı qruplaşmasının rəhbəri, 28 noyabr 1985-ci ildə 6 il müddətinə həbs olunmuş Monte Melkonyan 1990-cı ildə Fransa həbsxanasından buraxılaraq, Ermənistana gəlmiş və terror fəaliyyətini davam

etdirmək üçün buradan Dağlıq Qarabağa göndərilmişdir. Monte Melkonyan Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı erməni terror dəstəsinin komandanı olmuşdur. 1993-cü ildə Dağlıq Qarabağda öldürülən terrorçunun Yerevanda dəfn mərasimində rəsmi şəxslər, o cümlədən, Ermənistan prezidenti də iştirak etmişdir. Ermənistanın milli qəhrəmanı elan olunmuş bu beynəlxalq terrorçunun adı Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmişdir.

Məşhur terrorçu, Daşnaksütyun Partiyasının "Dro" terror qrupunun üzvü Qrant Markaryan Dağlıq Qarabağda terrorçu dəstələri yaradanlardan və Ermənistandan gətirilən silahlar vasitəsilə buradakı terrorçu qrupların silahlandırılmasında fəal iştirak edənlərdən biri olmuşdur.

1981-ci ildə Parisdə Türkiyə səfirliyinə basqının təşkilatçısı Vazgen Sislyan 1992-ci ildə Yerevandan Xankəndinə göndərilmişdir. Vazgen Sislyan azərbaycanlılara qarşı terror aktlarının keçirilməsində fəal iştiraklarına görə prezident Robert Koçaryan tərəfindən "Dağlıq Qarabağ müharibəsinin qəhrəmanı" adına layiq görülmüşdür.

Qarabağın dinc azərbaycanlı əhalisinin öldürülməsində Ermənistan xüsusi xidmət orqanlarının himayə etdiyi Əbu Əli və Hilbert Minasyan kimi Yaxın Şərq mənşəli terrorçular da fəal iştirak etmişlər.

R.Bahar SONAM

ERMƏNİ TERROR TƏŞKİLATLARI

Dünyanın müxtəlif məntəqələrində qanlı aksiyalar törətmiş erməni terror təşkilatlarının adları:

"Armenakan" partiyası: 1885-ci ildə yaradılıb. Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törədən bu partiya İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıqda olub.

"Hnçak" partiyası: 1887-ci ildə Cenevrədə yaradılıb. Qurumun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rus" və "İran" Ermənistanları adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaqdır. Partiyanın proqramının 4-cü bəndində göstərilir; "qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir".

"Daşnaksütyun" - erməni federativ inqilab partiyası: 1890-cı ildə Tiflisdə yaradılıb. Əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultayından sonra "Daşnaksütyun" "Türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" əmrini vermişdir. "Daşnaksütyun" partiyası tərəfindən yaradılan bir sıra terror qrupları mövcuddur: 1973-cü ildə fəaliyyətə başlamış "erməni "soyqırımını" intiqamçılan" qrupu 1980-82-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirib: Məxfi terror qrupu DRO-nun bölmələri: DRO-8, DRO-88, DRO-888, DRO-8888. Daşnakların bu istiqamətdə fəaliyyəti davam edir. "Erməni gizli azadlıq

ordusu” (ASOAj: 1975-ci ildə Beyrutda yaradılıb. Mənzil-qərargahı Dəməşqdə yerləşir. Fələstin bazalarında hazırlıq keçən mindən artıq döyüşçüsü vardır. Təşkilat fəaliyyətinin ilk 6 ilində dünyanın müxtəlif ölkəsində 19 türk diplomatının ölümünə səbəb olan terror aktları keçirib.

“Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu” (ASALA): 1975-ci ildə yaradılan təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində “Böyük Ermənistan” qurmaqdır. ASALA əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. Təşkilatın “Əbu Nidal”, “Qara sentyabr” kimi terror qrupları ilə əməkdaşlıq etməsində əsas fiqurlardan biri ASALA-nın lideri Akop Akopyan olmuşdur. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti öz üzərinə götürmüş Akop Akopyan 01.08.80-ci ildə “Nyu-York Tayms” qəzetinə verdiyi müsahibədə bildirmişdir: “Bizim düşmənimiz türk recimi, NATO və bizlə əməkdaşlıq etməyən ermənilərdir”.

ASALA 1980-ci ilin aprelində birgə terror aksiyalarının keçirilməsinə dair PKK ilə razılığa gəlmiş və bu niyyətlərini Livanda rəsmiləşdirmişlər. Beyrut şəhərində 28.08.1993-cü ildə açıqlanan bəyanatında ASALA “pantürkist neft borusu” (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdir.

“Geqaron”: 2001-ci ilin fevralında ASALA tərəfindən yaradılmışdır. Məqsəd-Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və

biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir.

“Erməni azadlıq hərəkatı” (AODj: 1991-ci ildə Fransada yaradılıb. Terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir.

“Erməni azadlıq cəbhəsi”: 1979-cu ildə yaradılan bu terror təşkilatı ASALA-nın tərkib hissəsi sayılır. Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.

“Orli qrupu”: 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. Təşkilat 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktını həyata keçirib.

“Erməni soyqırım ədalət kommandoslan”: 1972-ci ildə Vyanada Daşnaksütyun Partiyasının qurultayı zamanı yaradılıb. “Erməni soyqırımı ədalət kommandoslarTnın məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir.

“Erməni birliyi”: 1988-ci ildə Moskvada yaradılmışdır. “ASALA” ilə sıx əlaqələri vardır, keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir. Dağlıq Qarabağa silah və muzdluların ötürülməsində iştirak edir.

“Demokratik cəbhə”: ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Başlıca məqsədi türk dövlətinin parçalanmasıdır.

“Apostol”: 2001-ci il aprel ayının 29-da əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir.

R.Bahar SONAM

SOYQIRIM...

XIX əsrin əvvəllərində çar Rusiyası (iran və Rusiya arasında Azərbaycan ərazilərinin bölüşdürülməsinə dair 1813-cü il Gülüstan və 1825-ci il Türkmənçay müqaviləsi imzalandıqdan sonra) qədim Azərbaycan torpaqlarında bufer zona yaratmaq məqsədi ilə "erməni dövləti" qurmaq planını həyata keçirməyə başlamışdır. Hələ 300 il əvvəl gələcək imperiyanın konturları barədə düşünən rus imperatoru I Pyotr Cənuba göndərdiyi qasidlərə tapşırmışdı: "Onları (ermənilər) tovlayıb, bizim torpaqlara gətirməyə çalışmaq lazımdır ki, Rusiyanın istinadgahı olsun."

Bu məqsədlə iran və Türkiyə ərazisində yaşayan 300 minə qədər erməni XIX əsrin birinci yarısında Azərbaycana köçürülmüş və İrəvan (indiki Yerevan), Dağlıq Qarabağ, Naxçıvan, Zəngəzur, Dərələyəz, Ordubad, Vediba- sar və digər ərazilərdə yerləşdirilmişdir.

Lakin ermənilərin Azərbaycan ərazilərinə köçürülmələrinə baxmayaraq, azərbaycanlılar bu ərazilərdə sayca ermənilərdən üstünlük təşkil edirdi. Məsələn, 1886-cı ildə Gəncə quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən yalnız 81-i erməni kəndi olmuşdur. İrəvan qəzasında əhalinin 66 faizi azərbaycanlı, 34 faizi isə ermənilərdən ibarət idi. Bu ərazilərdə ermənilərin çoxluq təşkil etməsi məqsədilə azərbaycanlılara qarşı soyqırım siyasətinə əl atılmış, ermənilər çar Rusiyası tərəfindən gizli silahlandırılaraq, hərbi dəstələr yaradılmışdır.

İndiki Ermənistan və Dağlıq Qarabağ ərazisindən azərbaycanlıların kütləvi çıxarılması, dinc əhaliyə qarşı zorakılıq, vəhşiliklər Rusiya hakimiyyətinin himayəsi və köməyi ilə XX əsrin əvvəllərində, xüsusilə, 1905-1907-ci illərdə xüsusi vüsət almışdır.

Azərbaycanın Zəngəzur, İrəvan, Naxçıvan, Ordubad, Qazax, Qarabağ əyalətlərində yüzlərlə kənd yandırılmış, əhali uşaqdan böyüyə qədər amansızcasına qətlə yetirilmişdir.

R.Bahar SONAM

1918-1920-ci il HADİSƏLƏRİ, MART SOYQIRIMI

1918-ci ilin martında Rusiya bolşeviklərinin rəhbəri Vladimir Lenin bolşevik Stepan Şaumyanı Qafqazın fövqəladə komissarı təyin edərək Bakıya göndərmişdir. Bolşeviklər Bakıda hakimiyyəti ələ keçirmək adı ilə erməni daşnaklarının silahlı qüvvələrinin gizli niyyətləri üçün şərait yaratmışlar. **Martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğını başlanmışdır. Stepan Şaumyanın etirafına görə, dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda "Daşnaksütyun" partiyasının 3-4 minlik silahlı dəstəsi iştirak etmişdir.**

Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, əhalini uşaqdan böyüyədək qətlə yetirmişlər. Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familyalı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə bunları yazmışdır: **"Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq, hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranılmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər."**

Ümumiyyətlə, XX əsrin birinci yarısında Zaqafqaziyada baş vermiş iki qırğın zamanı (1905-1907-ci illər, 1918-1920-ci illər) iki milyona yaxın azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmiş, öz ev-eşiklərindən zorla qovulmuşlar.

Mart qırğını zamanı Bakı şəhərinin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 azərbaycanlı qadınının meyiti tapılmışdır. Gənc qadınların diri-diri

divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır.

Qaçıb canını qurtarmağa çalışan əhalini güllələbaran etmək üçün isə ermənilər şəhərin müvafiq yerlərində əvvəlcədən pulemyotlar yerləşdirmişdilər.

İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından bin olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramseden Hartvill "İnsanlar belə imişlər" adlı kitab yazmışdır.

Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin ingilislərin və Rusiyanın yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək, təkcə Bakıda mart qırğını zamanı iyirmi beş min azərbaycanlının qəlləyetirildiyini bildirmişdir.

EPİQRAF

Daşnakların azərbaycanlılara qarşı soyqırımı yalnız Bakı ilə məhdudlaşmamışdır. Qısa müddətdə Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan, Qarsda da azərbaycanlıların qırğını törədilmişdir.

1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilmişdir. Şamaxı Cümə məscidi də daxil olmaqla, əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur.

Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi isə məhv edilmişdir.

1918-ci ilin aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3000 nəfərlik açərbaycanlı köçü pusquya salınaraq, son nəfərinədək məhv edilmişdir.

Erməni silahlı dəstələri Naxçıvan qəçasının bir neçə kəndini yandırmış, Zəngəçur qəçasında 115 açərbaycanlı kəndi məhv edilmiş, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüşdür. Bütövlükdə bu qəça üçrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı qaçqın düşmüşdür.

İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min açərbaycanlı məhv edilmiş, kəndlər isə yerlə yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış, əhalisi məhv edilmişdir. ***(ADR hökuməti, Fövqəladə İstintaq Komissiyasının materiallarından)***

1920-ci ilin mayında ermənilərin və XI Qıçıl Ordunun iştirakı ilə Gəncədə 12 mindən çox azərbaycanlı qətlə yetirilmişdir.

R.Bahar SONAM

1948-1953-CÜ İLLƏRDƏ AZƏRBAYCANLILARIN ERMƏNİSTANDAN DEPORTASİYASI

1943-cü il Tehran konfransı çamanı, Sovet-İran münasibətləri müçakirə edilərkən, erməni diasporu SSRİ Xarici İşlər naziri V.Molotovdan İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsini xahiş etmişdir. Molotov Tehranda məsələni SSRİ KP MK-nın sədri İ.Stalinə çatdırır və ermənilərin köçürülməsinə raçılıq verilir. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Q.Arutyunov bundan istifadə edərək, xaricdəki ermənilərin Ermənistana köçü bəhanəsi ilə azərbaycanlıların Ermənistandan zorla çıxarılması barədə qərar verilməsinə nail olur.

1947-ci il dekabr ayının 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar çıxarır.

Stalin tərəfindən 1948-1953-cü illərdə həyata keçirilən azərbaycanlıların növbəti deportasiyası zamanı ermənilərin xüsusilə diqqət mərkəzində saxladıqları məsələ iqtisadi, sosial və mənəvi cəhətdən güclü, strateci əhəmiyyətli azərbaycanlı yaşayış məntəqələrinin boşaldılması idi. Bu səbəbdən ilk mərhələdə İrəvan şəhəri (indiki Yerevan şəhəri) yaxınlığındakı yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmiş, sonra isə rayon mərkəzləri, ətraf kənd və qəsəbələrin əhalisi köçürülmüşdür.

Deportasiyaya məruz qalan əhalinin bir hissəsi Ermənistanın dağ rayonlarında yaşadığı üçün Kür-Araz ovalığındakı iqlim şəraitinə çətin alışmışdır. Bu səbəbdən də Kür-Araz ovalığına köçürülmüş on minlərlə azərbaycanlı arasında kütləvi ölüm halları qeydə alınmışdır.

Digər tərəfdən, Ermənistandan köçürülən bir nəfər də azərbaycanlı Dağlıq Qarabağ ərazisinə buraxılmamışdır.

Əksinə, “Böyük Ermənistan” ideyasının həyata keçirilməsi istiqamətində bu ərazinin azərbaycanlılardan boşaldılması işi planlı surətdə davam etdirilmiş və daxili köçürmə adı ilə 1949-cu ildə Dağlıq Qarabağdan 132 ailə (549 nəfər) Azərbaycanın Xanlar rayonuna köçürülmüşdür.

Eyni zamanda Azərbaycan yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı həyata keçirilmişdir. 1947-1953-cü illərdə azərbaycanlılar yaşayan 60 məntəqənin adı dəyişdirilmişdir. Ümumiyyətlə isə, 1921-1988-ci illərdə Ermənistanda yüzlərlə türk mənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir.

Deportasiya zamanı ermənilərin həyata keçirdikləri hiyləgərlik isə ondan ibarət idi ki, rayon və şəhərlərin əhalisi az sayda azərbaycanlı qalmaq şərti ilə köçürülmüşdür. Azlıqda qalan əhali isə növbəti mərhələdə - Ermənistan ərazisinin tamamilə azərbaycanlılardan “təmizlənməsi” əməliyyatı zamanı ölkədən çıxarılmışdır.

AZƏRBAYCANLILARIN 1988-1989-cu İLLƏRDƏ ERMƏNİSTANDAN DEPORTASİYASI

1988-ci ilin yanvarından etibarən "türksüz Ermənistan" siyasəti planlı şəkildə həyata keçirilməyə başlanmışdır. Ermənistan hökuməti, "Qarabağ" və "Krunk" komitələri, Eçmiədzin kilsəsinin nümayəndələri SSRİ rəhbərliyinin himayəsi ilə azərbaycanlıların qovulması prosesində minlərlə qanlı aksiyalar törətmişlər.

Etnik təmizləmə nəticəsində Ermənistanın 185 yaşayış məntəqəsi boşaldılmış, 250 mindən artıq azərbaycanlı və 18 min kürd öz ev-eşiyindən zorla qovulmuş, 217 azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir. Bunlardan 49 nəfəri ermənilərin əlindən qaçarkən dağlarda donmuş, 41 nəfər qəddarlıqla döyülərək qətlə yetirilmiş, 35 nəfər işgəncələrlə qətlə yetirilmiş, 115 nəfər yandırılmış, 16-sı güllələnmiş, 10 nəfər əzab və işgəncələrə dözməyərək infarkt olmuş, 2 nəfər xəstəxanada həkimlər tərəfindən öldürülmüş, digərləri isə suda boğularaq, asılaraq, elektrik cərəyanına verilərək, başları kəsilərək, qətlə yetirilmişdir.

R.Bahar SONAM

XOCALI SOYQIRIMI

Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli faciələrdən biri də Xocalı soyqırımıdır. Xocalı faciəsi Xatın, Lidisa, Oradur soyqırımı kimi, insanlıq tarixinə düşmüş qanlı olaydır.

1992-ci il fevralın 25-dən 26-a keçən gecə Ermənistan silahlı qüvvələri, Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki erməni silahlı dəstələri, keçmiş SSRİ-nin Xankəndində yerləşən 366-cı motoatıcı alayı şəxsi heyətinin və texnikasının bilavasitə iştirakı ilə Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhərini zəbt edərək, Azərbaycan xalqına qarşı soyqırım siyasətini həyata keçirmişdir.

Xocalının işğalı zamanı bir gecədə dinc əhalidən 613 nəfər, o cümlədən, 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla, işgəncələrlə öldürülmüş, insanların başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilmişdir.

Hücumda həmçinin, mayor Ohanyan Seyran Muşeqoviçin (Seyran Oqanyan hazırda Dağlıq Qarabağda ermənilərin qeyri-qanuni rejiminin "müdafiə naziri"dir) komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında 3-cü batalyonun, 1 saylı batalyonun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və praporşik iştirak etmişdir ***("Xocalının işğalına dair istintaq materiallarından").***

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir. Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdır.

XOCALI SOYQIRIMI ŞAHİDLƏRİNİN İFADƏLƏRİNDƏN:

Ermənilər tərəfindən qətlə yetirilmiş azərbaycanlı uşaqların sinəsi yarılıb ürəkləri parçalanmış, əksər meyitlər isə tikə-tikə doğranmışdır.

Heydərov Camal Əbdülhüseyn oğlu: -

"Qaraqaya deyilən yerin yaxınlığındakı fermanın 2 kilometrliyində eybəcər hala salınmış xeyli azərbaycanlı meyiti var idi. Qətlə yetirilmiş uşaqların sinəsini yarıb ürəklərini parçalamış, əksər meyitləri isə tikə-tikə doğramışdılar".

Heydərov Şahin Zülfüqar oğlu: -

Naxçıvanik kəndi (Xocalı) yaxınlığında 80-ə yaxın meyit görüb. Meyitlər qorxulu vəziyyətə salınmış, başları kəsilmişdir. Milis mayoru Əlif Hacıyev, yaxın qohumları Səlimov Fəxrəddin, Səlimov Mikayıl da qətlə yetirilənlər arasında olmuşdur.

Hümbətov Cəlil Hümbətəli oğlu: -

Ermənilər onun gözü qarşısında həyat yoldaşı Füruzə, oğlu Muğan, qızı Simuzər və gəlini Südabəni güllələmişlər.

Paşayeva Kübra Adil qızı: -

Kətik meşəsinə girəndə ermənilərin mühasirəsinə düşmüşdür. Gizləndiyi kolluqdan həyat yoldaşı Paşayev Şura Tapdıq oğlu, oğlu Paşayev Elşad Şura oğlunun güllələnməsinin şahidi olmuşdur.

Əmirova Xəzangül Təvəkkül qızı: -

Xocalı işğal olunan zaman erməni silahlıları onun ailəsini bütünlüklə girov götürmüşdür. Ermənilər Xəzəngülün anası Röyanı, 7 yaşlı bacısı Yeganəni və xalası Göyçəni güllələyib, atası Əmirov Təvəkkülü isə benzin tökərək yandırmışlar.

Əliyeva Zoya Əli qızı: -

"Ermənilər bizi girov götürən kimi yanımdakı 6 nəfəri yerindəcə güllələmişlər".

Kərimova Səidə Qurban qızı: -

"12 nəfərlə birlikdə girov götürüldük. Ermənilər qızım Nəzakəti, Tapdığı, Səadəti, İradəni işgəncə ilə öldürmüşlər".

Nəcəfov Əli Ağamalı oğlu: -

"Ermənilər qaçan adamları mühasirəyə alaraq, 30-40 nəfəri yerindəcə güllələmişlər".

**Azərbaycanın mükəmməliyi onun bütövlüyündədir:
Güney Azərbaycan, İrəvan, Dərbənd, Borçalı, Qarabağ.**

İŞĞAL

Azərbaycan Respublikası - Cənubi Qafqazın Şərqində, ərazisinin əksər hissəsi Xəzər dənizi sahillərində yerləşən müstəqil dövlətdir.

1918-1920-ci illərdə İslam Şərqində ilk demokratik cümhuriyyət - Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 114 min km^2 olmuşdur. Sevet Rusiyası tərəfindən işğal ediləndən sonra 1920-ci ilin dekabrında Azərbaycanın Zəngəzur qəzası Ermənistana birləşdirilmişdir. Hazırda Azərbaycan Respublikasının ərazisi 86.6 min km^2, əhalisi 8 milyon 200 min nəfərdir. Paytaxtı Bakı şəhəridir.

1920-ci il aprel ayının 28-də Sovet Rusiyası tərəfindən işğal edilən Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də yenidən dövlət müstəqilliyini bərpa etmişdir.

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi və onun ətrafındakı 7 inzibati rayonu işğal altına düşmüşdür.

1988-1993-cü illərdə işğal edilmiş Azərbaycan əraziləri

Dağlıq Qarabağ: işğal tarixi - 1988-1993-cü illər, ərazisi 4400 km^2. (Şuşa, Xankəndi, Xocalı, Əskəran, Xocavənd, Ağdərə, Hadrut)

Laçın rayonu: işğal tarixi - 18 may 1992-ci il, ərazisi - 1875 km^2;

Kəlbəcər rayonu: işğal tarixi - 2 aprel 1993-cü il, ərazisi - 1936 km^2;

Ağdam rayonu: işğal tarixi - 23 iyul 1993-cü il, ərazisi - 1154 km^2;

Cəbrayıl rayonu: işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1050 km^2;
Füzuli rayonu: işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1112 km^2;
Qubadlı rayonu: işğal tarixi - 31 avqust 1993-cü il, ərazisi - 826 km^2;
Zəngilan rayonu: işğal tarixi - 30 oktyabr 1993-cü il, ərazisi - 707 km^2;

Beləliklə, Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan 15 ildən çoxdur ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuş, adi insan haqlarından məhrum edilmişdir.

İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 9 min m^2-dən artıq olan 150 min yaşayış binası dağıdılmış, 4366 sosial mədəni obyekt, eyni zamanda 695 tibb ocağı məhv edilmişdir. İşğal edilmiş ərazilərdə kənd təsərrüatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Dağıntılar nəticəsində iqtisadiyyata 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir.

Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeologi abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. Belə ki, Kəlbəcər tarix diyarşünaslıq muzeyi yerləyeksan olunduqdan sonra muzeyin ekspozisiyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadan tarix muzeyinin, Ağdamdakı çörək muzeyinin, Zəngilandakı Daş Abidələr muzeyinin də taleyi belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi - mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Bir sözlə, Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq, Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 854, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

RUSİYANIN ERMƏNİSTANA QANUNSUZ SİLAH SATIŞI FAKTLARINI AÇIQLAYAN SİYASİ XADİMLƏRƏ VƏ AİDİYYƏTİ OLAN JURNALİSTLƏRƏ MOSKVADA TƏZYİQ ARTIR...

Bu gün Rusiyanın qanunsuz olaraq Ermənistanı silahlandırması artıq bütün dünya ictimayyətinə bəllidir. Rusiyanın sabiq müdafiə naziri Pavel Qraçovun və onun əlaltılarının gizli sövdələşməsi nəticəsində təşəkkül tapan təcnavüzkar ideyanın praktiki əməliyyatı nəinki Zaqafqaziya xalqlarının, hətta bütün dünya ictimaiyyətinin də son dərəcə dərin narahatçılığına səbəb olmuşdur.

- İlk dəfə Moskvanın ORT, "Vesti" televiziya kanallarının xəbərlərindən, "Sovetskaya Rossiya", "Moskovski komsomolets" və digər dövri mətbuatda dərc edilmiş materiallardan məclum olduğu kimi, Rusiyadan Ermənistana bir milyarddan artıq dəyəri olan hərbi texnika, silah-sursat göndərilmişdir.

Hazırda Ermənistanın siyasət sükanı millətçi daşnak tör-töküktülərinin əlindədir. Əsrin başlanğıcında törətdikləri cinayətlərə görə Ermənistanı tərk edənlər, daşnak təbliğatı ilə "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni mafiyasının yeni nəsli Ermənistan Respublikasında dövlət strukturalarını ələ keçiriblər.

Yerevanda nəşr olunan "Molorak" ("Peyk") erməni qazeti yazır ki, Dağlıq Qarabağ qarşıdurması məsələsində prezident Levon Ter - Petrosyana məsləhət verən əsas şəxslər ABŞ vətəndaşlarıdır: Cirayr Liparitян-prezidentin baş müşaviri; Vardan Oskanyan - xarici işlər nazirinin müavini (bax: 31 oktyabr 1996-cı il).

Erməni əhalisinin Dağlıq Qarabağa gəlmə olduqları inkar edilməz bir faktdır. Təkzibedilməz tarixi sənədlər erməni xalqına da bəllidir. Buna əhəmiyyət verməyən eräni mafiyası tarixi faktları bilərəkdən təhrif etmək üçün

məqsədyönlü işlər görürlər. Qondarma DQR-nin xarici işlər naziri A.Qukasyan deyir:

"Biz sübut etmək istəyirik ki, ermənilər milli azlıq deyil, yerli xalqdır". (bax: "Respublika Armeniya", 8 noyabr 1996)

Ermənilərin xaricdə "Noyes syurxer saytunq" qəzetində dərç etdirdikləri məqalədə Dağlıq Qarabağın müstəqil olması fikrini əsaslandırmağa çalışırlar. Orada deyilir ki, "DQR" müstəqildir, pulu, ordusu, bayrağı var. Burada Azərbaycan pasportu işləmir. (bax: "Qolos Armenii", 17 oktyabr 1996-cı il).

Ermənistan özünü Dağlıq Qarabağda sülhün və rekionda atəşkəsin tərəfdarı kimi göstərməklə kompromisə hazır olduğunu bildirsə də, danışıqların Azərbaycanla Dağlıq Qarabağ arasında aparılmasını təçkid edir. Ermənistanın xarici işlər naziri Aleksand Arzumanyan ABŞ dövlət departamentində çıxışında qeyd etmişdir ki, "Ermənistan bu günədək və bundan sonra da Dağlıq Qarabağ münaişəsinin sülh yolu ilə nizamlanması işində Dağlıq Qarabağ əhalisinin müqəddəratının həll etməsi prinsipini əsas tutub və Dağlıq Qarabağın təhlükəsizliyinin tərəfdarıdır."

Ermənistanın məqsədi Azərbaycana Dağlıq Qarabağın müstəqilliyini tanıtmağa nail olmaqdır.

Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə dövləti müşaviri Vəfa Quluzadə demişdir:

"Biz bunu başa düşürük və heç bir zaman bunu etməyəcəyik".

Dağlıq Qarabağ münaqişəsinin həlli yolu Azərbaycanla Ermənistanın bir-birinin ərazi bütövlüyünü qəbul etməsi və Dağlıq Qarabağın muxtariyyət məsələsini həll etməsidir. Qarabağ ermənilər də Qarabağ azərbaycanlıları kimi ma-

raqlı olan tərəflər statusu ilə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesində iştirak edir. Vəfa Quluzadə demişdir: "Azərbaycan heç bir vaxt Dağlıq Qarabağın müstəqilliyini qəbul etməyəcək!"

Dövlət müşavirinin Prezidentin tapşırığı ilə ABŞ-na olmuş rəsmi səfərinin (1996.111.16.28) yekunlarına həsr etdiyi mətbuat konfransından aydın görünür ki, Azərbaycanın ABŞ-kı reytinqi xeyli yüksəlmişdir. Belə ki, Amerikada Azərbaycanın müstəqil dövlət kimi yeritdiyi siyasətə yüksək qiymət verirlər. Ölkəmizin Qafqaz və Orta Asiyada demokratiyanın bayraqdarı olduğu xüsusi vurğulanır. Ukrayna və Gürcüstanla bağlanan müqavilələrin böyük əhəmiyyət kəsb etdiyini eçtiraf edirlər. Qərb ölkələri müsəlman əhalisi olan Azərbaycanın xristian Ukrayna və Gürcüstana yaxınlaşmasını müsbət sivil bir hal kimi qiymətləndirirlər. Eyni zamanda, Ermənistanla İranın əməkdaşlaığı son zamanlar xeyli tənqid olunur.

Rusiya politoloqları - ermənipərəst Konstantin Zatulin və Rusiya hökümətində uzun müddəti məsləhətçi olan Andranik Miqranyan "Nezavisimaya qazeta" da dərc edilən "MDB: Tarixin başlanğıcı, yoxsa sonu?" adlı - Rusiyanı qeyri-rus dövlətlərinə qarşı mübarizəyə sövq etmək məqsədini gündən yazının müəllifi olmadıqlarını bildirsələr də, orada deyilən fikrə tərəfdar çıxdıqlarını bəyan ediblər. Mətbuatda hay-küy qaldırmış cızma-qarada belə bir ideya irəli sürülür: Ermənistan Gürcüstanın Uavaxetiya əyalətini özünə birləşdirərək Rusiyaya nəqliyyat dəhlizi açа bilər.

Gündəlik "Ponarama" qəzetinin (11 aprel 1997) yazdığı kimi, son zamanlar Uavaxetiya regionunun erməni əhalisi Gürcüstan hökuməti qarşısında vaxtaşırı sosial və iqti-

sadi tələblər qoyur. Bu, Dağlıq Qarabağ erməni əhalisinin 1988-ci ildə sosial-iqtisadi tələblər irəli sürməsi bəhanəsi ilə fitnəkar-lıqla nəticələndi.

Konstantin Zatulin və Andranik Miqranyan İrəvana səfər zamanı erməni curnalistləri ilə bütün görüşlərində yaranmaqda olan "Daşkənd - Bakı - Tbilisi - Kiyev" oxunun Rusiya üçün son dərəcə ciddi təhlükə yaradacağını əsas tutaraq Uavaxetiya əyalətinin Ermənistana birləşdirilməsi ideyasına tərəfdar çıxırlar. Beləliklə, Rusiya politoloqları qonşu dövlətin daxilində separatçılığı açıq-aşkar müdafiə edirlər. Onlar Gürcüstan, Azərbaycan, Ukrayna və Özbəkistan arasında yaranan əməkdaşlığı Rusiyanı təkləmək, siyasi və iqtisadi cəhətdən məhv etmək kimi qələmə verməklə Rusiyanı həmin ölkələrdə "qruplaşmanı" dağıtmağa, sabitliyi pozmağa çağırırlar.

Konstantin Zatulin və Andranik Miqranyan və onların həmfikirləri Ermənistan hökumətinə Zaqafqaziyada geniş meydan açmaqdan ötrü Rusiyanı Daşkənd-Bakı-Tbilisi-Kiyev oxunu dağıtmaq üçün Ermənistanı birməçnalı dəstəkləməyə təhrik edirlər. Onların fikrincə, "Bu addım Gürcüstan və Azərbaycanda olan etnik azlıqları ayağa qaldırmaqla bu ölkələrdə sabitliyi pozmalı, daxildəki siyasi qüvvələri öz hökumətlərinə qarşı qaldırmalı və bu ölkələrin sərhədlərinin dəyişməsinə və iqtisadiyyatlarının dağıdılmasına xidmət etməli, həmçinin bu ölkələrin beynəlxalq aləmdə izolyasiyasına səbəb olmalıdır".

Göründüyü kimi, müstəqil Azərbaycan Respublikasında məqsədyönlü siyasət nəticəsində əhəmiyyətli dərəcədə nəzərə çarpan yüksəliş, onun regionda və beynəlxalq aləmdə mövqeyinin get-gedə möhkəmlənməsi Ermənistan hö-

kumətinin fırıldaq və aldatma ilə köklənən diplomatiyasının əsasını sarsıtmışdır.

Hazırda Ermənistan Respublikasının baş naziri, qondarma "DQR"-nın sabiq prezidenti R.Koçaryan 1996-cı ilin sonunda Arsax Universiteti müəllim - tələbə heyçəti ilə görüşündə demişdir: "Biz güclü ordu yaratmışıq, rəqibimizi sülhə məcbur etmişik, müharibədə qələbə qazanmışıq, konflikt tərəfi kimi danışıqlarda iştirak edirik" (bax: "Respublika Armeniya, 8 noyabr 1996-cı il").

Levon Ter-Petrosyanın yaratdığı erməni ümummilli hərəkat partiyasının rəsmi qəzeti yazır: prezidentliyə namizəd Vazgen Manukyanın kabinetində yoxlama zamanı aşkara çıxarılmış gizli sənədlərin birində deyilir: "Elə iş aparmaq lazımdır ki, Artsax və Ermənistan cəbhə xətlərində Azərbaycan tərəfindən birinci hücum əməliyyatı yaransın" (bax: "Çayk," 23 oktyabr 1996-cı il).

Erməni liderləri Dağlıq Qarabağa xüsusi qayğı ilə yanaşır, eyni zamanda, güclü ordu yaratdıqları ilə öyünür, hətta "Azərbaycan tərəfindən 1-ci hücum əməliyyatı" yaratmağın yollarını araşdırırlar. Onlar bütün dünyaya car çəkib özlərini təmizə çıxarmaq, Azərbaycanı təcavüzkar kimi qələmə vermək, beləliklə, öz alçaq əməllərini ört-basdır etmək niyyəti ilə bu cür son dərəcə alçaq xəyallara düşürlər.

Ermənistan liderlərinin faşistsayağı hədyan danışıqlarına səbəb onların Rusiya prezidenti və hökumətindən xəlvəti, qeyri-qanuni yollarla alınan hərbi texnikaya bel bağlaması olmuşdur. Onlar güman edirlər ki, Ermənistanda ictimai-siyasi, iqtisadi böhranın aradan qaldırılmasının ye-

ganə çıxış yolu regionda sabitliyi pozmaq, müharibə ocağı yaratmaqdır.

Ermənistan hökumətinin düçar olduğu ağır ictimai-siyasi böhran getdikcə dərinləşir. 1991-1996-cı illərdə Ermənistanı iki yüz minə yaxın qaçqın tərk etmişdir.Bunlardan 170 min erməni qaçqını Rusiyada yaşayır (bax: "Azq", "Millət," 30 oktyabr 1996-cı il).

Kanada ermənisi A.Petrosyan Yerevanda nəşr etdirdiyi "Qarabağ probleminin müxtəlif tərəfləri" kitabında kənd təsərrüfatının çətinliklərindən, Bakı qaçqınlarının, gəncələrin Dağlıq Qarabağı tərk etməsindən şikayətlənir ("Respublika Armeniya" 1996).

Ermənistan ərazisindən xarici ölkələrə kütləvi axın erməni hakim dairələrinin qarşısında yeni problemlər yaratmışdır. Bunlardan biri də xaricdə yaşayan ermənilərin özgə millətdən olanlarla evlənməsi qorxusudur. M.Manukyan "Hayastan" ("Ermənistan") qəzetində ABŞ-da qarışıq nigahdan olan 20-25 min məktəbyaşlı erməni uşaqlarından erməni məktəblərində yalnız 276 nəfərin oxumasını qeyd edir. Sonra yazır: "Koliforniyada 50 min məktəbyaşlı erməni uşağından 5 min nəfəri erməni məktəblərinə cəlb olunub" (bax: 2 noyabr 1996).

Məlum olduğu kimi, aprelin 2-də Rusiya Dövlət Dumasında müdafiə məsələləri üzrə komitə sədri, general Lev Roxlin Rusiyadan Ermənistana hərbi texnika göndərilməsi barədə məcruzə edərkən, bir sıra deputatların, həmçinin ermənipərəst Qalina Staravoytovanın təklifi ilə məcruzə bağlı qapı arxasında dinlənilmişdir. Q.Staravoytovaya görə, general Lev Roxlinin bu mövzuda açıq çıxışı Rusiyanın strateci maraqlarına və digər dövlətlərlə münasibətlərinə ziyan vura bilər.

Ermənipərəst Qalina Staravoytova və onun həmfikirləri güman edir ki, Rusiyaya təəssübkeşlikdən daha çox keçmiş müdafiə naziri Pavel Qraçovun və onun əlaltılarının Ermənistanla gizli sövdələşməsinin geniş yayılmasına mane olmaq qayğısına qalmışdır.

Dumanın müdafiə məsələləri üzrə komitəsinin sədri Lev Roxlinin Rusiya Dövlət Dumasında bağlı qapı arxasında verdiyi məclumat "Sovetskaya Rossiya" qəzetində çap edilib, yayılmışdır. Bu məlumat Ermənistan hakim dairələrinin və Rusiyada onları dəstəkləyənlərin rüsvayçı əməllərinə qarşı ittihamnamədir.

Rusiyada silah satışının ayrı-ayrı mafioz strukturlarının əlində olması, dərəbəyliyə geniş meydan verilməsi üzündən 1993-1996-cı illərdə Rusiya qoşunlarının Zaqafqaziyada yaradılan qrupu tərəfindən Ermənistana külli miqdarda silah-sursat və ehtiyat hissələri qanunsuz verilmişdir. Bütün silah, texnika və hərbi əmlak (təchizat-nəqliyyat maşınları, radiostansiyalar, kosmik rabitə sistemi, rabitə komplektləri, hədəfi təcyin edən stansiya və s.) Rusiyanın Gümrü, Gürcüstanın Vaziyani rayonu, Batumi, Omsk hərbi bazasından, Kubinka, Kalenka, Çkalovski, Mozdok, Aktyubinsk şəhərinədək "Casmin", Mozdon aerodromundan, Novorossiysk və Batumi limanlarından külli miqdarda döyüş texnikası, silah və hərbi əmlak daşınmışdır.

Lev Roxlin deyib:

"Ermənistana yalnız 1996-cı ildə verilmiş 24 operativ taktiki raket və R-17 kompleksi üçün döyüş başlığı Bakını büsbütün dağıtmağa kifayət edir. Ermənistanın mütəxəssisləri Kapustinyar poliqonunda məhz həmin komplekslər üzrə təçlim keçmişlər".

Lev Roxlin Rusiya Dövlət Dumasının iclasında Ermənistana silah və hərbi texnikanın qanunsuz ötürülməsini Müdafiə Nazirliyinin yuxarı eşolonunun korrupsiyaya uyması, özbaşnalığı ilə əlaqələndirmişdir. O demişdir: "Şübhə yoxdur ki, Müdafiə Nazirliyində heç bir böyük addım müdafiə naziri Qraçovdan xəbərsiz atıla bilməzdi. Əsas sual isə ondan ibarətdir ki, silah göndərilməsinə dair ona ilk əmr kim tərəfindən verilib? Axı, Pavel Qraçov işdən çıxarıldıqdan sonra da yeni müdafiə naziri tərəfindən Ermənistana gizli şəkildə silah-sursat və hərbi texnika ötürülməsi davam edib. Bir milyard dollar dəyərində olan bu əmlakın müqabilində dövlətə bir rubl da çatmayıb".

Mətbuatda Rusiya ordusunun problemlərindən dönədönə həyəcanla danışıldığı halda Müdafiə Nazirliyində kök salmış mafiya milyardları göz-görəsi havaya sovurur. Kiməsə bağışlayır.

Diqqət!!!

"Vaşinqton tayms" qəzeti 10 aprel 1997-ci il tarixli sayında yazır:

"Qərb kəşfiyyat mənbələrinin dediyinə görə, 1992-ci ildən başlayaraq, münaqişənin ən qızğın vaxtlarında Rusiyanın ağır yükdaşıyan təyyarələri Qafqazı aşaraq 1300 tondan çox sursatı, hava hədəflərinə qarşı istifadə olunan 1000-ə qədər hərbi "Strela-2" və "Strela-3" raketləri vermişdir... Bu silahlar Azərbaycana məxsus olan ərazilərin böyük bir hissəsinin Ermənistan tərəfindən işğalında həlledici rol oynamışdır".

"Vaşinqton tayms" qəzeti Rusiyanın "tarixi müttəfiqi olan ortodoks xristian Ermənistanı dəstəkləməsini", onunla dostluq və strateji əməkdaşlıq müqaviləsi bağlamasını

narahatçılıq doğuran təzyiq kimi qiymətləndirir. Ermənistanın sabiq prezidenti Ter-Petrosyanın Dağlıq Qarabağ liderini Ermənistanın baş naziri təçyin etməsini yeni hücumların başlanmasına şərait yaradan hərəkət kimi qiymətləndirmişdi.

"Vaşinqton tayms" yazır: "Ermənistan ərazisində üç əsas bazada Rusiyanın 20 minlik 4-cü ordusu yerləşir".

"Təkcə Ermənistana silah daşıyan "Ruslan" və "İL-76" təyyarələrinin 139 reysi 7 milyard 950 milyon manata başa gəlib".

Lev Roxlin Rusiyanın müəyyən siyasi qüvvələrinin Ermənistanın Azərbaycan üzərində silah-sursat cəhətdən üstünlüyünü yaratmaqla münaqişəni hərbi yolla həll etmək niyyətini kəskin tənqid edərək demişdir: "Zaqafqaziya ölkələrinə münasibətdə belə ayrı-seçkilik son dərəcə təhlükəlidir və münaqişə ocaqlarının yenidən alovlanmasına, Rusiyanın da bu münaqişələrə cəlb olunmasına səbəb ola bilər". "Lev Roxlin Duma adından prezidentə və hökumətə yeritdikləri siyasətə görə Zaqafqaziya Respublikalarının rəhbərlərindən üzr istəmələrini təklif etməyi zəruri saydığını bildirib. Həmçinin onlara təklif olunub ki, Qarabağ probleminin dinc yolla həllinə imkan verən təçcili tədbirlər görülsün".

"Em-Pi-Ey" agentliyinin yaydığı xəbərə görə, "Rusiyanın ağır silahlarının qanunsuz olaraq Ermənistana verilməsi faktının açıqlanmasına aidiyyatı olan siyasi xadimlər və curnalistlərə Moskvada təzyiq artır".

General Roxlini susdurmaq üçün Rusiya hərbi idarələrinin kəşfiyyat xidmətləri, sol təmayüllü qəzetlər, Dövlət Dumasının ermənipərəst deputatları hay-küy qaldırdılar.

Qalina Staravoytovaya görə, Ermənistan Rusiyanın strateci tərəfdarıdır və Rusiya Federasiyasının hərbi bazalarının yerləşdiyi bir ölkəyə silahın verilməsi geniş müzakirə mövzusu ola bilməz.

General Roxlinin köməkçisi, "Moskovski komsomolets" qəzetinin siyasi icmalçısı Aleksandr Budberq Ermənistana silahın ötürülməsi faktını açıqlayan məqaləsindən ("MK", 14 fev-ral 1997) sonra anonim hədələr və sol təmayüllü qəzetlərin hücumu ilə qarşılanıb.

"Pravda" qəzeti Aleksandr Büdberqi "milli maraqlara xəyanətdə ittiham" etmişdir.

Xaricdə, xüsusən İranda yaşayan ermənilər Dağlıq Qarabağa tez-tez təşrif gətirirlər. "Dağlıq Qarabağ Respublikası" qəzeti 18 oktyabr 1996-cı il tarixli sayında İranın erməni dilindəki radio-televiziya verilişinin redaktoru S.Mikasyanın "Mən Qarabağa ziyarətçi kimi gəlmişəm" deyə öyündüyündən xəbər verir. O, öz çıxışında İranda ermənilərin hörmət və izzət sahibi olduqlarını söyləmişdir. S.Mikasyan demişdir: İranda erməni icması ən nüfuzlu və hörmətli icmadır. İki deputatımız var, qarışıq nigaha girməmişik, erməni dilində qəzetimiz, curnalımız çıxır, fars dilində özümüz, tariximiz, mədəniyyətimizlə bağlı curnal nəşr etdiririk. Hər həftədə 2,5 saat erməni və fars dilində verilişimiz gedir.

"Respublika Armeniya"nın rəsmi xəbərlərində İranın İsfahan vilayətinin qubernatoru ilə Ermənistan hökumət başçıları görüş - zamanı kimya sahəsində əməkdaşlığın perspektivi, "Ermənistan-İsfahan" yük magistralı yolunun çəkilişi istiqamətindəki işlərin gedişi müzakirə olunmuşdur (30 oktyabr 1996).

İran - Ermənistan hakim dairələri qarşılıqlı əlaqələri çoxşaxəli, çoxcəhətli inkişaf etdirmək əzmindədir. Ona görə də yeri düşdükcə, biri digərini dəstəkləyir, yaxınlaşmaq üçün yeni yollar arayırlar. İrəvanda fars poeziya günlərinin keçirilməsi bu tədbirlərdən biri olmuşdur. İran - İslam Respublikasının Ermənistandakı səfirliyinin əməkdaşı Mühəmməd Piri iki xalqın mənəvi əlaqələrindən danışmışdır. Onun fikrincə, fars-erməni xalqlarının mədəni əlaqələrinin 2700 illik tarixi vardır. "Həm ermənilər, həm də farslar ari kökə malikdirlər" ("Hayastani Hanrebedutyun" - "Ermənistan Respublikası" 7 noyabr 1996-cı il, nömrə:228).

İranın ictimai-siyasi aləmdə mövqeyini müəyyənləşdirən səbəblər hamıya bəllidir.

Ermənistan külli miqdarda hərbi texnikanın və silahın bir hissəsini Azərbaycanın Dağlıq Qarabağ ərazisində yerləşdirməklə təcavüzkar dövlət olduğunu və beynəlxalq hüququn "bütün mübahisələr sülh yolu ilə həll edilməlidir" prinsipini kobud şəkildə pozduğunu bir daha sübut etmişdir. Bu, 1994-cü ildə imzalanmış atəşkəs müqaviləsinin şərtlərinə və Avropada adi silahların məhdudlaşdırılmasına dair razılaşmaya da ziddir. Heç şübhə yoxdur ki, bütün bunlar özlərini sülh tərəfdarı kimi qələmə verən Ermənistan dövlət başçılarını beynəlxalq ictimaiyyət və nüfuzlu dövlətlər qarşsında rüsvay edəcəkdir.

Ermənistan Fransada böyük nüfuza və güclü tə"sirə malik erməni diasporuna arxalanaraq Dağlıq Qarabağ münaqişəsinin öz xeyrinə həll etməyə ciddi-cəhd etsə də, "Azərbaycan təcavüzkardır" fikrini formalaşdırsa da, zaman geçdikcə, həqiqət üzə çıxır. Hazırda Fransa tərəfi mü-

naqişənin həllində beynəlxalq hüquq prinsiplərini əsas götürməyi rəsmi bəyan etmişdir. Ermənistanla sabit və daimi əlaqələrinə baxmayaraq, Fransa ATƏT-in Minsk qrupunda həmsədr olduğu bir vaxtda beynəlxalq hüquq normalarını pozaraq Ermənistanın ədalətsiz mövqeyini dəstəkləməyəcəkdir. Hazırda Fransanın Azərbaycana münasibətində ümumi və hərtərəfli maraqlardan çıxış etməsi və qarşılıqlı əlaqələrin möhkəmlənməsi münaqişənin obyektiv həllinə zəmanət verir.

Fransanın ən böyük neft şirkətləri "Elf Agiten" və "Total" Azərbaycan Neft Sənayesinə külli miqdarda investisiya qoyurlar. 1997-ci ilin yanvarında Azərbaycan Neft Şirkəti ilə Xəzər dənizində neft ehtiyatları 350 milyon barel güman edilən və kapital qoyuluşunun həcmi 1,5 milyard dollar olan "Lənkəran-dəniz" və "Talış-dəniz" strukturlarının birgə istismarına dair müqavilə imzalanmışdır.

Bu iqtisadi əlaqələr, eləcə də iki ölkə əməkdaşlığının ayrı-ayrı sahələrinin inkişafı Zaqafqaziyada, xüsusən Azərbaycanda Fransa üçün sülhün vacib olduğunu sübut edir.

İndi cəsarətlə demək olar ki, Fransa Azərbaycana strateji müttəfiq, Azərbaycan isə Fransaya Avropada yeni və nüfuzlu tərəfdaş kimi baxa bilər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Rusiya Federasiyasının prezidenti Boris Yeltsinə məktubunda Ermənistana verilmiş Rusiya silahlarının Rusiyaya qaytalarıması üçün ən təsirli tədbirlər görülməsi barədə göstəriş verməsini xahiş etmişdir. Prezident Heydər Əliyev Rusiya Dövlət Dumasının Azərbaycanla əlaqələr üzrə parlament qrupunun rəhbərləri İ.Aniçkin və onunla Azərbaycana gələn deputatları qəbul edərkən Ermənistana qanunsuz yolla silah göndərilməsi məsələsinə etirazda həmrəylik göstərdiklərinə görə təşəkkürünü bildirmiş, təşviş doğuran faktlara işarə edərək demişdir:

"Heç kəs təminat verə bilməz ki, həmin silahlar təkcə Azərbaycana qarşı deyil, həm də digər dövlətlərə qarşı yönəldilməyəcək".

TARİXİ FAKTLAR

1. Erməni tarixçilərinin İrəvanın adının Urartu dövləti ilə bağlamaq cəhdləri elmi cəhətdən əsaslandırılmışdır.
2. İrəvan şəhərinin adının və salınmasının Şah İsmayılın əmrinə əsasən olması variantı daha məntiqə uyğundur. Belə ki, İrəvan xanlarının idarəçiliyə başlama tarixi (1441) verilmiş əmrin tarixindən çox da fərqlənmir. Görünür, bu fərq müəllif tərəfindən məqsədyönlü yaradılmışdır.
3. İrəvan əhalisinin tərkibi haqqında verilən məlumatların ziddiyyətli olması ilə yanaşı göstərilir ki, XIX əsrin əvvəllərində şəhərin əhalisinin 75,5%-ni türklər, 24,5%-ni ermənilər təşkil etmişlər.
4. Rusların apardıqları məqsədyönlü köçürmələr nəticəsində 1873-cü ildə İrəvanın əhalisinin 53,4%-ni türklər, 44,6%-ni isə ermənilər təşkil edirdi.
5. Fransız səyyahı Şardenin qeydlərinə əsasən 1673-cü ildə İrəvan qalasında olan əhalinin tamamilə türklərdən ibarət olduğu göstərilir.
6. İrəvan xanlığının mövcud olduğu 386-il (1441-1827) ərzində onun hökmdarları türklər olmuşdur.

1813-cü ildə fars-rus hökmranları Azərbaycanın köksünə Gülüstan möhürü vurdu. Və yenidən başıbəlalı bu məmləkət 1828-ci ildə bir daha parçalanmaya məruz qaldı. 1905-1907-ci illərdə də Azərbaycanın bütün bölgələrində rus-fars caynaqlarının hökmü ilə mənfur ermənin amansız qanlı aksiyaları baş alıb getdi. Azərbaycan xalqına qarşı olan bu tarixi faciələrin qarşısı alınmaz oldu.

1918-1920-ci illər...

- İslam Şərqində ilk Demokratik Cümhuriyyət... Bu heyrətamiz taxt-tacı qurmağa nail olublarsa, lakin onu qoruyub saxlamaq mümkün olmadı. 114 min km^2 əraziləri yenə işğala məruz qalıb. Sovet Rusiyası sözükeçən erməni güclülərinin iddiasınca Azərbaycanın Zəngəzur qəzasını Ermənistana birləşdiriblər.

1943-cü ildə erməni diasporunun əlinə yeni bir şans düşüb. Tehran konfransı zamanı Sovet-İran münasibətləri müzakirə edilərkən, SSRİ xarici işlər naziri V.Molotovdan İran ermənilərinin SSRİ-yə köçürülməsini xahiş etmiş və istəyinə çox asan da nail olmuşdur. Molotov cənabı məsələni Sov. YKP MK-nın Baş katibi İ.Stalinə çatdırır və müsbət cavab alır. Belə bir vəziyyətin zamanında Ermənistan KP MK-nın katibi Arutyunov öz istəyini daha dərin bir məkir üzərində qurur:

- Xaricdən ermənilərin köçü bəhanəsi ilə azərbaycanlıların Ermənistandan çıxarılması qərarına nail oldu.

- 1947-ci ilin dekabrın 23-də verilmiş SSRİ Nazirlər Sovetinin qərarı ilə Ermənistandan azərbaycanlı əhalisinin deportasiyası başlandı. Zorla! Və...

... Stalin tərəfindən növbəti qərarın qələbəsi:

- 1948-1953-cü illərdə sahibsiz azərbaycanlıların növbəti deportasiyası. Ermənilərin qurduqları siyasi məkrin mərkəzində duran məsələlərdən biri iqtisadi, sosial və mənəvi cəhətdən güclü, strateji əhəmiyyətli azərbaycanlı yaşayış məntəqələrinin boşaldılması idi. İlk mərhələdə onlar İrəvan şəhərinin yaxın ərazilərini, sonra rayon mərkəzləri və ətraf kənd, qəsəbələrinin azərbaycanlı əhalisini köçürməyə başlamışlar. Ermənistandan köçürülən bir nəfər də azərbaycanlı Dağlıq Qarabağ ərazisinə buraxılmamışdır. "Böyük Ermənistan" ideyasının həyata keçirilməsi istiqamətində bu ərazinin azərbaycanlılardan boşaldılması işi planlı surətdə davam etdirilmişdir. 1949-cu ildə Dağlıq Qarabağdan kütləvi surətdə azərbaycanlılar Azərbaycanın Xanlar rayonuna köçürülmüşdür.

Deportasiya zamanı ermənilərin həyata keçirdikləri hiyləgərliyin mənfur sifəti çox asan və incə detal üzərində qurulmuşdur: Rayon və şəhərlərin əhalisi az sayda azərbaycanlı qalmaq şərti ilə köçürülmə. Və azlıqda qalan əhalisi isə növbəti mərhələdə - Ermənistan ərazisinin tamamilə azərbaycanlılardan "təmizlənməsi" əməliyyatı zamanı ölkədən çıxarılmışdır. Bu, 1988-1989-cu illər arasında davam edib və sona çatdırılmış ağır, məşəqqətli deportasiyanın yekunu oldu. Bəli, təcavüzkar Ermənistan Azərbaycanın dilbər guşəsi Dağlıq Qarabağ bölgəsini və onun ətrafındakı 7 rayonu çox asanca işğal etməsi ilə bəlkə də "Böyük Ermənistan" məqsədinə nail olmuş oldu.

Axı... nəyə görə hər dəfə işğalçı (fars-rus-erməni) Azərbaycan üzərində güclü və qalib, Azərbaycan isə bu bəla qarşısında aciz və məğlubdur?!

- Bu məkrli "Bermud"u viran qoyacaq bir Azərbaycan gücü tapılacaq, ya yox?

Ermənistan Azərbaycanın 25 faizini işğal etdiyi qədim torpaqları üzərində hökmrandır. Öz bayrağı, öz möhürü, öz şəxsiyyət sənədi var. Rahatca dünya bazarına çıxır; Zəbt etdiyi torpaqların suyu, qızılı, digər təbii sərvətləri ilə. Ən dəhşətli ağrısı isə bəyxan nəslimizin illər boyu yad işğalçılardan qoruyub saxladıqları o müqəddəs torpaqlar indi narkobiznesin əkin oylaqlarına çevrilmişdir.

Bu. Azərbaycan tarixinin böyük dərdlərindən sonuncusudur. Kaş ki, heç olmasa, onun sahibi olaydı. Və görən, sahib olacaqmı? Olacaqsa... kimdir o?

- Kimdir bu dərdin sahibi?

- Yoxsa Gülüstan, Türkmənçay sitəmi tək 25 faiz də unudulub nəsillərin qan yaddaşından silinib itəcək?

Qurbansız nəyə isə nail olmaq mümkün deyil. Və növbəti dəfə işğal edilmiş 17 kv km torpaqların müsbət müqəddəratını sülh danışıqları deyil, yalnız müharibə həll etməyə qadirdir.

DTK ... Əzəmətli, sirli saray...

Hər bir tarixi əsərin hökmran qəhrəmanlarının ömür karvanı məhz bu binanın soyuq-sirli divarları arasında ötmüşdür. Oynanılan fiqurların taleyində kimlər şahdan mata enmiş, kimlər isə matdan şaha yüksəlmişdir. Bu daş qəsr dolu-dolu xəzinədir, Sirlər Xəzinəsi. Bəli, Milli Təhlükəsizlik Nazirliyi. Qiyməti daşıdığı məsuliyyəti qədərdir. Onun keşməkeşli yollarında bir zaman yanıb mətnləşmiş böyük insanlar indi elə onunla nəfəs-nəfəsə durmuşdular əbədi taxt-taclarında. Bəli, MTN-nin möhtəşəm sirlər xəzinəsinin böyük bir hissəsi Fəxri Xiyabanda məskunlaşmışdı. Elə bir xəzinə ki, onun nələri isə dinib danışması və izhar etməsi heç bir zaman mümkün olmayacaqdır. Fəxri Xiyaban isə susmuşdu. Elə bil Şəhidlər Xiyabanının yaranmasının günahkarını köksündə uyutduğu üçün.

Bilmirəm, nə üçün mən sığmıram
aləmə, cümlə-cahana...
Hər atəş içində meydan açıram:
- Odun yox, külün mən satın alırım!